# Suriya və Cənubi Qafqaz – Zəngəzur dəhlizi perspektivi

**Suriyada yaşananların Cənubi Qafqaz siyasi platformasına təsiri. Hazırda bu məsələ ətrafında müzakirələr getməkdədir. Xüsusən Ermənistanda. Erməni ictimai rəyinin bəzi təmsilçiləri təlaş içərisindədirlər. Onları İranın Suriyadakı mövqeyinin zəifləməsi qorxudur. Qorxudur və bildirirlər ki, əgər Azərbaycan güc yolu ilə Zəngəzur dəhlizini açmağa cəhd göstərsə, Tehran bunun qarşısında dayanmayacaq.**

Ermənistanda Rusiyanın da Suriyada düşdüyü duruma diqqət yetirənlər və əndişəyə düşənlər az deyil. Ümumən, bu məsələ ilə bağlı vurğulanmalı bir sıra məqamlar var.

**(ardı 12-ci səhifədə)**





# Erməni cəmiyyəti sülhdə maraqlıdırmı?

**Ermənistan əhalisi 2021-ci il iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkilərində Azərbaycanla yeni müharibəyə səsləyən Qarabağ klanına, digər radikal-revanşist qüvvələrə deyil, indiki baş nazir Nikol Paşinyana səs verdi.**



Bununla da erməni xalqı yenidən müharibə istəmədiyini nümayiş etdirmiş oldu. Çünki haylar yeni müharibənin yeni insan və ərazi itkiləri demək olduğunu aydın başa düşürdülər. Beləliklə, onlar Paşinyana səs verməklə, əslində, yeni müharibəyə “yox!” demiş oldular və ona Azərbaycanla sülhə getmək üçün səlahiyyət verdilər.

**(ardı 12-ci səhifədə)**


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 273 (30677) 11 dekabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycanın Türkiyə ilə qardaşlığı və dostluğu strateji müttəfiqlik zəminində uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar.

Azərbaycan Prezidenti Mətbuat xidmətinin bu barədə məlumatında bildirilir ki, dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniştərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan öz növbəsində COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub.

Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər.

Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib.

Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***



# İslamabad Bakının Hind okeanına yolunu açır

## *Azərbaycan–Pakistan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsi bəzilərini narahat edir*

**2024-cü ilin iyulunda Azərbaycan Prezidenti cənab İlham Əliyevin dost, qardaş Pakistan Respublikasına dövlət səfəri, onun şərəfinə təşkil olunmuş möhtəşəm qarşılanma mərasimi yaddaşlardan silinməyəcək. Rəsmi İslamabadın həmin jesti Azərbaycan Prezidentinə göstərilən ən yüksək səviyyədə hörmət və ehtiramla yanaşı, iki xalq və dövlət arasında qardaşlıq münasibətlərinin təcəssümü idi. Azərbaycan–Pakistan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu hər iki tərəfdə etiraf edilir.**

Pakistanla Azərbaycan bütün müstəvilərdə –istər regional layihələrdə, istərsə də beynəlxalq platformalarda daim bir-birini dəstəkləyir. İndi biz iki ölkə arasında tarixi köklərə bağlı, dostluq və qardaşlıq təməllərinə söykənən strateji tərəfdaşlıq münasibətlərindən danışa bilərik.

Rəsmi İslamabadın ərazilərimizi işğal etdiyinə görə İrəvanla diplomatik əlaqələr qurmaması, hətta torpaqlarımız azad ediləndən, suverenliyimiz tam bərpa olunandan sonra da bunu etməməsi məhz əsl dostluğun və qardaşlığın nümunəsidir. Azərbaycan da Pakistan üçün vacib sayılan Cammu və Kəşmir məsələsində birmənalı olaraq öz dəstəyini ifadə edib. Bu mövqe həm də, hər iki ölkənin beynəlxalq hüquqa və tarixi ədalətə olan sadiqliyinin göstəricisidir. Pakistanda hakimiyyətdə hansı siyasi qüvvənin olmasına baxmayaraq Bakı–İslamabad əlaqələri yüksələn xətlə inkişaf edib.

Diplomatik sahədə olduğu kimi, iqtisadi zəmində də əlaqələrin genişləndirilməsi, tərəflərə fayda verəcək ortaq layihələrin reallaşması istiqamətində əməli addımlar atılmaqdadır.

Pakistanın enerji daşıyıcılarına olan tələbatını ödəməkdə çətinliklərlə üzləşdiyi bu günün məsələsi deyil. İslamabad etiraf edir ki, hər il idxala, xüsusilə, neft və təbii qazın kənardan alınmasına 37 milyard ABŞ dolları xərcləyir. Nüvə proqramına görə Qərbin İrana tətbiq etdiyi sanksiyalar ucbatından İran–Türkmənistan–Əfqanıstan–Pakistan qaz kəməri layihəsi reallaşmayıb. Daxildə karbohidrogen enerjisinə ehtiyacını ödəmək üçün Pakistana Azərbaycan kimi etibarlı tərəfdaş lazımdır. Azərbaycanın da Asiyanın bazarlaına çıxış əldə etməsindən ötrü Pakistan İslam Respublikası ilə əməkdaşlıq yalnız fayda gətirər.

**(ardı 6-cı səhifədə)**

# “Dəmirqapı”da sənət məbədi



Səhifə ⇨ 15

# Ermənistan Yaxın Şərq müttəfiqini itirdi

**Suriya hadisələri Ermənistanda da fəal müzakirə olunur. Bu da təsadüfi deyil, ona görə ki, Bəşər Əsədin devrilməsi Ermənistanın Yaxın Şərq regionunda müttəfiqlərindən birinin itirilməsi ilə nəticələndi.**

İki ölkə arasında tarixi əlaqələr, hərbi sahədə əməkdaşlıq və Qarabağ məsələsində Dəməşqdən aldığı dəstək İrəvanı Suriyaya daha çox diqqət ayırmağa həvəsləndirirdi.

***(ardı 5-ci səhifədə)***



# Azərbaycan 12 ölkəyə qaz ixrac edir




Səhifə ⇨ 9

# Gürcüstan hökuməti ölkədə zorakılığın təşviqini pisləyir



Səhifə ⇨ 7

# Azərbaycan Prezidenti İlham Əliyev Həştərxan qubernatorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib.**

Dövlətimizin başçısı Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Qubadlı rayonuna səfərinin əhəmiyyətinə toxundu, orada Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq uşaq bağçasının inşasının önəmini vurğuladı, buna görə bir daha minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bunu Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfəri zamanı İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətinin həmin ərazilərdə törədilən dağıntıları, eyni zamanda, keçmiş məcburi köçkünlərin oraya tezliklə köçürülməsinin təmin edilməsi üçün Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini öz gözləri ilə görməsinin əhəmiyyətinə toxundu. Azərbaycan Prezidenti bir daha qeyd etdi ki, Həştərxan nümayəndə heyətinin orada gördüyü dağıntılar bütün Qarabağ və Şərqi Zəngəzurda - böyük bir ərazidə də var.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında yenidənqurma və bərpa işlərinə, o cümlədən sosial infrastrukturun yaradılmasına verilən hər cür dəstək, xüsusilə dost ölkələr tərəfindən göstərilən dəstək çox mühüm əhəmiyyət və böyük rəmzi xarakter daşıyır.

Görüşdə Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi, eləcə də ölkəmizin Rusiyanın ayrı-ayrı bölgələri, o cümlədən Həştərxan vilayəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı.

Prezident İlham Əliyev bu il Rusiya Prezidentinin Azərbaycana dövlət səfərinin əlaqələrimizin inkişafında çox əlamətdar bir hadisə olduğunu dedi, bu səfərin həm forma, həm də məzmun cəhətdən çox səmərəli və dolğun olduğunu vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyası Hökumətinin Sədrinin ölkəmizə səfərinin də əməkdaşlığımızın genişlənməsi işinə töhfə verdiyini qeyd etdi.

Qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin bu gün Qubadlı rayonuna səfərinin həmin əraziləri və orada həyata keçirilən işləri öz gözləri ilə görmələri üçün yaxşı imkan yaratdığını dedi, orada uşaq bağçasının inşasının önəmini qeyd etdi.

İqor Babuşkin Azərbaycanla iqtisadi-ticari əməkdaşlığın genişlənməsi üçün konkret tədbirlərin həyata keçirildiyini bildirdi.



Söhbət zamanı nəqliyyat, tranzit yükdaşımalar, kənd təsərrüfatı, ticarət, turizm və humanitar sahələrdə əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə olundu.

Qubernator İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

*AZƏRTAC*

**Şəfqət aksiyası**

# Leyla Əliyeva sosial xidmət müəssisələrində



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 10-da Bakının Mərdəkan qəsəbəsində yerləşən 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sosial xidmət müəssisəsinin fəaliyyəti barədə Leyla Əliyevaya məlumat verib. Müəssisədə 150-dək uşağın dövlət himayəsində yaşamaqla, reabilitasiya xidmətləri ilə təmin edildiyi qeyd olunub.

Leyla Əliyeva müəssisədə uşaqların bacarıqlarının artırılması üçün yaradılmış emalatxana, əmək terapiyası, məşğələ, aktiv terapiya, musiqi, idman otaqları ilə tanış olub. Uşaqlar geyim dəfiləsi nümayiş etdirib, rəqslər ifa edib, qonaqlarla birgə kətan üzərində rəsm çəkiblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti paytaxtın Ramana qəsəbəsindəki Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində də olub. Burada Leyla Əliyevaya peşə reabilitasiyasının təşkili işləri barədə məlumat verilib.

Bu il müəssisədə əlilliyi olan 15-29 yaşlı 500 şəxsə xidmət göstərildiyi, hazırda 143 benefisiarın peşə təlimində olduğu qeyd edilib. Mərkəzə qəbul edilənlərin dövlət hesabına yataqxana, yemək və reabilitasiya xidmətləri ilə də təmin olunduğu bildirilib.

Leyla Əliyeva Mərkəzdə peşə təlimi prosesi ilə tanış olub, əlilliyi olan gənclərin stolüstü oyunlarını izləyib, boccia üzrə milli komandanın üzvləri ilə görüşüb.

Benefisiarlar Azərbaycanın Dövlət Himnini jest dilində ifa ediblər. Sonra onların əl işlərindən ibarət geyimlərin moda nümayişi olub. Təlim kursunda olan gənclər "İnnabı" rəqsini ifa ediblər və Leyla Əliyeva onlarla birgə rəqs edib. Əlilliyi olan şəxslər, həmçinin mahnılar, Leyla Əliyevanın şeirlərini səsləndiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti hər iki sosial xidmət müəssisəsinə hədiyyələr təqdim edib.

*XQ*



# Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uillyam Samoei Rutoya

**Hörmətli cənab Prezident!**

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Biz Keniya ilə əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Azərbaycan ilə Keniya arasında diplomatik münasibətlərin qurulmasından ötən iyirmiillik dövr ərzində ikitərəfli əlaqələrimiz genişlənmiş, müxtəlif sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmişdir.

İnanıram ki, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası münasibətlərimizi daha da möhkəmləndirmək, qarşılıqlı maraq doğuran bir sıra sahələr üzrə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2024-cü il**

# "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət) maliyyə nəticələrinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (bundan sonra – SOCAR) maliyyə hesabatlarında tam konsolidasiyası üçün tələb olunan Cəmiyyətin idarə edilməsində SOCAR-ın üstünlük hüquqlarının təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 175 (Cild I) 1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1.1. səhmlərinin 49 faizi dövlətə, 51 faizi isə SOCAR-a məxsus olan "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə (bundan sonra – Cəmiyyət) Layihələrin səmərəli idarə olunmasını təmin etsin;".

**2.** Cəmiyyətin nizamnamə kapitalında dövlətə məxsus səhmlərin nizamnamə kapitalının 2 faizini təşkil edən hissəsi üzərində mülkiyyət hüququ Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, SOCAR-ın nizamnamə kapitalına ötürülsün.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu rəhbər tutaraq və Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 21-2-ci maddəsini, "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında" Əsasnamənin 9-3-cü maddəsini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvləri təyin edilsinlər:

Əsgərov Ziyafət Abbas oğlu – Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini,

Nağıyev Arzu Nəsib oğlu – Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri,

Ağazadə Əminə Həmid qızı – Azərbaycan Respublikası Milli Məclisinin deputatı,

Gülməmmədov Vüqar Tapdıq oğlu – Azərbaycan Respublikası Hesablama Palatasının sədri,

Hacıyev Fərid Famil oğlu – Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 10 dekabr 2024-cü il**

# Ekoloji məsələlər üzrə işçi qrupun Xankəndidə iclası



**Xankəndi şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib. İclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, azad olunmuş ərazilərdə Prezidentin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin əməkdaşları iştirak ediblər.**

İclasda işçi qrupun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən ekoloji tələblərin icra vəziyyəti, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin bərpası, yer təkindən istifadə sahəsində görülən işlər, meşəbərpa və yeni yaşıllıq sahələrinin salınması istiqamətində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin və "Ağıllı Tingçilik Təsərrüfatı"nın yaradılması ilə bağlı görülən işlər diqqətə çatdırılıb. Həmçinin "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilən tədbirlər, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası istiqamətində görülən işlər, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması, təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı yerinə yetirilmiş tədbirlər haqqında iclas iştirakçılarına məlumat verilib.

İclasda infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

Sonra iştirakçılar Xankəndi şəhərində yenidən qurulmuş avtomat meteoroloji stansiyanın işi ilə tanış olublar.

*XQ*



# Tarix yaradan şəxsiyyət!

**Bəşəriyyət yarandığı gündən çox böyük şəxsiyyətlərə, sərkərdələrə, onların əldə etdikləri şanlı qələbələrə şahidlik edib, bu şəxsiyyətlərin qurub-yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri, intibah xalqlarının gələcəyinə işıq tutub, onların bəlkə də yüz illər sonrakı tarixdə mövqeyini müəyyənləşdirib. Məhz buna görə də belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerlərini tutublar. Onların yaratdıqlarını, zəngin, böyük irsini araşdıranda, haqqında danışanda isə bir sual daim müzakirə mövzusu olub, cavabını axtarıb: yaşadığı dövrün gerçəklikləri, tarixi reallıqlar şəxsiyyətləri formalaşdırır, yoxsa böyük, güclü, qüdrətli şəxsiyyətlər öz tarixini yaradır?**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev barədə danışarkən bu mübahisələrə birmənalı olaraq, aşağıdakı şəkildə nöqtə qoymaq olar: Heydər Əliyev həm tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyət! Bu fikri qüvvətləndirən, arqumentlərimizi genişləndirən faktlar isə yetərincədir. Ulu öndər o şəxsiyyətlərdəndir ki, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanırlar. Elə buna görə də, Ulu öndərimizin adı uca tutulur, xatirəsi ehtiramla anılır. Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsipi və norma kimi qəbul edən Ümummilli liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Heydər Əliyevin bizə ərmağan etdiyi zəngin dövlətçilik irsi və həyat fəlsəfəsi hələ uzun müddət diqqət mərkəzində olacaqdır.

Xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə Ulu öndəri dünya miqyaslı siyasi nəhənglərlə müqayisə edirlər. Çünki, o, Azərbaycan xalqının həqiqi lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirmişdir. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən bu müdrik insan demişdir: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.

Ulu öndər rəhbərlik etdiyi illər ərzində respublikamızda böyük elmi, intellektual kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olmuş, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə Azərbaycan xalqı qazandığı müstəqilliyə və onun qorunub saxlanması sahəsində əldə etdiyi bütün nailiyyətlərə görə dahi oğluna minnətdardır. Ulu öndər yenidən hakimiyyətə qayıdarkən demişdi: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir”.

Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır. Ulu öndərin respublikamıza rəhbərlik etdiyi 34 il ərzində xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətləri saymaqla qurtaran deyil. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz.

XX əsrin sonları Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz lideri unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Ümummilli lider şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl, xalqın xilaskarı olub. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Ulu öndər əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi.

Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. O, Azərbaycan xalqına son müraciətində ölkədə rəhbərlik etdiyi illərdə bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu söyləmişdi. Bu yolda bütün gücünü, iradəsini yalnız müdrik və qədirbilən xalqından almışdı. Ən çətin vəziyyətlərdə bu inam və xalqına arxalanmaq Heydər Əliyevə dözüm, iradə verib, bütün uğurlarını təmin edib. Elə "Xalq – Heydər, Heydər – Xalq” birliyi də belə yaranıb.

Ümummilli liderimizin bizə ərməğan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızın elə bir sahəsini tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin hərarəti duyulmasın. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Əminik ki, Ulu öndərimizin bütün arzuları çin olacaq və Azərbaycan dünyanın ən qüdrətli dövlətləri arasında özünə layiq yüksəkliyə ucalacaqdır.

12 dekabr bütün dünya azərbaycanlılarının kədər və hüzn günü kimi tariximizə əbədi həkk olundu. Bu tarix ulu öndər, dahi şəxsiyyət, Azərbaycanın taleyüklü məsələlərinin həllində, eləcə də dövlətimizin və xalqımızın inkişafında, tərəqqisində müstəsna xidmətləri olan müdrik insan Heydər Əliyevin cismən aramızdan ayrıldığı gündür. Heydər Əliyev 21 il bundan əvvəl əbədiyyətə qovuşsa da, ruhən bizimlədir və əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır. Bu gün qədirbilən xalqımız Ulu öndərimizin xidmətlərini unutmur və əziz xatirəsi qarşısında daim ehtiramla dayanaraq, onun aramızdan ayrıldığı günü böyük kədərlə qeyd edir. Çünki xalqımızın milli iftixarı, ürəklərimizdə özünə əbədi olaraq sevgi abidəsi ucaltmış milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlıdır. Qürurla qeyd edə bilərik ki, bəşər tarixinə gəlmiş nadir şəxsiyyətlərdən biri kimi Heydər Əliyev məhz biz Azərbaycan xalqının taleyinə yazılmış və xalqımızın əsl xilaskarı kimi missiyasını qətiyyətlə yerinə yetirmişdir.

Ulu öndər Azərbaycan xalqına qəlbən bağlı idi. Çıxışlarında bildirirdi ki, mən azərbaycanlı olmağımla fəxr edirəm. Dahi şəxsiyyət Heydər Əliyev, eyni zamanda dövlət başçımız İlham Əliyevə çox böyük ümidlər bəsləyirdi və qeyd edirdi ki “Mən inanıram ki, mənim Azərbaycanda başa çatdıra bilmədiyim işləri məhz İlham Əliyev başa çatdıracaq. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Ümummilli lider öndər fikirlərində yanılmamışdı. Prezident, Ali Baş Komandan İlham Əliyev əsl layiqli siyasi varis və davamçı olaraq Ulu öndərin Azərbaycanın gələcəyi ilə bağlı bütün planlarını, arzularını yerinə yetirdi. Dövlət başçımızın qətiyyəti, siyasi iradəsi Azərbaycanı daha da qüdrətli və sarsılmaz etdi. Bu gün Azərbaycan regionun lider dövləti kimi dünyada böyük nüfuza malik olan söz sahibi ölkələrdən biridir. Bu gün ölkəmiz təkcə daxili siyasəti ilə deyil, xarici siyasəti ilə də özünün müstəqilliyini və heç bir kənar qüvvədən asılı olmayaraq suveren dövlət hüquqlarını layiqincə yerinə yetirir.

Ali Baş Komandan kimi dövlət başçısının rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazandığımız inamlı Qələbəmiz də bu siyasətin, bu diplomatiyanın və bu qətiyyətin əsl təntənəsi idi. 30 ilə yaxın idi ki erməni işğalı altında olan tarixi torpaqlarımızın azadlığına qovuşması ərazi bütövlüyümüzün bərpası ilə yanaşı, beynəlxalq hüququn icra edilməsi demək idi.

Zəfər günlərimiz bizim sınmış qürurumuzun bərpası, Xocalıda və digər işğal altında olan ərazilərimizdə vəhşicəsinə işgəncələrə və qətllərə məruz qalan soydaşlarımızın qisası idi. Ulu öndər daim torpaqlarımızı azad görmək istəyirdi və ən böyük arzusu məhz bu idi. Prezident İlham Əliyev onun arzularını yerinə yetirdi. Şuşanın azad olunması ilə bağlı dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanından xalqa etdiyi müraciətində də qeyd etdiyi kimi, o, həqiqətən xoşbəxt oğuldur ki, ata nəsihətini yerinə yetirdi. İnanırıq və əminik ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz daha da güclənəcək və Ulu öndərin ruhu hər zaman şad olacaq.

***Tənzilə RÜSTƏMXANLI,***
***Milli Məclisin deputatı***

# Milli Məclisin plenar iclası




**Dekabrın 10-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib.**

S.Qafarova əvvəlcə dekabrın 7-də Azərbaycan parlamentinin 106-cı ildönümünə həsr edilən Beynəlxalq Parlament Konfransı barədə məlumat verib.

Sonra cari məsələlərlə bağlı aparılan müzakirələrdə çıxış edən deputatlar bir sıra aktual mövzularla bağlı fikirlərini açıqlayıb, Ümummilli lider Heydər Əliyevin yaxın günlərdə qeyd olunacaq anım günü ilə əlaqədar dahi şəxsiyyətin əziz xatirəsini böyük ehtiramla yad ediblər. Çıxışlarda Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub saxlanılması, ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadi inkişaf, ordu quruculuğu istiqamətində önəmli rolu vurğulanıb.

Sonra gündəliyə daxil edilmiş 15 məsələnin müzakirəsinə başlanılıb. Birinci məsələ Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası üzvlərinin təyin edilməsi haqqında qərar layihəsi olub.

Komissiyanın Əsasnaməsinə görə, onun 5 üzvü Milli Məclis tərəfindən təyin edilməlidir. Komissiyanın üzvlüyünə Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, komitə sədri Arzu Nağıyev, deputat Əminə Ağazadə, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, parlament Aparatının rəhbəri Fərid Hacıyevin namizədlikləri təklif olunub. Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Növbəti 6 məsələ üçüncü oxunuşda qanun layihələri olub, onlardan ikisi Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov isə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi barədə söhbət açıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə olunduğunu bildirib.

Sonra komitə sədri “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Parlamentin Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsindən söhbət açıb.

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumatı isə Arzu Nağıyev verib.

Qanun layihələri səsə qoyularaq qəbul edilib.

Gündəliyin digər iki məsələsi uyğunlaşdırma xarakteri daşıyıb və “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə danışıb.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov “Elm haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib.

Qanun layihələri səsə qoyularaq qəbul olunub.

Gündəliyin növbəti 4 məsələsi birinci oxunuşda olan qanun layihələri olub. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov “Avtomobil yolları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib.

“Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı Bəhruz Məhərrəmov məlumat verib.

Komitə sədri Hicran Hüseynova Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı təqdim edib.

Müzakirədə qaldırılan məsələlərə aydınlıq gətiriləndən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin son 2 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu diqqətə çatdırıb. Azər Əmiraslanov “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov isə “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə dair məlumat verib. Sonra qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***XQ***

# Hərbi Prokurorluqda Heydər Əliyevin xatirəsi anıldı



**Dekabrın 9-da Hərbi Prokurorluqda Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.**

Tədbirdən əvvəl mərasim iştirakçıları Heydər Əliyevin və şəhidlərimizin xatirələrini bir dəqiqəlik sükutla anıb.

Mərasimdə çıxış edən Baş prokurorun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğundakı fəaliyyətindən bəhs edib.

Bildirilib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə son 21 il ərzində ölkəmizdə misilsiz işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib.

Daha sonra Milli Məclisin deputatları Vasif Qafarov, Səbinə Salmanova, Tural Gəncəliyev və digərləri çıxış ediblər.

**XQ**

# Ümummilli lider Heydər Əliyev Naxçıvanı işğaldan qorudu

**“...Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Deməк, özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü ancaq bu işə sərf etməlisən”.**



Ulu öndər Heydər Əliyev məhz bu müdrik fikrinin işığında muxtar respublikanın o zamankı ağır vəziyyətində soyuq iş otağında xalq və dövlət üçün çalışmağın, bu yolda fədakarlıq göstərməyin real nümunəsini yaratmış, müstəqilliyimizin təməl daşları həmin dövrdə Naxçıvanda qoyulmuşdur.

Ümummilli lider hansı vəzifədə işləməsindən, harada yaşamasından asılı olmayaraq, daim Vətənini və xalqını düşünmüş, son dərəcə böyük, taleyüklü məsələlərin öhdəsindən məharətlə gəlmişdir. O, həmişə ulu Naxçıvanın yüksəlişi və tərəqqisi naminə xüsusi səy göstərmişdir. Dövlət təhlükəsizlik orqanlarında işləyəndə də. Azərbaycanı geniş miqyaslı tərəqqiyyə qovuşdurduğu ilk rəhbərliyi dövründə də, o zamankı SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində olanda da, müstəqil Azərbaycanın Prezidenti kimi böyük xilaskarlıq və quruculuq missiyasını hərtərəfli şəkildə reallaşdıranda da ümummilli liderimiz Naxçıvanı bir an belə unutmamış, muxtar respublikanın inkişafı üçün çoxşaxəli tədbirlər həyata keçirmişdir. Bu baxımdan görkəmli dövlət xadiminin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər xüsusi əhəmiyyətə malikdir.

Respublikanın ərazisi 1988-ci ildən başlayaraq, erməni diasporu və lobbisi tərəfindən müdafiə olunan və silahlandırılan, Moskvanın himayədarlığından hər vasitə ilə istifadə edən erməni silahlı quldur dəstələrinin basqınlarına məruz qalmışdır. Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən yeganə avtomobil yolu kəsilmiş, dəmir yolunda tez-tez təxribatlar törədilmiş, qatarlar daşa, gülləyə tutulmuş, yollar və körpülər partladılmış, respublika üçün nəzərdə tutulan ərzaq və yüklər talan edilmişdir.

Həmin vaxt Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. Bir tərəfdən, iqtisadiyyat dağılaraq tamamilə iflic vəziyyətinə düşmüş, əhalinin maddi durumu kritik həddə yuvarlanmışdı, siyasi burulğanlar, hərc-mərclik burada da baş alıb gedirdi. Digər tərəfdən isə, xain ermənilərin aramsız hücumları bölgədəki ağır situasiyanı daha da mürəkkəbləşdirmişdi. Ərazidəki hərbi hissələrin liberal mövqe tutması və təcavüzkarı dəf etməkdən qəti boyun qaçırması muxtar respublikanın milis orqanlarını və əhalisini öz torpaqlarını qurumaq kimi çətin və məsuliyyətli bir işə başlamağa vadar etmişdir. Bütövlükdə əraziyə edilən erməni basqınları nəticəsində 12 nəfər, o cümlədən 2 uşaq həlak olmuşdur. Sovet ordu hissələrinin belə münasibəti nəticəsində Kərki kəndi işğal edilmiş, Sədərək, Şada, Gərməçataq və Havuş kəndlərində evlər dağıdılmış və yandırılmışdır. Şahbulaq, Şada, Ərəfsə, Yuxarı Buzqov və digər kəndlər hərbçilərin gözü qarşısında müntəzəm olaraq atəşə tutulmuşdur.

O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlasaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gələr.

Məhz belə bir dövrdə – 20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqu ilə qarşıladı.

Xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin nicatına çevrilmiş, hamı onun timsalında böyük xilaskarını görmüşdür. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı kimi daxil olmuşdur. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, ulu öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinqdə yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın hüdudsuz məhəbbət və inamının təntənəsi idi. Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı.

“Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq ... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm”, – deyən dahi rəhbər xalqın imdadına çatdı. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda gənclərlə görüşdə ulu öndərin dediyi sözlər onun əsas amalını konkret şəkildə ifadə edirdi: “Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir”.

1990-cı il sentyabr 30-da keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi.

1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başladı. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olundu. Belə ki, sessiyada ağır blokada şəraitində olan Naxçıvana rəhbərlik edən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində muxtar respublikanın dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasətinin əsası qoyuldu. Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından “sovet” və “sosialist” sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra olunması son dərəcə yüksək siyasi səriştə və cəsarət istəyirdi ki, Ulu öndər bunu nümayiş etdirdi.

Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri muxtar respublika ərazisindən çıxarıldı. Prezident İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən demişdir: “Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı.

O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir”.

16 dekabr 1991-ci ildə görkəmli dövlət xadimi Ali Məclisin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi və 31 dekabrın “Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü” kimi qeyd olunması haqqında qərar qəbul etdi. Keçmiş SSRİ-dən miras qalmış təhlükəsizlik orqanlarının ləğv olunaraq, milli maraqlara xidmət edən yeni müvafiq qurumun yaradılması, rus qoşun hissələrinin muxtar respublikadan çıxarılması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, nizami ordu hissələrinin təşkili, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, “Hakimiyyət xalq üçündür!” prinsipinə dönmədən əməl edilməsi, aqrar islahatların, özəlləşdirmənin uğurla aparılması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, ağır yüklü təyyarələrin qəbulu üçün aeroportun yenidən qurulması, mədəni mühitin dirçəldilməsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm addımların atılması... – Sadalamadığımız çox sayda belə böyük tədbirlər məhz bu qısa müddətdə Naxçıvanda yüksək səviyyədə gerçəkləşdirilmişdi. Ölkəmizin ən kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

Ayrıca qeyd olunmalıdır ki, həmin illərdə muxtar respublikanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində əsaslı yüksəlişin baş verməsi istiqamətində həyata keçirilən möhtəşəm tədbirlər sistemliliyi və kompleksliyi ilə səciyyələnir. Ulu öndər Naxçıvanı düşdüyü blokada vəziyyətinin çoxşaxəli çətinliklərindən xilas etmək məqsədilə yerli imkanlardan maksimum dərəcədə yararlanmaq üçün ardıcıl tədbirlər işləyib hazırlayır, onları uğurla reallaşdırırdı. Məsələn, ölkədə ilk dəfə olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi 6 aprel 1992-ci il tarixdə “Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında” qərar qəbul etmiş, qısa müddət ərzində muxtar respublikada aqrar islahatlar yüksək səviyyədə aparıldı, yeni mülkiyyət münasibətləri formalaşdırıldı. Azərbaycanın əsas hissəsi ilə əlaqələrin bərpası üçün də müxtəlif vasitələrdən istifadə edilirdi. Hava limanının yenidən qurulması və digər analoji tədbirlər məhz bu məqsədə yönəldilmişdi.

Taleyin hökmü ilə ağır blokada şəraitində olan Naxçıvana rəhbərlik edən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində muxtar respublikanın İran və Türkiyə ilə əlaqələri yaradıldı, Naxçıvanın həyati tələbatlarını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün protokollar imzalandı. Muxtar respublikaya rəhbərlik etdiyi 1 il 9 ay ərzində Heydər Əliyev əsasını qoyduğu xarici əlaqələr sayəsində bölgəni labüd fəlakətdən xilas etdi. Naxçıvanın o ağır dövründə qurduğu beynəlxalq əlaqələr muxtar respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitəyə çevrildi. 1991-ci il sentyabrın 3-də Ali Məclisin Sədri seçildikdən sonra Naxçıvan – Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. "Naxçıvan Türk – İslam dünyasına bir qapıdır" deyən Heydər Əliyev bu istiqamətdə ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə başladı.

70 il ərzində bir-birinə həsrət qalan bu dost və qardaş ölkələr arasında ilk gediş-gəliş əlaqələri yaradıldı. 1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti muxtar respublikaya səfərə gəldi, səfər zamanı Ali Məclisin Sədri ilə Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsinin yaradılması haqqında məsələlər müzakirə olundu. Muxtar respublika Nazirlər Kabineti ilə həmin qurum arasında protokol tərtib edildi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökuməti nümayəndələrinin, iş adamlarının, Naxçıvana səfərləri, muxtar respublikaya göstərilən yardımların həcmi artdı. Bu dövrdə Naxçıvan – Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə səfərləri xüsusi rol oynadı.

1992-ci ilin martında Naxçıvanın ictimai-siyasi həyatında görünməmiş bir hadisə baş verdi. Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin dost ölkəyə işgüzar səfəri oldu. Səfər zamanı Türkiyə Respublikasının Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl ilə görüşlər keçirildi. Görüşlərdə əsas müzakirə edilən məsələ, təbii ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyətlə bağlı idi. Muxtar respublikanın qonşu dövlətlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədilə Türkiyənin Baş naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri birgə protokol imzaladılar.

Protokolda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, muxtar respublikanın zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji xətlərinin yaradılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapdı. Sənəddə həmçinin bank işi, turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəldi. Qısa müddət ərzində protokolda nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün konkret işlər görülməyə başlandı. Telekommunikasiya sahəsində muxtar respublikanın ehtiyaclarını ödəmək üçün Türkiyənin "Teletaş" şirkətinin nümayəndələri bölgəyə gəldilər. Qonşu ölkənin Kənd Təsərrüfatı Nazirliyi əməkdaşlarının Naxçıvana səfəri zamanı böyük miqdarda texniki yardım, gübrə, toxum göndərilməsi haqqında razılıq əldə edildi.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış "Sədərək-Dilucu" körpüsü mühüm mərhələ oldu. Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədi ilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı yolu üçün körpü tikildi. 1992-ci il may ayının 28-də bu körpünün açılışına Baş nazir Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvanan böyük dövlət numəyəndə heyəti gəldi. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin, Araz çayının o tayında, bu tayında toplanmış Naxçıvan və Türkiyənin çoxminlik əhalisinin iştirakı ilə Türkiyə ilə Azərbaycan arasındakı körpünün rəsmi açılışı oldu.

Beləliklə, iki qardaş xalqın uzun illər həsrətində olduqları arzular yerinə yetmiş, Sədərək-Dilucu “Həsrət körpüsü”, “Ümid körpüsü” yarandı.

Naxçıvan torpağı həmin gün böyük bayram əhval-ruhiyyəsi yaşadı. Naxçıvanın tarixində ilk dəfə olaraq dünyanın ən iri dövlətlərindən birinin – Türkiyənin baş naziri birbaşa bu torpağa qonaq gəldi. Bu münasibətlə hava limanında qarşılanma mərasimi də böyük təntənəyə çevrildi. Həmin qarşılamada bir qədər əvvəl Naxçıvana xüsusi təyyarə ilə gəlmiş Türkiyənin 150 nəfərdən artıq yüksək çinli məmur və yaradıcı ziyalılarından ibarət nümayəndə heyəti iştirak etdi.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü ölkəmizin Türkiyə ilə əlaqələrinin qurulmasında və inkişafında çox mühüm rol oynadı. Təbii ki, bu əlaqələrdə Heydər Əliyev şəxsiyyətinə olan böyük hörmət özünü hər addımda göstərirdi. Bunun nəticəsidir ki, 1992-ci ilin mayında Sədərəyə ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat verdi, 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin qarantı olduğunu dünyaya bəyan etdi.

Naxçıvan Muxtar Respublikasının Türkiyənin qonşu və yaxın vilayətləri – Qars, İğdır, Ağrı, Ərzurum, Van ilə də birbaşa əlaqələrinin yaradılması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Heydər Əliyev Türkiyə səfərlərində bu bölgələrdə də olmuş, həmin vilayətlərin nümayəndə heyətləri dəfələrlə Naxçıvana səfərlər etmiş, kömək və dəstəkləri ilə Naxçıvana əl tutmuşdular.

Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədrliyi dövründə xarici əlaqələrin sıx inkişaf etdirildiyi digər qonşu dövlət isə İran İslam Respublikası idi. Bu əlaqələrə böyük önəm verən Heydər Əliyev İran İslam Respublikasının xarici işlər naziri, doktor Əli Əkbər Vilayətinin dəvəti ilə 1992-ci il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə oldu. Səfər zamanı Heydər Əliyev İran İslam Respublikasının rəhbəri Ayətolla Seyid Əli Xameneyi, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani, İran İslam RespublikasıMilli Məclisinin sədri, xarici işlər, yol və nəqliyyat, kooperasiya, energetika, neft və qaz sənayesi və rabitə nazirləri ilə görüşmüş və danışıqlar apardı. Rəsmi danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasıarasında müxtəlif sahələrdə Əməkdaşlıq protokolları imzalandı. Protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi üçün razılıq əldə edildi.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının xahişi nəzərə alınaraq, muxtar respublikanın qaz ehtiyaclarını təmin etmək məqsədilə Xoy-Culfa magistral qaz kəmərinin tikintisini İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi öz üzərinə götürdü. Qaz kəməri tikintisinin bir il müddətində başa çatdırılması və bu kəmər vasitəsilə Culfa sərhəd məntəqəsindən Naxçıvana ildə 360 milyon kubmetr təbii qazın verilməsi razılaşdırıldı. Qaz kəməri istifadəyə verilənədək Naxçıvana ayda 100 ton maye qaz verilməsi barədə razılıq əldə olundu.

Yükdaşıma sahəsindəki çətinlikləri nəzərə alaraq avtomobillərin Naxçıvan-Bakı və əks istiqamətdə İran İslam Respublikası ərazisindən keçməklə qısa məsafədən Culfa-Xudafərin yolu ilə yüklərin Naxçıvana daşınmasına, Poldəşt-Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərindəki körpünün tikilməsinə razılıq verildi, Naxçıvan-Bakı-Naxçıvan təyyarə reyslərinin yeni qısa marşrutla Mincivan-Ordubad rayonları arasındakı 50 kilometrlik məsafəni İran İslam Respublikasının hava dəhlizindən istifadə etmək razılığı əldə olundu. Səfər zamanı həmçinin birgə müəssisələrin açılması, ticarət qaydalarının yüngülləşdirilməsi, gömrük siyasətinin liberallaşdırılması, Naxçıvan şəhərində İran İslam Respublikası Baş konsulluğunun açılması qərara alındı.

Təbii ki, bütün bunlar dahi Heydər Əliyevin böyük nüfuzunun, ona olan hörmətin ifadəsi idi.

Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə muxtar respublikanın Türkiyə və İran respublikaları ilə və həmin ölkələrin beynəlxalq qurumları ilə də münasibətlərinin əsası qoyulmuşdur. Məhz bu əlaqələr iqtisadi blokadanın ağır məngənələri altında yaşayan Naxçıvanın çətin imtahanlardan uğurla çıxmasına şərait yaratdı.

***Aygün HƏMZƏYEVA,***
***Naxçıvan MR Dövlət Arxiv idarəsinin aparıcı arxeoqrafı***

# Ermənistan Yaxın Şərq müttəfiqini itirdi



**(əvvəli 1-ci səhifədə)**

İndi erməni politoloqları isterika içəsində bildirirlər ki, Bəşər Əsədin devrilməsi Cənubi Qafqaz regionunda Türkiyə-Azərbaycan tandemini daha da gücləndirəcək və İrəvanın xarici siyasət prioritetləri arasında Suriya istiqamətini birdəfəlik çıxaracaq.

Ermənilər narahatdırlar. Naşükür qonşularımız əndişə keçirirlər ki, Suriyada cərəyan edən proseslər Ermənistan üçün siqnaldır. Ermənistan parlamentinin deputatı Lilit Qalstyan da belə düşünür. O, sosial şəbəkə hesabında yazır ki, Suriyada baş verən son hadisələr, eləcə də qarşıdan gələn, istər-istəməz ağrılı, daha doğrusu, sıçrayışlı proseslər Ermənistana bəlkə də son xəbərdarlıqdır. Onun sözlərinə görə, bu reallıqlara regional və qlobal tektonik sarsıntılar və onların nəticəsində formalaşacaq yeni ictimai-siyasi arxitektura kontekstində baxmaq və qiymətləndirmək lazımdır.

Qalstyan Suriyadakı proseslərin Ermənistana birbaşa təsir göstərəcəyinə inanır: "Ssenari olduqca aydındır, hərəkətlər sürətlə gedir…Bölgəmizdə geosiyasi tarazlıq Türkiyənin xeyrinə pozulub, ən azından bu məqamda Rusiya və İranın maraqlarının başqa prioritetləri var. Demokratik Qərb üçün enerji resursları maraqları beynəlxalq hüquq, institutlar və konvensiyalardan daha vacibdir... Üstəlik, Brüssel bəyan etməyə tələsdi ki, Qərb Ermənistana təhlükəsizlik zəmanəti vəd edə bilməz, Avropa İttifaqının bölgəmizdəki qəyyumu isə NATO üzvü Türkiyədir".

Əlbəttə, Ermənistan üçün bu, təkcə müttəfiqinin itirilməsi deyil, onun Yaxın Şərqdəki mövqeyini dəyişə biləcək strateji uğursuzluqdur. Bəşər Əsədin dövründə Suriya-Ermənistan dostluğu son dərəcə sabit inkişaf edirdi. Diplomatik təbriklər, səfərlər və simvolik jestlərdən başlayaraq, tez bir zamanda real fəaliyyətə keçmişdi. Nikol Paşinyanın rəhbərliyi altında Suriyaya göndərilən erməni hərbi kontingenti rəsmən minalardan təmizləmə ilə məşğul olsa da, faktiki olaraq rejimə dəstək vermişdi. Bu addım İrəvanın Bəşər Əsədi Yaxın Şərqdəki maraqlarının əsas təminatçılarından biri kimi qəbul etdiyini təsdiqləmişdi.

Xatırladaq ki, 2009-cu il iyunun 17-də Ermənistana səfəri zamanı Bəşər Əsəd təmtəraqla qarşılanmışdı. Bütün ermənilərin katolikosu II Qaregin ona Erməni Apostol Kilsəsinin ali mükafatı - Müqəddəs Georgi xaçı təqdim etmişdi. Eçmiədzindən verilən açıqlamaya görə, bu mükafat Suriya prezidentinə ermənilərə, Ermənistana dəstək və iki ölkə arasında əlaqələrin inkişafına görə verilmişdi. II Qaregin Əsədlə görüşdə bildirmişdi ki, erməni xalqı 1915-ci il hadisələri zamanı Suriyanın ermənilərə göstərdiyi tarixi dəstəyi heç vaxt unutmayacaq.

Təbii ki, II Qareginin açıqlamalarının kifayət qədər əsasları var. Çünki ötən əsrin əvvəllərində Türkiyədən köçürülən ermənilərin əksəriyyəti ərəb ölkələrində, xüsusən də son illərə qədər onun təsiri altında olan Suriya və Livanda məskunlaşmışdılar. Suriyanın ictimai-siyasi və iş həyatına fəal şəkildə inteqrasiya edərək kifayət qədər güclü mövqe qazana bilmişdilər. Həm Hafiz Əsədin dövründə, həm də oğlu Bəşər Əsədin vaxtında PKK ilə birlikdə Beyrutda ASALA və "Apostol" kimi erməni terror təşkilatlarının qərargahları və təlim bazaları tamamilə sərbəst fəaliyyət göstərirdi. Bundan başqa, Ankara ilə münasibətlərin gərgin olduğu dövrdə Suriya bu təşkilatlardan Türkiyəyə qarşı fəal şəkildə istifadə etmişdi.

Bəşər Əsəd öz ölkəsində ermənilərin Suriyanın inkişafı və dirçəlişindəki rolunu yüksək qiymətləndirmişdi. Quldur və cani Serj Sarkisyanla görüşdən sonra İrəvanda keçirilən mətbuat konfransında Əsəd ölkəsinin Qarabağ münaqişəsi ilə bağlı mövqeyini açıqlayaraq qeyd etmişdi ki, Dəməşq bütün regional münaqişələrin sülh yolu ilə, xalqların öz hüquqlarını tanımaqla həllinə tərəfdardır. Ancaq o, dövlətlərin ərazi bütövlüyü prinsipindən bir kəlmə də danışmamışdı.

Təhlükəsizlik və siyasi dəstək məsələləri iqtisadi əməkdaşlıqla müşayiət olundu. Suriyaya qarşı sanksiyaların yaratdığı ağır böhran illərində Ermənistan silah və strateji materialların tədarükü üçün mühüm tranzit mərkəzinə çevrilmişdi. Hətta 2012, 2014 və 2015-ci illərdə Əsədin beynəlxalq təcridinin pik həddə çatdığı vaxtlarda İrəvan nəinki ondan üz döndərdi, hətta rejim başçısına dəstək verdi. Məhz bunun sayəsində Əsəd Azərbaycanın İƏT Şurasında irəli sürdüyü anti-erməni qətnamələrinin qarşısını almağa fəal cəhd göstərmişdi. Lakin Əsəd rejiminin süqutu İrəvan üçün sarsıdıcı zərbə oldu.

Hər bir azərbaycanlı gözəl bilir ki, Suriyadakı güclü erməni lobbisi Qarabağda hərbi əməliyyatlar zamanı Ermənistan ordusuna hərtərəfli yardım göstərmişdi. (Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın Suriyadan gəlmiş ermənilərin nəslindəndir-red.). Bu o deməkdir ki, Əsədin səfəri zamanı "soyqırımı" abidəsini ziyarət etməkdən imtinası, sadəcə, diqqəti yayındırmaq üçün bir tamaşa idi və əslində, Əsəd həm siyasi, həm də iqtisadi məsələlərdə ermənilərin mövqeyini dəstəkləmişdi.

Yeri gəlmişkən, qeyd etmək zəruridir ki, 2011-ci ildə Ermənistanın sabiq xarici işlər naziri Edvard Nalbandyan Dəməşqə səfəri zamanı Bəşər Əsəd və bu ölkənin xarici işlər nazirliyinin rəhbəri Valid Muallimlə görüşmüşdü. Həmin görüşdə Suriya mətbuatı Valid Muallimin Dəməşqin Ermənistan-Türkiyə sərhədinin açılmasının tərəfdarı olduğunu və bu məsələdə Ankaraya təsir edəcəyini dediyini yazmışdı. Bundan əlavə, Nalbandyan Suriya prezidentindən Qarabağ münaqişəsinin həlli ilə bağlı neytral qalmağı xahiş etmişdi. Ermənistanın sabiq XİN rəhbəri bildirmişdi ki, İrəvan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə münaqişə ilə bağlı danışıqlar prosesinin ləngidilməsində maraqlıdır və Suriya öz neytral mövqeyi ilə faktiki olaraq Ermənistana kömək edir.

O zamankı mövcud reallıqları nəzərə alan rəsmi İrəvan və erməni lobbisi Suriyaya siyasi və hərbi dəstək verməyi vacib sayırdı. ABŞ-da fəaliyyət göstərən ermənipərəst konqresmenlər və erməni təşkilatları da Suriya ilə bağlı müzakirələrdən yayınırdılar. Təsadüfi deyil ki, Ermənistan rəsmiləri, siyasi dairələri, mətbuatı açıq şəkildə Bəşər Əsəd rejimini müdafiə edirdilər. Suriya müxalifətinin yaydığı məlumatlarda erməni terror təşkilatlarının mövcud rejimi açıq şəkildə dəstəklədiyi qeyd olunurdu. Məsələn, Suriya-Ermənistan münasibətlərinin maraqlı elementi 2019-cu ildə yaradılan "Nubar Ozanyan batalyonu" olmuşdu. "Erməni inqilabçılarının" liderinin adını daşıyan bu silahlı birləşmə Suriya kəşfiyyat orqanları ilə fəal əməkdaşlıq edirdi. Şahidlərin sözlərinə görə, batalyon Əsəd rejiminin maraqları uğrunda mübarizədə mühüm rol oynamışdı, lakin onun fəaliyyəti o qədər də hərbi deyil, siyasi xarakter daşıyırdı: bu, Əsədlə həmrəylik nümayişi və eyni zamanda, erməni qüvvələrini gücləndirmək cəhdi idi. İndi ermənilərin bu batalyonu devrilmiş rejimlə İrəvanın "tarixi dosluq simvolu" kimi arxivə yuvarlandı.

Bəşər Əsəd rejimi də həmişə ermənipərəst mövqe tuturdu və Azərbaycana qarşı çıxış edirdi. O, Kəşmir məsələsində də Pakistanı deyil, Hindistanı dəstəkləyirdi. Tarixi ədalət yerini tapdı, Qarabağ azad edildi, Əsəd rejimi də "Böyük Ermənistan" xülyası kimi tarixə döndü.

***XQ-nin analitik qrupu***

Qaynar nöqtələr

**Suriyada hakimiyyətin devrilməsi dünyanın diqqət mərkəzindən düşmür. İndi hamını bir sual maraqlandırır: bundan sonra ölkədə cərəyan edən proseslər çoxdan gözlənilən sabitliyin əldə olunmasına səbəb olacaq, yoxsa hazırda müşahidə olunan xaosu daha da dərinləşdirəcək? Proqnozlar müxtəlifdir, belə ehtimal etmək olar ki, Bəşər Əsədin hakimiyyətdən uzaqlaşdırılması ölkədə ziddiyyətlərin aradan qaldırılmasına şərait yaradacaq. Amma reallıq tam başqadır və bir sıra təhlillər də göstərir ki, Suriya ən yeni tarixində daha gərgin və amansız mübarizə mərhələsinə daxil olur. Bəşər Əsədin devrilməsi Ermənistan üçün də itkidir. Çünki İrəvanı Yaxın Şərq regionunda dəstəkləyən məhz Əsəd hakimiyyəti idi.**

# Suriya yenidən savaş meydanına çevriləcəkmi?

## *Dəməşq rejimində bədnam İrəvan izləri*

Suriyada baş verənlər daha çox silahlı qarşıdurmanın yeni raundunun başlanğıcına bənzəyir. İndi suriyalılar mülkiyyətin yenidən bölüşdürülməsi və Bəşər Əsəd əleyhinə qruplar arasında hakimiyyət uğrunda mübarizə dövrü keçməli olacaqlar. Eyni zamanda, hakimiyyəti ələ alan silahlı müxalifət qüvvələrilə kürdlər arasında toqquşma ehtimalı da yüksəkdir. Bu ehtimalı gücləndirən ilk siqnallar da eşidilir. Belə ki, islamçı qrupların ölkənin şimal-qərbində kürd döyüşçülərinin son anklavlarına fəal şəkildə hücum etdikləri bildirilir.

Birləşmiş Millətlər Təşkilatının Suriya ilə sülh danışıqlarında iştirak etmiş müxalifət nümayəndələrindən biri Ayman əl-Əsmi də deyir. Onun "The National" portalına dediyi sözlərə görə, keçid hökumətinin strukturunun tərkibi müstəqil texnokratların iştirakı ilə müxalifət institutları və mövcud müxalifət platformaları vasitəsilə razılaşdırılmalıdır. Əl-Əsmi əlavə edir ki, yeni milli konstitusiya və seçki qanunu hazırlamaq üçün Milli Assambleyanın çağırılması üzrə işlər aparılır.

Bununla belə, "The National"ın mənbələrinin açıqladığına görə, səhra komandirləri arasında indiyədək "Həyat Təhrir əl-Şam" qruplaşmasının lideri Əbu Məhəmməd əl-Culanidən "yaşıl işıq yanmadan heç kim hərəkət edə bilməyəcək". 27 noyabrda başlayan hücumun önündə olan əl-Culani isə ictimai şərhlərdə vurğulayır ki, Suriyanın yenilənmiş rəhbər strukturlarına inteqrasiya etmək üçün öz təşkilatını buraxmağa hazırdır. Lakin mütəxəssislər qeyd edirlər ki, belə bir ssenari baş tutsa belə, təşkilat liderləri rəhbər vəzifələrindən imtina etməyəcəklər. Bir sözlə, Suriyanın islamçı qüvvələri ölkənin gələcəyi barədə adekvat danışırlar, amma xarici ölkədən dəstəyin olması da qaçılmazdır.



Bəs ölkədəki qeyri-müəyyənlik nə zaman bitəcək? Xarici oyunçuların tərəfdaşlarını dəstəkləmək istəyindən asılı olaraq, eskalasiyanın üç aydan bir ilə qədər davam edə biləcəyi proqnozlaşdırılır. Ssenarilərdən biri hamının hamıya qarşı müharibəsini, ardınca münaqişənin dondurulmasını və ölkənin etno-konfessional və ya qəbilə zəmində bir neçə kvazi-dövlət qurumlarına parçalanmasını nəzərdə tutur. Somali və Liviyada buna oxşar hadisənin baş verməsi hamıya məlumdur.

Əlverişli şəraitdə qeyri-sabitlik dövrünün nisbətən qısa müddətli olacağı ehtimal olunur. Müharibə edən tərəflərin güc və iqtisadi resursların bölünməsi ilə bağlı razılığa gəlmək üçün danışıqlar masası arxasına keçmələri bu ssenarinin gerçəkləşməsinə şərait yaradacaq. Belə bir müzakirənin nəticəsi milli razılıq hökumətinin yaradılması və yeni konstitusiyanın hazırlanması üçün təsis məclisinin çağırılması ola bilər. Əgər konstitusiya referendumunu keçirmək və ölkənin yeni rəhbərliyini seçmək mümkün olsa, o zaman yenilənmiş Suriya böyük ehtimalla müasir İraq kimi federasiyaya çevrilə bilər.

Bəs Suriyanın yeni sahibləri viran olmuş ölkəni effektiv şəkildə idarə edə biləcəklərmi? Axı Suriyanı bərpa etmək üçün anti-Əsəd müxalifətinin xarici sponsorlarının heç birinin ayıra bilməyəcəyi on milyardlarla dollar lazımdır. Tunis və Misirdəki islamçı hökumətlərin təcrübəsi göstərdi ki, çox vaxt seçkilərlə və gözəl vədlərlə başlayan idarəçilik iqtisadi böhran və siyasətə hərbi müdaxilə ilə yekunlaşır. Siyasi müxalifət hələlik nikbin proqnozlar səsləndirir, hakimiyyətin keçid dövrünün təxminən 18 ay davam edəcəyini bildirir. Onun nümayəndələri yeni konstitusiya yazmağı və seçki qanunvericiliyinə dəyişiklik etməyi planlaşdırırlar. Milli təhlükəsizlik məsələləri, eləcə də silahlı qüvvələrin birləşdirilməsi məsələsi çox güman ki, xüsusi hərbi şuraya həvalə olunacaq.

Tanınmış müxalifət simalarından biri, Türkiyə KİV-in "Suriyanı idarə edəcəklər" arasında sadaladığı Hadi əl-Bəhra qeyd edir ki, onun rəhbərlik etdiyi Suriya Müxalifətinin Milli Koalisiyası keçid hökümətinin formalaşmasını öz üzərinə götürməlidir. Əl-Bəhra "The Middle East Eye portalı ilə söhbətində vurğulayır ki, Bəşər Əsədin dövründə çalışmış məmurlar öz funksiyalarını yerinə yetirməyə davam etməlidirlər: "Biz hazırkı dövlət qurumlarını məhv etmək istəmirik. Biz onların işləməyə davam etmələrini istəyirik".

Eyni sözləri vaxtilə əvvəlki hakimiyyət

Türkiyə artıq keçid dövründə Suriyaya kömək etməyə hazır olduğunu bildirir. Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada ölkə səfirlərinin illik konfransının açılışında çıxışı zamanı dedi ki, Suriyada yeni dövr başlanır: "Yeni dövrdə biz Suriyanı müxtəlif etnik və dini qrupların inklüziv idarəetmə yanaşması ilə sülh şəraitində yaşadığı bir ölkə kimi görmək istəyirik. Qonşuları ilə yaxşı münasibətlər quracaq, bölgəmizə sülh və sabitlik qatacaq yeni Suriya görmək istəyirik".

Belə bir Suriyanın formalaşması üçün digər xarici aktorların da maraqlı olmaları vacibdir. Amma görünən budur ki, region, eləcə də başda ABŞ olmaqla Qərbin və Rusiyanın Suriya ilə bağlı planları kökündən fərqlənir.

Suriyada hakimiyyətin devrilməsindən narahat olan ölkələrdən biri də Ermənistandır. Erməni siyasi şərhçilər Suriyanın sabiq prezidentinin hakimiyyətdən qaçmasının Ermənistan üçün acı nəticələrinin olacağını etiraf edirlər. Xatırladaq ki, Suriya və Ermənistan hakimiyyətləri arasında yaxın əlaqələr mövcuddur. Ermənistan hərbçilərinin Hələbdə xidmət keçməsi iki ölkə arasında münasibətlərin səviyyəsindən xəbər verir. Minatəmizləmə kimi qələmə verilən bu xidmət, əslində, Əsəd rejiminə dəstək məqsədi daşıyırdı. Ermənistan hərbi kontingenti Suriya ordusunun fəaliyyətinə dəstək göstərməsi də heç kimə sirr deyil. Bəşər Əsəd də hakimiyyətdə olduğu müddət ərzində Ermənistanı dəstəklədi və qondarma "erməni soyqırımı"nı tanıdı. Buna görə də, erməni ekspertlər vurğulayırlar ki, Ermənistan Bəşər Əsədin timsalında xarici dəstəkçilərindən birini itirdi.



***Səbuhi MƏMMƏDOV***
***XQ***

# XİN-in Suriya barədə bəyanatı

**Azərbaycan Xarici İşlər Nazirliyi Suriyada son vəziyyət barədə bəyanat yayıb. Bəyanatda deyilir:**

"Azərbaycan Respublikası Suriyada baş verən prosesləri izləyir. Bu çərçivədə, eyni zamanda, qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir. Suriyada Bəşər əl-Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması, vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir.

Azərbaycan Respublikası Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir, Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə məsələlərin həllini tapacağına ümidvar olduğunu bildirir.

Azərbaycan Respublikası qardaş Türkiyə Respublikası və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına töhfə verməyə hazırdır. Eyni zamanda, Azərbaycan Respublikasının Suriyada səfirliyinin olmamasına baxmayaraq, bu ölkədə Azərbaycan vətəndaşlarının sayının və yerinin müəyyən edilməsi istiqamətində iş aparılır. Azərbaycan Respublikası 2020-ci ildən başlayaraq Türkiyə Respublikasının ərazisi vasitəsilə həyata keçirilməkdə olan vətəndaşlarımızın Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyası işini də davam etdirəcək.



Azərbaycan Respublikası Suriyada vəziyyət sabitləşəndən sonra Azərbaycanla Suriya arasında ikitərəfli münasibətlərin bərpa olunacağına, əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipi əsasında inkişaf edəcəyinə ümidvardır".

***XQ***

# USAID-in Ermənistanda yeni planı

## *Marionet hakimiyyət və Paşinyan iqtidarının saxlanılması*

**Qərbin Ermənistanda mühüm fəaliyyət gerçəkləşdirən institutlarından biri də USAID kimi tanıdığımız ABŞ Beynəlxalq İnkişafa Yardım Fondudur. Fond xarici aləmdə aktiv ermənipərəstlik missiyasının əvəzini ölkənin daxilində özünü daha da möhkəmləndirməklə, bütün sahələrə nüfuz etməklə çıxır. Faktiki olaraq, Ermənistanı asılı duruma gətirir, ölkə iqtidarını isə daha da marionet hala salır. Ən başlıcası isə qurum gələcək üçün tam müti, əmr və tapşırıqları sorğusuz-sualsız yerinə yetirən idarəçilik perspektivi hazırlamağa qol çırmayır.**



Beləliklə, USAID Ermənistan üzrə iş planları ilə bağlı yeni sənədini açıqlayıb. Agentlik ölkənin təhsil və mədəniyyət sahəsində layihələrin maliyyələşdirilməsinin yalnız effektivliyinin monitorinqi və qiymətləndirilməsi sisteminin hazırlanmasına 3,5 milyon dollar xərcləmək niyyətindədir. Görünür, mövcud sahədə ciddi problemlər var. Ehtimal etmək mümkündür ki, USAID-in layihələr üzrə ayırdığı maliyyə vəsaitinin xərclənməsi yetərli səviyyədə deyil və qurum bu səbəbdən nəzarəti gücləndirmək qərarına gəlib.

Haqqında söz açdığımız sənəd USAID-in Ermənistandakı ənənəvi iş sahələrini açıqlayır. Bu sahələr demokratiya və idarəetmə, iqtisadiyyat, təbii resursların idarə olunması, gender məsələləri və sairdən ibarətdir. Deməli, USAID-ə Ermənistanda hər sahədə yer var. Maraqlıdır ki, yeni sənəd qurumun Öyrənmə və Sübut Platforması adlanır və onun icraçılarından Amerika missiyası üçün strateji proqram qərarları qəbul etmək baxımından "etibarlı və qərəzsiz araşdırma" aparmağı tələb edir. Yəni, qurum tərəddüdlüdür və çox güman ki, baş nazir Nikol Paşinyan administrasiyasına qarşı potensial təhdidləri aradan qaldırmağa girişir. Nəzərə alaq ki, 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək və həmin vaxtadək erməni iqtidarında monolitliyi qorumaq lazımdır. Eyni zamanda, Paşinyanın yolundan sapa bilmə riski də dəyərləndirilməlidir. Bunun ən yaxşı yolu isə USAID-in ayırdığı qrant layihələrinə nəzarəti gücləndirməkdir. Hər halda, belə hesab olunduğu aydın görünməkdədir.

Qeyd edək ki, USAID amerikalıları maraqlandıran sahələr üzrə məlumatların toplanması və həmin məlumatlar əsasında analitik hesabatlar hazırlamaq məqsədilə sadiq yerli mütəxəssisləri fəaliyyətə cəlb edir. Axı erməni icra hakimiyyəti orqanlarının bir çox vəzifələri ilə yanaşı, yerli əhalini USAID proqramlarına cəlb etmək üçün yol və yanaşmaların işlənib hazırlanması öhdəlikləri də var. Yəqin, erməni dövlət aparatının nə dərəcədə rəzil duruma düşdüyünü təsəvvürə gətirdiniz. Budur inqilab və budur Qərbin demokratiya diktəsi!

Əslində, USAID-in proqramı yerli kadrların işə götürülməsini və onlardan hər cür məlumatın toplanmasında istifadəni leqallaşdırır ki, bu da mədəni və təhsil sahəsində "islahat" adı altında Ermənistanı Amerikanın nəzarəti altına almaqdır. Daha doğrusu, nəzarəti artırmaqdır. Təsadüfi deyil ki, sözügedən sənəd nəzarətin səmərəlilik meyarlarını gücləndirmək məramından qaynaqlanır. Onu da bildirək ki, analoji proqramlar USAID-in sevimli strategiyasıdır. Qurum bu yolla yerli mühitə əlverişli çıxış əldə etmək və ölkələrin suverenliklərini məhdudlaşdırmaq imkanı qazanır.

Erməni ekspertlər onu da bildirirlər ki, Ermənistanda ABŞ-ın, belə demək mümkünsə, sadiq nüfuz agentlərinin ayrı-ayrı hakimiyyət postlarında yerləşdirilməsi prosesi güclənməkdədir. Onların fikirlərinin təsdiqi kimi, ölkədəki "kadr soyqırımı" barəsində söz açmaq mümkündür. N.Paşinyanın 2018-ci ildən qırxmadığını saqqalını qırxdırdıqdan sonra başlamış prosesin davam edəcəyi ehtimalı böyükdür. Deməli, Ermənistanda Qərbə daha sadiq kadrların mühüm vəzifələrdə yerləşdirilməsi prioritet götürülməkdədir ki, məqsəd 2026-cı ildə Paşinyan hakimiyyətinin seçki məğlubiyyəti ilə üzləşməsinə yol verməməkdir. Görünür, Gürcüstanda baş verənlər, o cümlədən, müxalif düşərgənin uğursuzluğu Ermənistan məsələsində ciddi davranmağa əsas yaradıb. Bu prosesdə isə vacib missiya USAID-in üzərinə düşüb. Qurum Amerikanın diktə etdiyi gündəmin Ermənistanın siyasi mühitində heç bir müqavimət tapmamasına səy göstərir.

Paşinyandan söz düşmüşkən isə bildirək ki, o, iki gün əvvəl ölkə rəhbərinə yaraşmayan tərzdə belə bir fikir bölüşmüşdü ki, guya, sosial şəbəkələrdəki paylaşımları 2018-ci ildəkindən daha çox reytinq toplamaqdadır. Yəni, onlara baxış sayı çoxalıb. Görəsən, Nikol nəyə görə buna sevinir? Axı haqqında söz açdığı məsələ ölçü vahidi kimi qiymətləndirilə bilməz. Birincisi, 2018-ci ildə Paşinyan hələ hakimiyyətə gəlmədiyi vaxtda ölkə üçün məsuliyyət daşıyan adam deyildi. Aydındır ki, baş nazir postu tutan birinə maraq daha çox olmalıdır. Digər tərəfdən, 2018-ci ildə Nikol vəzifə tutdu və o zaman ona ümidlər böyük idi. Bu gün isə ümidləri doğrultmur. O, ölkədə repressiya aparatını işə salıb, sərbəst toplaşmaq azadlığını məhdudlaşdırıb. Ona görə də narazıların hamısı Nikolun sosial şəbəkə profillərinə doluşub onu təhqir etməklə məşğuldur. Erməni baş nazir isə məhz bunu populyarlıq sayır. Ancaq USAID məsələyə fərqli, yəni, real prizmadan yanaşır. Qurumun Ermənistan üzrə layihələrin icrasına nəzarəti gücləndirməsi, eləcə də həyatın müxtəlif sahələri ilə bağlı kadr hazırlığına girişməsi bundan qaynaqlanır. Hər bir halda, ortada Ermənistan və erməni dövlətçiliyi adına son dərəcə miskin və utancverici durum var.

***R.ƏVƏZ***
***XQ***

# İslamabad Bakının Hind okeanına yolunu açır



**(əvvəli 1-ci səhifədə)**

Nəzərə almaq lazımdır ki, perspektivdə Orta dəhlizdən bu məqsədlə Pakistanın da xeyir götürməsi mümkündür.

Son günlər Pakistan mediasında Azərbaycan və Pakistanın yükdaşıma prosedurunu mümkün qədər sadələşdirmək üçün yeni nəqliyyat marşrutunun yaradılması barədə razılığa gəldikləri barədə xəbərlər tirajlanmaqdadır. Məlumatlarda deyilir ki, Pakistan Federal Vergi Xidmətinin qərarına əsasən, bundan sonra Azərbaycanda qeydiyyatda olan avtonəqliyyat vasitələri bu ölkəyə tranzit və ikitərəfli ticarət yüklərini gömrük yoxlamasından, rüsum və vergilərdən keçmədən daşına biləcək. Pakistan mətbuatının məlumatına görə, bu, ölkələr arasında 2024-cü ilin iyulunda imzalanmış tranzit ticarət sazişi sayəsində mümkün olub.

Artıq Azərbaycandan Pakistana göndərilən və onun ərazisindən keçən bütün mallar barədə məlumatlar kompüterləşdirilmiş gömrük sistemi vasitəsilə ötürüləcək. 2024-cü ilin iyulunda Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri zamanı iki ölkə arasında bir sıra mühüm sənədlər, o cümlədən Tranzit və Preferensial Ticarət sazişləri imzalanıb. Burada söhbət Azərbaycanın, faktiki olaraq, Asiyaya və Hind okeanına birbaşa çıxışını təmin edəcək tranzit marşrutundan gedir. Sazişə əsasən, güzəştlər Azərbaycanın Pakistanın Kəraçi, Məhəmməd bin Qasim və Qvadar limanları vasitəsilə idxal etdiyi yüklərə, eləcə də Azərbaycandan Pakistan limanları vasitəsilə üçüncü ölkələrə daşınan tranzit yüklərə şamil ediləcək. Bundan əlavə, Azərbaycandan təminatlı icazələri olan avtonəqliyyat vasitələri Bakı ilə İslamabad arasında qarşılıqlı razılaşmanın nəticəsi olan rüsum və vergilərin ödənilməsi üçün maliyyənin təmin edilməsi zərurətindən azad ediləcək.

Aydın məsələdir ki, sadələşdirilmiş gömrük rejimi hər iki istiqamətdə işləyəcək. Həm Pakistandan Azərbaycan limanlarına çıxarılan yüklərə, həm də Azərbaycandan keçməklə digər ölkələrə daşınan tranzit yüklərə şamil olunacaq. Bu barədə əldə edilmiş razılaşmanın təfərrüatı Pakistanın Federal Vergi Xidmətinin rəsmi saytında dərc olunub. Bunun nəticəsində Azərbaycandan Asiyaya yeni nəqliyyat dəhlizi Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsinin artmasına töhfə verəcək. Həmçinin Azərbaycan mallarının Pakistandan keçməklə digər Asiya ölkələrinə tranziti üçün əlverişli şərait yaradacaq. Öz növbəsində Pakistan və digər Asiya ölkələri Azərbaycana və onun vasitəsilə üçüncü ölkələrə tranzit yüklər daşıya biləcəklər.

Azərbaycanın Şimal–Cənub və Orta dəhliz kimi strateji əhəmiyyətli beynəlxalq nəqliyyat dəhlizlərinin keçdiyi coğrafiyada yerləşməsi ölkəmizin Pakistanla imzaladığı ticarət və tranzit sazişlərinin əhəmiyyətini daha da artırır. Bundan başqa, ikitərəfli razılaşmalar Azərbaycana Hind okeanına birbaşa çıxış imkanı verir və yerli mallar üçün yeni bazarlara yol açır. Məlum olduğu kimi, son illər Azərbaycan ilə Asiya ölkələri arasında ticarət dövriyyəsinin həcmində dəfələrlə artım müşahidə olunub. Bu baxımdan Pakistanla ticarət rejiminin sadələşdirilməsi bu göstəricilərin də yaxşılaşmasına öz təsiririni göstərəcək.

**ARAYIŞ:** 2023-cü ildə Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsinin həcmi cəmi 27 milyon dollar təşkil edib. Bunun əsas hissəsi Pakistan idxalı olub. Prezident İlham Əliyevin İslamabada dövlət səfəri zamanı ikitərəfli münasibətlərin digər məsələləri ilə yanaşı, ticarət dövriyyəsinin artırılması imkanları da müzakirə olunub. Azərbaycan və Pakistan arasında güzəştli ticarət sazişi qarşılıqlı faydalı layihələrə investisiyanın 2 milyard ABŞ dollarına çatdırılmasını nəzərdə tuturlar. Hazırda bu rəqəm cəmi 100 milyon dollardır.

* * *

Mövzuya birbaşa aidiyyatı olmasa da, oxucularımız üçün maraq kəsb edər: Xəzər dənizini Fars körfəzinə birləşdirmək ideyası hələ XIX əsrin sonlarından var. Amma ilk dəfə bu məsələni 1990-cı illərin əvvəllərində İran Rusiya ilə danışıqlar predmetinə çevirib. O zaman Moskva Trans–İran su kanalının çəkilməsi ideyasını bəyənmişdi. Fəqət 1997-ci ildə Qərbin İrana qarşı sanksiyaları Xəzər dənizi–Fars körfəzi kanalı layihəsinə də aid edildi. İndi İrana qarşı sanksiyaların götürülməsi bu strateji nəqliyyat arteriyasının işə düşməsini yenidən aktuallaşdırıb. Yayılan xəbərdə vurğulanır ki, İran hazırda bu layihəni prioritet layihələr sırasına daxil edib və onun



işlənib tamamlanması üzərində qızğın iş gedir. Hətta prosesə xarici mütəxəssislər də cəlb olunub. Ümumi uzunluğu 700 kilometrə yaxın olacaq kanalın inşasına, qolları ilə bərabər, 10 milyard dollar xərcləmək nəzərdə tutulur. Bu, 10 il bundan əvvəlin hesablaması idi. Hazırda bu rəqəmin ən azı iki dəfə artdığına şübhə yoxdur. Ekspertlər bu layihəni region ölkələri üçün əhəmiyyətli, amma yaxın dövrlərdə qeyri-real hesab edirlər.

Yeri gəlmişkən, Azərbaycanın getdikcə artan iqtisadi qüdrəti rəsmi İrəvanın da nəzərindən yayınmır. Son vaxtlar Paşinyan komandasının bəzi üzvlərinin dilindən Şimal–Cənub transmilli nəqliyyat marşrutundan, eləcə də Orta dəhlizdən birgə faydalanmaqla bağlı səslənən təklif və müraciətlər Ermənistanın da böyük gəlirlər vəd edən bu layihələrə yan almağa çalışmasından xəbər verir. Amma bölgədə və bölgəətrafı coğrafiyada cərəyan edən hadisələr məhz öz günahı ucbatından İrəvana heç də uğurlu perspektiv vəd eləmir. Hazırda Suriya olaylarını xüsusi həssaslıq və narahatlıqla izləyən Ermənistan siyasiləri, böyük ehtimalla, yeni təşəbbüs və müraciətlər barədə düşünürlər. Bu zaman onun narahatlığına səbəb olan amilləri də unutmaq olmaz. Qarabağda məğlubiyyət və Zəngəzur dəhlizi ətrafında gedən müzakirələr İrəvanın narahatlığını daha da dərinləşdirir.

Bu barədə rusiyalı politoloq Sergey Markedonov açıqlama verib. Onun fikrincə, İrəvan Türkiyənin Yaxın Şərqdə güclənməsini əlavə risk kimi qəbul edir: "Xüsusilə Rusiya ilə münasibətlərin soyuması fonunda Qərbin Ankaranın qarşısında dayana bilməməsi, eyni zamanda, Moskva və Bakı arasında yaxınlaşma İrəvanın vəziyyətini bir qədər də çətinləşdirir. Azərbaycanda isə əksinə, Türkiyənin güclənməsi müsbət hal kimi qəbul edilir. Üstəlik, rəsmi orqanlar təmkinli davranırlar. Bakı Ankara ilə strateji müttəfiqliyi uğurla davam etdirməyi bacarır. Azərbaycan dünyanın istənilən yerində strateji müttəfiqini gücləndirməyi özü üçün mənfəət hesab edir".

Sonda Azərbaycan və Pakistanın reallaşdıracaqları heç kəsdə şübhə doğurmadığı kimi, bu layihənin də iki qardaş ölkəyə yalnız fayda gətircəyinə hamı əmindir. Çünki qardaşların əl-ələ verib ərsəyə gətirəcəyi işlər yalnız bir məqsədə – sülhə, rifaha və təminatlı gələcəyə xidmət edir. Necə ki, indi qardaşlaşmış şəhərlərin – Bakı və İslamabadın nəbzi bir vurur.

***İmran BƏDİRXANLI***
***XQ***

**Replika**

# Oğru elə bağırır ki...

**Bütün işlərini bir kənara qoyub, Azərbaycanda "insan haqlarının tapdanması, siyasi fəalların və jurnalistlərin həbs olunması" şüarları ilə "əcinnə ovu"na çıxan fransalı, amerikalı psevdodemokratların əsl məqsədlərinin nədən ibarət olduğunu yaxşı bilirik. Kökdən və dəbdən düşmüş bu "mahnıların" daha dinləyicisi yoxdur. Belə təəssürat yaranır ki, bayağı bəstələrə heç onların sifarişçiləri də qulaq asmırlar.**

Parisin mərkəzində Əlcəzair əsilli 15 yaşlı yeniyetmənin "parkovka" qaydasını pozduğuna, Vaşinqtonda Afrika mənşəli qaradərilinin əlini gödəkçəsinin cibinə saldığına görə günün günorta çağı, heç bir xəbərdarlıq edilmədən, polis tərəfindən yerindəcə güllələnmələri "asayişin qorunması" kimi tövsif edilir. Amma Azərbaycanda məhkəmənin qaçaqmalçılıqda, mütəşəkkil cinayətkarlıqda şübhəli bilinərək saxlanılanlara münasibətdə beynəlxalq hüququn pozulduğu iddia edilir. Yox, sadəcə iddia edilmir, bu barədə dünyaya car çəkilir.

Ardınca da Qarabağı könüllü tərk etmiş ermənilərin "etnik təmizləməyə məruz qaldıqlarından", onların geri qayıtmaq hüququndan dəm vurur, Azərbaycanla yeni savaşa başlamaq üçün İrəvana hərbi-texniki və maliyyə yardımı göstərirlər. Bunlar az imiş kimi, ABŞ Dövlət Departamenti üçüncü ölkədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərini bir araya gətirmək, yenidən "sülh təşəbbüskarı" missiyasını yerinə yetirməyə çalışırlar. Daha kifayətdir! Bakı sizin riyakar simanızın altından boylanan bic baxışlarınızı, saxta təşəbbüslərinizi, yalançı vədlərinizi çox gördü.

Öz evlərində hüquqi və təbii çirkablarını təmizləmək yerinə, Azərbaycanı nədəsə ittiham etməyə girişənlər iz azdırmağa çalışan oğrular kimi bağırırlar.

Fransa paytaxtını yarı bölən Sena çayının çirkabdan təmizlənməsi üçün ayrılan büdcə vasaitinin meriya, yoxsa özəl şirkətlər tərəfindən mənimsənildiyini bugünədək aydınlaşdıra bilməyiblər. ABŞ Konqresinin və Senatın bəzi üzvlərinin korrupsiya əməllərinin, onlarlın erməni lobbisindən, misirli iş adamlarından aldıqları rüşvətin miqdarının hesablanması, supergücün ən şəffaf və ciddi qurumu sayılan Pentaqonda on milyardlarla dollar yeyinti faktlarının araşdırılması hələ də davam edir. Bəs, niyə bu barədə ictimaiyyətə məlumat verilmir, vergiödəyicilərinin informasiya almaq



hüququ pozulur? Bunun əvəzində nə görürük? ABŞ Prezidenti Cozef Bayden narkoticarət, qanunsuz silah alveri, vergidən yayınma cinayətləri məhkəmə tərəfindən təqsiri sübuta yetirilmiş və 25 illik həbsə məhkum ediləcək oğlunu "təntənəli surətdə" əfv edir.

Dünyada Femidanın ən böyük heykəlini ucaltmış bir ölkədə qanunvericiliyi, demokratiyanı və insan haqlarını müdafiə edən hakimiyyətin – Bayden administrasiyasının əsl siması bundan ibarətdir. Bu administrasiya dünyanın müxtəlif ölkələrində pulla, qrantla, vətəndaşlıq verməklə ələ aldıqları manqurtları, millət, dövlət və bayraq hissindən uzaq mənəviyyatsızları ona boyun əyməyən müstəqil yerli hakimiyyətlərin üstünə "qısqırdır", bu cəbhədə xüsusilə fərqlənənləri mükafatlandırır, qəhrəmana çevirir. Elə "demokratiyanın beşiyini yırğalayanların" toruna düşmüş, adını jurnalist qoymuş Sevinc Vaqifqızı və onun kimi milli korafəhmlərin qoynuna sığındıqları anti–Azərbaycan "çete"sinin əsl məramını, onun şeytan dəsti-xəttini anlayacaqları, sonda peşman olacaqları gün uzaqda deyil.

Gözlə görünən məsafədə Gürcüstan nümunəsi var. Yelisey sarayında və Ağ evdə əyləşənlər qulaqlarını açıb yaxşı-yaxşı eşitsinlər: onların düşündüyü oyunlar Azərbaycanda keçməyəcək. Bura Gürcüstan deyil. Burada onların qarşısında kənar müdaxilələrə qarşı effektiv mexanizmlər qoymağa qadır bir dövlət dayanır. Azərbaycan daha 30 əvvəlki kimi, müdafiə mövqeyində durmağa məcbur edilmiş dövlət deyil. İndi onun sözünü deməyə dili-dilçəyi, gücünü göstərməyə biləyi var.

Əgər Vaşinqton və Paris diplomatik yöndən naşı, ideoloji baxımdan ucuz və bayağı üsullarla Bakıya təsir göstərə biləcəklərini düşünürlərsə, deməli, siyasi səhnəni tərk etməyə layiq olduqlarını özləri sübuta yetirmiş olurlar. Bizim isə faydasız işlərdən, bəd əməllərdən yorulmuşlara, əldən düşmüşlərə tövsiyəmiz budur: Gedin dincəlin! Amma sol çiyninizə yazdığınız günahlarınızın əfv edilməsi üçün kilsəyə üz tutmayın. Sizi kilsə bağışlaya bilər, amma əlahəzrət tarix bağışlamayaq.

***İ.HƏSƏNQALA***
***XQ***

VIII MƏQALƏ

**Gələcəyi öncədən görməyin ən yaxşı üsulu onu yaratmaqdır.**

**Piter DRUKER**

# Liderin quruculuq kursu



## Dayanıqlı inkişaf və milli ideya

Dayanıqlı inkişafın yeni tarixi mərhələdə strateji anlamı olan termin kimi konseptuallaşdırılması iki cəhətdən maraqlı və aktualdır. Onlardan biri müasir müstəqil dövlətçiliyimiz tarixində ilk dəfə olaraq ümumi mənada işlənən bir anlayış kimi Azərbaycan təcrübəsi əsasında konseptual səviyyədə mənalandırılması ilə bağlıdır. Bu aspektin fəlsəfi və politoloji dərki sistemli və davamlı aparılmaqdadır.

Digər cəhət dayanıqlı inkişafın konseptual anlamının praktiki sahədə inklüziv tətbiqi reallaşması ilə əlaqəlidir.

İkinci cəhətin praktiki ifadəsi strateji inkişaf sənədlərində öz əksini tapmışdır. Deməli, söhbət faktiki olaraq XXI əsrdə müstəqil güclü Azərbaycan dövlətinin inkişaf sətrategiyasının çox mühüm bir özəlliyindən gedir. Həmin özəllik güclü dövlət quruculuğu kontekstində böyük millət quruculuğu ilə ölkənin dayanıqlı inkişafı arasında siyasi-ideoloji bağlantının məzmun alması ilə əlaqəlidir.

Həmin bağlantı milli ideya vasitəsilə konkret tarixi dönəmdə məzmun alır. Məsələnin bu tərəfi qurucu liderlik baxımından əhəmiyyətli nəzəri və praktiki xüsusiyyətlərə malikdir.

Məsələ onunla bağlıdır ki, dayanıqlı inkişafı, adətən, iqtisadi tərəqqi və davamlı inkişafla izah edirlər. Bu, tamamilə təbii və gərəkli yanaşmadır. Lakin əgər söhbət müstəqil dövlət quruculuğunun da dayanıqlı olmasından gedirsə, artıq problemin bu aspektinin konseptuallaşması zərurəti meydana çıxır. O cümlədən, dayanıqlılığın bazasına ancaq sosial-iqtisadi, ideoloji və idarəetmənin yeni texnologiyalarını yerləşdirməyin kifayət etmədiyini qəbul etmək lazım gəlir. Postsovet məkanında bu tezisin doğruluğunu Ukrayna və Gürcüstan nümunəsi praktiki olaraq sübut etmişdir.

Sirr deyildir ki, keçən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq Qərb politoloji və fəlsəfi fikrində liberal və demokratik ideoloji sisteminə üstünlük verən və həmin prizmada iqtisadi kursunu Qərbin tövsiyələrinə uyğun dəyişən müstəqil dövlətlər, başqalarına nisbətən daha dayanıqlı və perspektivli vəziyyətdə olan ölkələr kimi təqdim edilirdi. Elə təəssürat yaradılırdı ki, Qərb politoloji texnoloqların "açıq iqtisadiyyat" "bazar iqtisadiyyatı", "liberal ideolojiya" və s. kimi adlandırdıqları Qərb dövlət quruculuğu ştampları tətbiq olunan keçmiş sovet respublikalarında müstəqil, sabit və davamlı inkişaf tam təmin edilmişdir.

Bu illüziyanı XXI əsrin ilk onilliklərinin təcrübəsi darmadağın etdi. İndi həmin texnoloqlar sualı başqa cür qoyurlar: Gürcüstan və Ukraynada sabit, davamlı və dayanıqlı inkişaf niyə baş tutmadı? Bu sualın işığında biz Azərbaycan təcrübəsinə baxaq. Azərbaycanı digər postsovet məkanı ölkələrindən vurğulanan kontekstdə hansı özəlliklər fərqləndirir? Onlar çoxdur və sistemli qarşılıqlı əlaqədə olan faktorlarla bağlıdır. Lakin ən dərin qatlarda hamısını birləşdirən bir faktor-proses vardır – Azərbaycan dayanıqlı inkişafın təməl prinsipini fərqli məqam üzərində qurmuşdur! Bu, hansı məqamdır?

Ümumi götürdükdə, bu, milli ideya və onun reallaşma mexanizmləridir! Yəni milli ideyanın nəzəri-konseptual məzmununun düzgün müəyyən edilməsi kifayətedici deyildir. Onunla vəhdət halında inklüziv olaraq milli ideyanın reallaşması da olmalıdır. Milli ideyanın vurğulanan keyfiyyətdə və funksiyada güclü dövlət və cəmiyyətin mövcudluğunun aktual atributuna çevrilməsi isə özülüyündə xeyli sayda faktoru ehtiva edir. Həmin faktorları məhdud sayda "idarəedici və nizamlayıcı parametrlər" adlandıra biləcəyimiz amillərin çətiri altında qruplaşdıra bilərik.

## İdarəedici və nizamlayıcı parametrlər

Deməli, strateji məqsəd dayanıqlı inkişafdır. Onun reallaşmasının motivəedici, təminedici və "inkişaf kanalı"nı müəyyənedici faktoru milli ideyadır. Eyni zamanda, milli ideya dayanıqlı inkişafı çox və qeyri-müəyyən sahədə motivə etmir və onu təyin etmir. Bu, yalnız konkret dövlət, ölkə və cəmiyyətdə baş verə bilər. Belə alınır ki, milli ideya praktiki müstəvidə ancaq müəyyən dövlət, ölkə və cəmiyyətdə aktuallaşa və reaktuallaşa (təkrar-təkrar aktuallaşa) bilər. Bizim üçün, bu, Azərbaycan Respublikasıdır. Məhz bu əsas şərtin prizmasında milli ideya ilə dayanıqlı inkişafı təmin edə biləcək idarəetmə və nizamlama parametrlərini müəyyən edə bilərik.

Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunun ümumi şərtlərindən görünür ki, idarəedici və nizamlayıcı parametrlər dəqiq təyin edilmişdir. Onlar pilləvari struktur – funksional quruluşa malikdirlər.

**Birincisi,** ən ümumi səviyyədə milli ideyanın dayanıqlı inkişafı təmini yeni tarixi mərhələnin özəllikləri çərçivəsində baş verməlidir. Yeni tarixi mərhələnin bazasında milli ideyanın ərazi bütövlüyünü bərpa etmək kimi məzmunlaşması mərhələsində alınan qənaətlər dayanır (tarixi ədalət, milli ləyaqət və beynəlxalq hüquq).

Deməli, yeni milli ideya yeni tarixi mərhələnin başlıca özəlliyi olan Azərbaycanın strateji inkişafının əsas ruhunu ifadə etməlidir. Strateji inkişaf isə mütləq surətdə inkişafın dayanıqlığını nəzərdə tutur. Buradan belə alınır ki, milli ideyanın inkişafın dayanıqlılığını motivə etməsi üçün ölkənin strateji inkişaf kursu idarəedici parametr rolunu oynamalıdır. Azərbaycan Prezidentinin müəyyən etdiyi kursda məhz bu məqam mövcuddur.

**İkincisi,** strateji inkişaf kursunun idarəedici parametr kimi rolunu yerinə yetirməsinin konkret mexanizmləri prosesin nizamlama parametrləri olaraq xarakterizə oluna bilər. Onlar azərbaycançılıq məfkurəsi və multikultural dəyərlər sistemidir. Bununla qurucu liderliyin olduqca əhəmiyyətli bir özəlliyindən danışmaq olar: müstəqil Azərbaycan dövlətçiliyində milli ideyanın strateji inkişafı motivə etməsi ideologiya ilə mədəni bütövlüyün sosial, siyasi, idarəetmə, mənəvi-əxlaqi dəyərlər fenomenlərinə müasir kriteriyalar kontekstində transformasiyası ilə sıx bağlıdır.

Bu məqam fəlsəfi səviyyədə ideologiyanı klassik anlam sərhədindən çıxararaq, onun bütövlükdə mədəniyyət sisteminə üzvi surətdə daxil edilməsinə imkan verir. Əlbəttə, tarixdə həmişə ideologiya cəmiyyətin, ümumiyyətlə, mədəniyyət sistemi ilə sıx bağlı olmuşdur. Müasir Azərbaycanda, bu, ideoloji məfkurənin dövlətin və cəmiyyətin güclü olması naminə yeniləşmə proseslərinə mədəniyyət vasitəsilə təsir göstərməsini nəzərdə tutur. Multikultural dəyərlərin dominantlığı məhz bu kontekstdə əhatəli yeniləşmələrin (güclü dövlət və güclü cəmiyyətin vəhdətdə formalaşmasının) "inkişaf dəhlizi"nin hüdudlarını aşmaması üçün kollektiv tamlığı təmin etmək mexanizmi kimi lazımdır.

Belə alınır ki, bir tərəfdən, milli ideya bütövlükdə strateji inkişafın məzmunu və motivasiyasını təmin edir, digər tərəfdən isə multikulturalizmin bu prosesin sivil məcradan çıxmaması şərti ilə toplumun bütövlüyünü təmin etməyə xidmət mexanizmi kimi daim aktuallaşdırılmasına (əyaniləşməsi, predmetləşməsi, reallaşması) lazım olan münbit şəraiti yaradır.

Vurğulanan özəlliklər dayanıqlı inkişafın strateji termin kimi fəlsəfi və politotoloji anlamının məzmunlarında əsas elementlərdir. Onların işığında baxanda dayanıqlı inkişafın strateji məqsədinin iki yekun xüsusiyyəti üzərində də dayanmaq lazım gəlir. Onlar 2030-cu ilə qədər olan strateji inkişaf kursunun əsas nəticələridir – qüdrətli dövlət və yüksək rifah (fəzilət) cəmiyyətinin yaradılması! Onu vurğulayaq ki, strateji inkişaf kursunda qüdrətli dövlət və yüksək rifah cəmiyyəti anlayışlarına məzmun çalarları verən konkret kriteriyalar mövcuddur. Onları biz öncəki məqalədə ifadə etmişik. Biz, "yaşıl ölkə" və fəzilətli millət quruculuğunu nəzərdə tuturuq.

## "Yaşıl ölkə"

Azərbaycanın strateji inkişaf konsepsiyasında "yaşıl" sözü yalnız rəmzi və ekoloji mahiyyətli anlayış deyildir. "Yaşıl" təmiz ekoloji mühitə (sosial, siyasi, mədəni, istiqsadi, mənəvi-əxlaqi çalarlı) malik güclü dövlətin formalaşmasını ifadə edir. Öncə onu deyək ki, "ekologiya" termininin vurğuladığımız anlamda izahı artıq fəlsəfədə, sosiologiyada və kulturologiyada mövcuddur.

Hələ keçən əsrin 80-ci illərində Qreqori Beytson məşhur "Zəkanın ekologiyası" adlı monoqrafiya yazmışdır. Burada o, ümumiyyətlə, insan zəkasının niyyətcə təmiz, konstruktiv və yaradıcı olmasını nəzərdə tuturdu. Zəkanın ekologiyası yekun məqsəddə dünyanın ziddiyyətsiz mövcud ola bilməsinə xidmət etməli idi.

Təqribən həmin dövrdə başqa bir Qərb yaradıcı adamı Yakob fon İksükyül "Umwelt World" ("ətraf mühit dünyası") anlayışını daxil etmişdir. O, izah etmişdir ki, hər bir fərdi və kollektiv mövcudolmanın zəruri şərti var: həmin şərt onların "mövcud ola bilmə ekologiyası, aləmi və dünyası"na aiddir.

Daha konkret anlamda "ətraf mühit dünyası" anlayışı sosiumun psixoloji və sosial-mədəni dünyasının hüdudlarını müəyyən edən proseslərdir. Tədqiqatlar götərir ki, bu proseslər sisteminin dinamikası və funksional mürəkkəblikləri ilə bütövlükdə sistemin dayanıqlılığı arasında müəyyən balans olmalıdır. Əgər strateji inkişafa mürəkkəbləşmə prosesi kimi baxsaq, onda ən kiçik balanssız addımın belə, xoş niyyətlərə baxmayaraq, bütövlükdə, sistemi çökdürə bilməsi qənaətinə gələrik. Həmin anlamda müasir cəmiyyətlərin və bütövlükdə, ölkənin Umwelt dünyası "yaşıl ölkə"dir.

Bu özəllik "yaşıl ölkə" anlayışının milli ideyaya dayanan strateji inkişaf kursunun fəlsəfəsinin mərkəzi müddəalarındandır. Həmin prizmada dayanıqlı inkişaf ölkənin "özünütənzimləmə", "özünədəstək" funksiyasını yerinə yetirə bilməsinin fəlsəfi-konseptual ifadəsidir. Başqa bir fəlsəfi və elmi nəticəyə görə, müasir ölkələrin strateji inkişafda "özünü dəstəkləməsi" daim cəmiyyətin mürəkkəbləşməsi dinamikası ilə dayanıqlılıq arasında "xaosun astanasında" incə balanslaşma (tarazlıq yaratma) kimi təzahür edir.

Buradan araşdırılan mövzu ilə bağlı iki mühüm fəlsəfi nəticə çıxara bilərik.

**Birincisi,** müstəqil güclü dövlət və güclü cəmiyyətin XXI əsrdə çox həssas məqamların kompleks təsiri sahəsində mövcudluğu mümkündür. Bunun politoloji-praktiki ifadəsi strateji inkişafın daim "xaosun astanasında" və çox incə bir "kommunikasiya kanalı"nda yaranan "nizamlılıq zonası"nda özünü tapır.

**İkincisi,** həmin həssas "nizamlılıq zonası"nı təşkil edən, dinamikasını və ümumi mənzərəsini obrazlaşdıran milli ideyadır! Milli ideya bu keyfiyyətdə millət quruculuğu ilə dövlət quruculuğunu ortaq ahəngdar münasibətlər ritminə gətirən başlıca amildir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Gürcüstan hökuməti ölkədə zorakılığın təşviqini pisləyir

*Etiraz aksiyaları zamanı polislərə xəsarət yetirilib, mağazalarda oğurluq edilib, ictimai və şəxsi əmlaka ziyan vurulub*

**Gürcüstan hökumətinin Avropa İttifaqı ilə danışıqları 2028-ci ilə qədər dayandırmaqla bağlı qərarından sonra ölkədə müxalifət qüvvələrinin koordinasiyalı etiraz aksiyaları davam edir. O da qeyd edilməlidir ki, paytaxt Tbilisidə və ölkənin iri şəhərlərində etirazlar Qərb ölkələri tərəfindən ciddi şəkildə dəstəklənir. Doğrudur, bu günlərdə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ölkədə yeni "Maydan" yaradılması ssenarisinin iflasa uğradığını bəyan etsə də, aksiyalar, zorakılıq halları səngimək bilmir.**




Daxili İşlər Nazirliyinin məlumatına görə, etirazçılar Gürcüstan parlamenti yaxınlığında cinayətlər törədib, polisə xəsarət yetirib, mağazalarda quldurluq edib, şəxsi əmlaka ziyan vurublar. O cümlədən, ticarət mərkəzləri, supermarketlər, mağazalar, açıq bar və restoranlardan 60-a yaxın oğurluq faktı qeydə alınıb. İnventar, pul, paltar və digər əşyalar oğurlanıb.

Əlində bıçaq olan maskalı şəxs "Swarovski" mağazasına daxil olaraq bahalı əşyaları oğurlayıb. Bankomatlar da oğurlanıb və daha sonra Rustaveli prospektində barrikadalar qurmaq üçün istifadə edilib. Vətəndaşların və sahibkarların əşyalarının (avtomobillər, motosikletlər, elektroskuterlər və küçə mebelləri) oğurlanması və zədələnməsi ilə bağlı onlarca fakt qeydə alınıb.

Hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasından deputat Arçil Qorduladze bildirib ki, hakimiyyət etiraz aksiyalarında maskalar arxasında gizlənərək, zərərli fəaliyyətin qarşısını almaq üçün qanuna dəyişiklik edəcək. Onun sözlərinə görə, Baş nazir İrakli Kobaxidze dekabrın 7-də axşam saatlarında Rustaveli prospekti yaxınlığında, Qriboyedov küçəsində müxalif "TV Pirveli" telekanalının çəkiliş qrupuna naməlum maskalı şəxslərin hücumundan sonra belə bir təşəbbüslə çıxış edib. Hücum nəticəsində teleoperator Georgi Şetsiruli döyülüb, jurnalist Maka Çixladzenin kamerası sındırılıb və mikrofonu oğurlanıb. Baş nazir jurnalistlərə hücumu pisləyib və hadisəni təxribat adlandırıb.

Daxili İşlər Nazirliyinin məlumatına görə, iğtişaşlar zamanı 150-dən çox polis əməkdaşı xəsarət alıb, onların əksəriyyəti başından, üz nahiyəsindən yanıq və sınıq xəsarətləridir.

Gürcüstan hakimiyyətinin nümayəndələri isə bu cür çağırışlara Qərbin, xüsusilə ABŞ-ın rəvac verdiyini bəyan edirlər. Dünən hakim partiyanın icraçı katibi, parlament çoxluğunun lideri Mamuka Mdinaradze bildirib ki, heç bir arqument olmadan qəbul edilən əsassız qərarlar, eləcə də ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin səsləndirdiyi bəyanatlar Gürcüstanda zorakılıq faktlarına təkan verir. Onun sözlərinə görə, ABŞ-ın Gürcüstandakı səfirliyi də son günlər "Gürcü arzusu"nun media nümayəndələrinə və Gürcüstan vətəndaşlarına qarşı "amansız və əsassız hücumlarını qətiyyətlə pislədiklərini" bildirib. Səfirlik Blinkenə istinadən bəyan edib ki, ABŞ "zorakılıq edənlərin və zorakılıq mühitinə töhfə verənlərin" məsuliyyətə cəlb olunmasını təmin etmək üçün sanksiyalar da daxil olmaqla, əlində olan bütün vasitələrdən istifadə etməyə hazırlaşır.

Mdinaradze deyib: "Biz xatırlayırıq ki, əvvəlki illərdə və aylarda sanksiyalarla bağlı əsassız qərarlar, eyni zamanda, Blinkenin səsləndirdiyi analoji bəyanatlar ölkə daxilində zorakılıq faktlarını təşviq edir. Hər kəs bilməlidir ki, havadan belə ədalətsiz və əsassız qərarlarla yerdəki "agentlərə" dəstək verildikcə, ölkədə, eləcə də Tbilisi küçələrində zorakılıq təşviq edilir".

Onun sözlərinə görə, bunu edən ABŞ-da hakimiyyətdən getmək üzrə olan hökumətin bürokratlarıdır: "Ona görə də biz ölkədən kənarda olan hər kəsi, müvafiq səfirləri, o cümlədən səfir Deqnanı (ABŞ-ın Gürcüstandakı səfiri - red.) daxili işlərimizə belə kobud şəkildə müdaxilə etməməyə çağırırıq. O, zorakılığı təşviq edir".

Mdinaradze bildirib ki, "Gürcü arzusu"nu zorakılıqda ittiham etməyə çalışan səfirlər yaxşı yadda saxlamalıdırlar ki, onların bu cür bəyanatları dəstəklədikləri partiyaları zorakılığa sövq edir: "Biz çox aydın şəkildə gördük ki, bu cür adddımların təşkili və təchizatı onların ofislərindən həyata keçirilib".

Qeyd edək ki, ABŞ Dövlət Departamenti 2009-cu ildə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının əsas prinsiplərini pozduğunu bildirərək, Gürcüstanla strateji tərəfdaşlığı dayandırdığını bəyan edib. Dövlət Departamentinin məlumatına görə, "Gürcü arzusu"nun antidemokratik hərəkətləri ortaq dəyərlərə və demokratiya, qanunun aliliyi, vətəndaş cəmiyyəti, insan hüquqlarına hörmət öhdəliyinə əsaslanan ABŞ–Gürcüstan strateji tərəfdaşlığının əsas prinsiplərini pozub. Buna cavab olaraq Gürcüstanın Baş naziri Kobaxidze bildirib ki, ABŞ-ın indiki administrasiyası Gürcüstan hakimiyyətinin danışmağa hazır olduğu yeni Donald Tramp Administrasiyası üçün mümkün qədər ağır miras qoymağa çalışır.

Xatırladaq ki, dekabrın 4-dən Gürcüstan polisi müxalifət partiyalarının ofislərində axtarışlar aparıb, yalnız bundan sonra etirazçıların polisə pirotexniki vasitələrlə "atəş açması", daş və "Molotov kokteyli" atması azalıb, təhlükəsizlik qüvvələri isə artıq su şırnaqlarından və ya gözyaşardıcı qazdan istifadə etmirlət.

Bununla yanaşı, hökumət, demək olar, hər gün izah edir ki, Aİ ilə danışıqların 2028-ci ilə qədər dayandırılması barədə qəbul edilən qərar heç də ölkənin Avropa İttifaqına inteqrasiyasının dayandırılması demək deyil, sadəcə olaraq, assosiasiya sazişindən irəli gələn öhdəlikləri yerinə yetirmək, Aİ üzvlüyünə hazır olmaq üçün təşkilatla işləməyə davam ediləcək. Hökumətin elan etdiyinə görə, 2028-ci ilin sonuna qədər Gürcüstan öhdəliklərinin 90 faizdən çoxunu yerinə yetirəcək və 2030-cu ildə Aİ-yə üzvlük üçün danışıqlara başlamağa iqtisadi cəhətdən yaxşı hazır olacaq.

Amma xarici təzyiqlər sayəsində etiraz dalğası güclənməsə də, səngimir də.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 508** **Bakı şəhəri, 4 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I); 2024, № 2, maddə 206) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 48-101-ci, 227-ci və 228-ci hissələr ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 229-288-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 229. | Sərsəng su anbarı | Ağdərə rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 230. | Suqovuşan su anbarı | Ağdərə rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 231. | Mingəçevir su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Mingəçevir şəhəri | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 232. | Şəmkir su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Şəmkir rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 233. | Yenikənd su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Samux rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 234. | Varvara su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Yevlax rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 235 | Ceyranbatan su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları, Ceyranbatan su təchizatı sisteminin su təchizat qəbulu qurğusu ilə birlikdə | Abşeron rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 236 | Qarabağ suvarma kanalının baş suqəbuledici qurğusu | Mingəçevir şəhəri | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 237. | Şirvan suvarma kanalının baş suqəbuledici qurğusu | Yevlax rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 238. | Taxtakörpü su anbarı | Şabran rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 239. | Şəmkirçay su anbarı | Şəmkir rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 240. | Xanbulançay su anbarı | Lənkəran rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 241. | Viləşçay su anbarı | Masallı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 242. | Ağstafaçay su anbarı | Qazax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 243. | Coğazçay su anbarı | Qazax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 244. | Axıncaçay su anbarı | Tovuz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 245. | Nohurqışlaq su anbarı | Qəbələ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 246. | Bəhrəmtəpə hidroqovşağı | İmişli rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 247. | Qax su istehsalat bazası | Qax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 248. | Külüllü suqəbuledici qurğular kompleksi | Ağsu-İsmayıllı rayonları | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 249. | Ballıqaya suqəbuledici qurğusu | Goranboy rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 250. | Maştağa su anbarı və onun nasos stansiyası | Bakı şəhəri, Sabunçu rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 251. | +18 "Ramana" su anbarı | Bakı şəhəri, Sabunçu rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 252. | +42 "Dədə Qorqud" su anbarı | Bakı şəhəri, Suraxanı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 253. | +69 "Qərb" su anbarı | Bakı şəhəri, Nəsimi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 254. | +69 "Şərq" su anbarı | Bakı şəhəri, Xətai rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 255. | +82 "Masazır" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 256. | +82 "Balaxanı" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 257. | +87 "Saray" su anbarı və onun supaylayıcı kamerası | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 258. | +105 "Saray" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 259. | +110 "Qərb" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 260. | +110 "Şərq" su anbarı | Bakı şəhəri, Nizami rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 261. | +118 "Abşeron" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 262. | +119 "Sulutəpə" su anbarı | Bakı şəhəri, Binəqədi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 263. | +126 "Qaraçuxur" su anbarı | Bakı şəhəri, Nizami rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 264. | +152 "Alatava" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 265. | +160 "Qərb" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 266. | +160 "Şimal" su anbarı | Bakı şəhəri, Binəqədi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 267. | +180 "Badamdar" su anbarı | Bakı şəhəri, Səbail rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 268. | +220 "Badamdar" su anbarı | Bakı şəhəri, Səbail rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 269. | Babazanlı su anbarı | Salyan rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 270. | 6 saylı su anbarı və 2 saylı nasos stansiyası | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 271. | 8 saylı su anbarı | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 272. | Oğuz-Qəbələ-Bakı su kəməri, quyular sahəsi, təzyiqqırıcı kameralar | Oğuz-Qəbələ rayonları | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 273. | 1-ci və 2-ci Bakı su kəməri xətləri və mənbəyi | Xaçmaz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 274. | Kür su kəmərləri, onların təmizləyici qurğuları və nasos stansiyaları kompleksi | Hacıqabul rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 275. | Ceyranbatan sutəmizləyici qurğuları və nasos stansiyaları kompleksi | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 276. | Quba sutəmizləyici qurğusu | Quba rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 277. | Şəmkir sutəmizləyici qurğusu | Şəmkir rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 278. | 1 saylı sutəmizləyici qurğular kompleksi | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 279. | Şuşa sutəmizləyici qurğular kompleksi | Şuşa rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 280. | Müşfiqabad supaylayıcı kamerası | Bakı şəhəri, Qaradağ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 281. | 1-ci və 2-ci Bakı su kəmərlərinin 1 və 2 saylı nasos stansiyaları | Sumqayıt şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 282. | Səngəçal su nasos stansiyası | Bakı şəhəri, Qaradağ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 283. | Göygöl-Gəncə su mənbəyi (suqəbuledici qurğu) | Göygöl rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 284. | Qızılqaya-Gəncə su mənbəyi (suqəbuledici qurğu) | Göygöl rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 285. | Zarıslı su mənbəyi (suqəbuledici qurğu) | Şuşa rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 286. | Hövsan Aerasiya stansiyası | Bakı şəhəri, Suraxanı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 287. | Zığ çirkab sutəmizləyici qurğuları və nasos stansiyası | Bakı şəhəri, Xətai rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 288. | Sumqayıt çirkab sutəmizləyici qurğusu | Sumqayıt şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |

**2.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nın:

2.1. 229-288-ci hissələrində nəzərdə tutulmuş obyektlərin balanssaxlayıcısı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyidir;

2.2. 229-237-ci hissələrində nəzərdə tutulmuş obyektlərin mühafizəsi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və 238-288-ci hissələrində nəzərdə tutulmuş obyektlərin mühafizəsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təmin edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 509** **Bakı şəhəri, 4 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 172 nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1354 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na aşağıdakı məzmunda 5.9-cu bənd əlavə edilsin:

"5.9. Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 510** **Bakı şəhəri, 4 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2005-ci il 26 dekabr tarixli 241 nömrəli və "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərə göstərilən tibbi yardımın həcminin və Qaydasının, qan, qan komponentləri və dərman preparatlarının, qan komponentləri hazırlamaq üçün vasitələrin Siyahısının və miqdarı"nın təsdiq edilməsi haqqında" 2005-ci il 29 dekabr tarixli 242 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 26 dekabr tarixli 241 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1240 (Cild I) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası"nın 3-cü hissəsində "akademik M.Mirqasımov" sözləri "Akademik M.Ə.Mirqasımov" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 dekabr tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1241 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərə göstərilən tibbi yardımın Qaydası"nın 1-ci hissəsində "akademik M.Mirqasımov" sözləri "Akademik M.Ə.Mirqasımov" sözləri ilə, "Gəncə və Şəki rayonlararası qanköçürmə mərkəzlərinin" sözləri "Respublika Qan Bankının Gəncə və Şəki bölmələrinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 511** **Bakı şəhəri, 4 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 55 (Cild I) ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 512** **Bakı şəhəri, 5 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının 3.8-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 178 (Cild I); 2024, № 4, maddə 456, № 6 (II kitab), maddə 737) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.1-ci bəndində "398605880 (üç yüz doxsan səkkiz milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri "473605880 (dörd yüz yetmiş üç milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 513** **Bakı şəhəri, 5 dekabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin növlərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli 212-23 nömrəli, 2010-cu il 16 iyul tarixli 139-8 nömrəli və 2016-cı il 24 may tarixli 199-9 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin növlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.15-ci hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin.

2.16-cı hissənin sonuna nöqtəli vergül işarəsi əlavə edilsin.

3.Aşağıdakı məzmunda 17-24-cü hissələr əlavə edilsin:

"17. İnsanın psixofiziki reaksiyalarının qeydi üçün çoxkanallı registratorlar;

18. Radioyayım qurğularının olduğu yerin müəyyən edilməsi və nəzarətdə saxlanılması üçün nəzərdə tutulmuş radioavadanlıq daxil olmaqla, ötürülən məlumatın və gizli yerləşdirilmiş texniki vasitələrin aşkar edilməsi üçün çoxfunksiyalı texniki vasitələr;

19. Akustik məlumatın məsafəyə ötürülməsi, işlənilməsi, gücləndirilməsi və dəyişdirilməsi üçün texniki vasitələr;

20. Video və (və ya) audio məlumatın gücləndirilməsi, işlənilməsi, yazılması, saxlanılması və əks etdirilməsi üçün kiçik ölçülü (50x50x50 mm-dən az) texniki vasitələr;

21. Təsvirin ötürülməsi, optik və ya optik-elektron dəyişdirilməsi üçün texniki vasitələr;

22. Radioyayım tezlik diapazonlarından kənarda işləyən ötürücü-qəbuledici radioavadanlıq;

23. Telefon danışıqlarının çoxkanallı (2 və daha çox xətlərdən) qeydini (yazılmasını) aparan texniki vasitələr və proqram təminatları;

24. Radioefirdə nəzarət və axtarış həyata keçirilməsi üçün gizli daşınan radiopelenqasiya və radionaviqasiya vasitələri.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Maye enerjinin Avropaya təhlükəsiz nəqli

**Yunanıstan – Bolqarıstan Qarışıq Qaz Boru Kəmərinin (IGB) operatoru olan ICGB digər qaz infrastrukturları, o cümlədən ötürücü və paylayıcı operatorlar, yenidən qazlaşdırma terminalları və qaz anbarları ilə sıx inteqrasiya yolu ilə regionun enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayır. Bunu ICGB-nin icraçı direktoru Teodora Georgiyeva mətbuata müsahibəsində deyib.**



Ümumi enerji sistemi çərçivəsində bütün təşəbbüslərin, o cümlədən karbon emissiyalarının azaldılmasının və davamlı enerjinin inkişafına yönəlmiş təşəbbüslərin müxtəlif aktorlar tərəfindən əlaqələndirilmiş fəaliyyət tələb etdiyini vurğulayan direktor Mərkəzi və Cənub-Şərqi Avropa regionunda qazın keyfiyyətinə dair tələblərin uyğunlaşdırılmasına dair bu yaxınlarda imzalanmış Anlaşma Memorandumunu bu yanaşmanın gözəl nümunəsi kimi dəyərləndirib.

Bundan əlavə, o, 7 ölkənin ötürücü sistem operatorlarını birləşdirən Şaquli Qaz Dəhlizin enerji landşaftının inkişafında mühüm rol oynadığını söyləyib: "İnfrastrukturun modernləşdirilməsi və normativ-hüquqi bazanın unifikasiyası üzrə birgə iş inteqrasiya olunmuş və rəqabətqabiliyyətli regional enerji bazarının formalaşması üçün ilkin şərtlər yaradır. Bu cür əməkdaşlıq enerji keçidini və bərpaolunan enerji texnologiyalarının tətbiqini sürətləndirməyə kömək edir".

ICGB-nin icraçı direktoru TICGB-nin hidrogen və aşağı karbonlu məhsullar üçün bazar yaratmaq perspektivi vasitəsilə karbon emissiyalarının azaldılmasına və davamlı enerjinin inkişafını nəzərdən keçirdiyini vurğulayaraq deyib ki, belə bir bazarın yaradılması ənənəvi bazar inkişafı ilə çətin ki, mümkündür və ya ən azı daha çox vaxt tələb edəcək: "Bu prosesdə ötürücü sistem operatorlarının əsas rolunu nəzərə almaq vacibdir – biz həm təbii qaz, hidrogen, həm də aşağı karbon qazları olmaqla, vacib enerji resurslarının ticarətini təmin edirik və dəstəkləyirik. Bu xidmətlərin təmin edilməsi üçün davamlı tələbat yaradılmalıdır, buna görə də hidrogen və aşağı karbonlu məhsullar üçün möhkəm bazarın yaranması ötürücü sistem operatorlarının ona səmərəli şəkildə xidmət göstərməsinə imkan verəcək strateji investisiyaların edilməsi üçün ilkin şərtdir".

T. Georgiyevanın sözlərinə görə, ICGB-nin əsas diqqəti təbii qazın nəqlinin inkişafı və idarə edilməsinə yönəlib. Bu, müxtəlif mənbələrdən təchizata təhlükəsiz və etibarlı çıxışı təmin etmək üçün lazımdır: "Söhbət Bolqarıstan və daha geniş regiona gəldikdə IGB boru kəməri əsas rol oynayır. Avropanın Rusiya təbii qazının istifadəsini məhdudlaşdırmaq öhdəliyini nəzərə alsaq, IGB infrastrukturu Moldova və Ukrayna kimi strateji əhəmiyyətli bazarlara tədarükün təhlükəsizliyinə əhəmiyyətli dərəcədə kömək edə bilər. Uzunmüddətli perspektivdə, bazarın inkişaf dinamikasından asılı olaraq, enerji resurslarının təhlükəsiz və səmərəli hərəkətinə imkan verəcək hidrogenin nəqli üçün infrastruktur yaratmaq mümkün olur".

O, qeyd edib ki, mövcud regional istehsal gücü və təcrübələr nəzərə alınmaqla, ICGB öz şəbəkələrindən istifadə edərək əhəmiyyətli həcmdə biometan gözləmir. Mövcud tənzimləyici bazanın şirkətin biznes strategiyasının əsas elementi olan təbii qaz nəqlinə yönəlmiş uzunmüddətli müqavilələrə əsaslanan ICGB modeli üzrə qaz qarışdırmağa imkan vermədiyini bildirən icraçı direktorun sözlərinə görə, ICGB-nin xidmətləri xammaldan başqa bazar seqmentinə yönəlib: "Buna görə də, biometan, hidrogen və onların qarışıqları kimi ekoloji cəhətdən təmiz qazların şəbəkəmizə inteqrasiyası bu resurslar üçün ixtisaslaşmış bazarın formalaşmasını tələb edəcəkdir. Gələcəkdə belə dəyişikliklərin baş verə biləcəyini bilmək üçün sənaye meyillərini yaxından izləyirik. Bu, bizə işimizi uyğunlaşdırmağa və yeni xidmətlər təqdim etməyə imkan verəcək", – deyə o bildirib.

Potensial metan tullantılarına nəzarətdən danışan T. Georgiyeva vurğulayıb ki, Yunanıstan–Bolqarıstan birləşdirici boru kəməri bütün marşrut boyunca istənilən sızmalara real vaxt rejimində nəzarət etməyə imkan verən "Simone" sistemi ilə təchiz olunub. Bu, ICGB komandalarına istənilən insidentlərə dərhal reaksiya verməyə imkan verir. Bundan əlavə, o, hər bir qaz ölçmə məntəqəsi və klapan qurğusunun mümkün qaz sızmalarını aşkar etmək üçün sistemlə təchiz edildiyini diqqətə çatdırıb.

# Azərbaycan 12 ölkəyə qaz ixrac edir

*Qaz İxrac Edən Ölkələr Forumunun 26-cı Nazirlər İclasında bu barədə məxsusi söhbət açılıb*




**Energetika nazirinin müavini Kamal Abbasov İranın paytaxtı Tehranda keçirilən Qaz İxrac Edən Ölkələr Forumunun 26-cı Nazirlər İclasında iştirak edib.**

Energetika Nazirliyinin məlumatına görə, nazir müavini ölkəmizin zəngin təbii qaz ehtiyatlarına və strateji mövqeyinə əsaslanaraq qlobal enerji bazarında mühüm rol oynadığını, eyni zamanda, Azərbaycan qazının 12 ölkə tərəfindən idxal edildiyini və bunun enerji resurslarımıza artan tələbatın göstəricisi olduğunu diqqətə çatdırıb. K.Abbasov çıxışında Bakıda keçirilmiş COP29 konfransının uğurlarından da ətraflı danışıb.

Konfrans çərçivəsində Qaz İxrac Edən Ölkələr Forumunun təşkil etdiyi panel müzakirələrinə toxunularaq təbii qazın dayanıqlı enerji keçidindəki əhəmiyyəti vurğulanıb. Sonda 27-ci Nazirlər İclasının 2025-ci ilin son rübündə Qətərin paytaxtı Dohada keçirilməsi barədə qərar qəbul edilib.

Xatırladaq ki, 2001-ci ildə qaz ixrac edən 10 ölkənin (Əlcəzair, İran, Qətər, Rusiya Federasiyası, Oman, İndoneziya, Malayziya, Türkmənistan, Bruney və Norveç) iştirak etdiyi Tehran görüşündə Qaz İxrac edən Ölkələr Forumunun yaradılması barədə qərar qəbul olunub. Təşkilat isə 2008-ci ildə hüquqi olaraq Moskva şəhərində təsis edilib.

Təşkilatın mənzil-qərargahı 2009-cu ildən Qətər dövlətinin paytaxtı Doha şəhərində yerləşir. Forumun 12 əsas (Əlcəzair, Boliviya, Misir, Ekvatorial Qvineya, İran, Liviya, Nigeriya, Qətər, Rusiya, Trinidad və Tobaqo, Venesuela və BƏƏ) və 7 müşahidəçi (Qazaxıstan, Hollandiya, Norveç, İraq, Oman, Peru və Azərbaycan) üzvü var.

Foruma üzv ölkələrdə dünyanın qaz ehtiyatlarının 70 faizi, boru kəmərləri ilə ticarətin 35 faizi cəmləşir. Xatırladaq ki, Azərbaycan 2015-ci ildən Forumda müşahidəçi statusunda iştirak edir.

Forumun əsas məqsədi üzv ölkələrin təbii qaz ehtiyatları üzərində suveren hüquqlarının müdafiəsi imkanlarının sərbəst planlaşdırılması, ekoloji nəticələri nəzərə alan davamlı və səmərəli inkişafın təmin edilməsi və qaz ehtiyatlarının xalqların rifahı naminə qorunmasıdır. Bu prosesdə dünya qaz hasilatında müşahidə olunan tendensiyalar tələb və təklifin cari və gözlənilən balansı, qaz sənayesində yeni texnologiyalar, eləcə də digər qlobal problemlərin təhlili forumun fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

# Norveçin "Equinor" şirkəti ölkəmizdə fəaliyyətini yekunlaşdırdı

**Norveçin "Equinor" şirkəti respublikamızdakı və Nigeriyadakı fəaliyyətini müvafiq olaraq noyabrın 29-da və dekabrın 6-da bağlanan müqavilələrlə başa çatdırıb.**




Şirkətin beynəlxalq kəşfiyyat və istehsalat üzrə icraçı vitse-prezidenti Filipp Matye bu müqavilələrin əhəmiyyətini vurğulayaraq qeyd edib: "Bu addımların strategiyamızı həyata keçirməyə, maksimum dəyər əldə etməyə və investisiyaları ən yüksək gəlir gətirən sahələrə yönəltməyə imkan verəcəyinə əminəm".

Şirkət Azərbaycan portfelinə görə 745 milyon dollar, Nigeriyadakı aktivlərinə görə isə ümumi dəyəri 710 milyon dollar olan alqı-satqı müqaviləsi və əlavə şərti ödənişlər daxil olmaqla 1,2 milyard dollar əldə edib. 2024-cü ilin üç rübü ərzində isə Azərbaycandakı və Nigeriyadakı aktivlər müvafiq olaraq gündə orta hesabla 24 min 600 və 18 min 700 barel neft hasilatını gerçəkləşdirib. Şirkət sövdələşmələrin cari ilin dördüncü rübündə nağd pul axınına müsbət təsir edəcəyini və maliyyə göstəricilərini yaxşılaşdıracağını proqnozlaşdırıb.

Xatırladaq ki, 2023-cü il dekabrın 22-də "Equinor" ilə ölkəmizdəki aktivlərinin Azərbaycan Dövlət Neft Şirkətinə satışına dair müqavilə imzalayıb. O cümlədən "Equinor" Dövlət Neft Şirkətinə "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun və Bakı–Tbilisi–Ceyhan boru kəməri neft kəmərinin işlənməsi layihələrində iştirak paylarını və "Qarabağ" yatağının işlənməsi layihəsində 50 faiz payını satıb. "Qarabağ" layihəsində iştirak payının satışı üzrə sövdələşmə bu ilin aprelində başa çatdırılıb.

2024-cü ilin iyulunda Norveç şirkəti SOCAR və "ONGC Videsh Limited" ilə "Azəri–Çıraq–Günəşli" və Bakı–Tbilisi–Ceyhan boru kəmərindəki paylarının satışına dair yekun müqavilə imzalayıb.

# Heyvanların da sığorta tarifləri azaldıldı

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi çərçivəsində heyvanların da sığortası fermerlər üçün daha əlçatan olub. Bugünlərdə Aqrar Sığorta Fondunun İdarə Heyətinin qərarı ilə kənd təsərrüfatı heyvanlarının sığortalanması üzrə tariflər aşağı endirilib.**



Məlum olduğu kimi, Nazirlər Kabinetinin 17 dekabr 2019-cu il tarixli 479 saylı və 22 dekabr 2021-ci il tarixli 398 saylı qərarlarına əsasən, Azərbaycanda aqrar sığorta vasitəsilə iri buynuzlu ətlik və südlük mal-qaranı (inək, camış və danaları), eləcə də xırda-buynuzlu heyvanları (qoyun və keçiləri) sığortalamaq mümkündür. İndiyədək mal-qaranın sığortalanması üçün sığorta tarifləri seçilmiş sığorta zərfindən asılı olaraq heyvanın qiymətinin 5,2-8,2 faizi arasında dəyişirdi. Fondun idarə heyətinin yeni qərarına əsasən isə iribuynuzlu heyvanların sığorta haqqı 5 faiz, xırdabuynuzlu heyvanların sığorta haqqı 10 faiz aşağı salınıb. Nəticədə, iribuynuzlu mal-qara üçün 4,9-7,8 faizə, xırda buynuzlu heyvanlar üçün isə 4,65-7,37 faizə endirilib.

Dəyişikliklər nəticəsində qiyməti 3 min manat olan inəklərin sığorta haqqı 77-123 manatdan 73-117 manata endirilib, qiyməti 5 min manat olan heyvanların sığortası üçün fermerlər əvvəlki 129-205 manat əvəzinə, 122-195 manat ödəyəcəklər. Xırdabuynuzlu heyvanların sığorta haqqı isə daha çox – 10 faiz aşağı salınıb. Belə ki, indiyədək xırdabuynuzlu heyvanların sığortalanması üzrə illik sığorta tarifi 5,2-8,2 faiz arasında dəyişirdisə, hazırda bu rəqəm 4,6-7,4 faizə endirilib.

Nəticədə, indiyədək 300 manatlıq xırdabuynuzlu heyvanın (qoyun və ya keçinin) illik sığorta haqqı fermerə 7,75-12,3 manata başa gəlirdisə, artıq bu rəqəm 6,97-11 manata enib. Qiyməti 500 manat olan qoyun və keçinin sığortası isə əvvəllər fermerlərə 13-20,4 manata başa gəldiyi halda, hazırda bu məbləğ 11,6-18,4 manatadək azaldılıb. Heyvanları daha uzun müddətə – 2-3 illik sığorta etdikdə isə bu məbləğ daha aşağı olur.

Aqrar Sığorta Fondunun məlumatına görə, kənd təsərrüfatı heyvanlarını 11 gündən başlayaraq sığortalamaq mümkündür. Südlük mal-qara 7 yaş, ətlik mal-qara 3 yaş, xırdabuynuzlu heyvanlar isə 5 yaşa qədər sığortalana bilər.

Yeri gəlmişkən, aqrar sığorta vasitəsilə heyvanları yoluxucu xəstəliklər, zəhərli otlar, yemlər və kimyəvi maddələrin təsirindən zəhərlənmə, ilan və ya həşərat sancması, vəhşi heyvanların hücumu, yanğın, təbii fəlakətlər (zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına və dolu), üçüncü şəxslərin hərəkətləri, oğurluq, soyğunçuluq və quldurluq halları nəticəsində dəyən zərərlərdən sığortalayır.

Qeyd edək ki, kənd təsərrüfatı heyvanlarının sığortası aqrar sığortada mühüm yer tutur və bu sığortadan faydalanan fermerlərin sayı artmaqdadır. 2024-cü ilin 10 ayında Aqrar Sığorta Fondu heyvandarlıq təsərrüfatlarına 907 min manat sığorta ödənişi edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 45 faiz çoxdur.

# 103 min yeni nəzarət-kassa aparatı

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən indiyədək ölkə ərazisində 103 min 419 ədəd yeni nəsil nəzarət-kassa aparatları (NKA) quraşdırılıb.**



Dövlət Vergi Xidmətindən bildirilib ki, belə NKA-lardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

Qeyd olunub ki, 2024-cü ilin yanvar-noyabr ayları ərzində yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 19 milyard 800 milyon manat (2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 milyard manatdan, yaxud 11,5 faizdən çox) olub.



## Tomat ixracı 142 milyon dollar gəlir gətirib

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-oktyabr aylarında Azərbaycandan 141 milyon 965 min ABŞ dolları dəyərində 118 min 922 ton tomat ixrac edilib.**

Bildirilir ki, bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 15 milyon 885 min ABŞ dolları (12,6 faiz), həcm baxımından isə 5 min 604 ton (4,9 faiz) çoxdur. Ötən ilin yanvar-oktyabr aylarında isə ölkəmizdən 126 milyon 80 min ABŞ dolları dəyərində 113 min 318 ton tomat ixrac edilmişdi. Cari ilin 10 ayında tomat ixracı ölkəmizin ümumi ixracının 0,62 faizini təşkil edib.

# Xarici borc 18 faiz azalıb



**Maliyyə Nazirliyinin məlumatına görə, ölkəmizin bu il oktyabrın 1-dək olan xarici dövlət borcu 5 milyard 299,1 milyon ABŞ dolları (cari məzənnə ilə 9 milyard 8,5 milyon manat) və ya 2024-cü il üzrə proqnozlaşdırılan 121 milyard 342,5 milyon manat məbləğində Ümumi Daxili Məhsulun (ÜDM) 7,4 faizini təşkil edib.**

Cari ilin ötən dövrü ərzində cəlb edilən vəsaitlər, yerinə yetirilən əsas borc öhdəlikləri, habelə xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla, xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 162,1 milyon ABŞ dolları və ya 18 faiz azalıb. Məlumatda görə, xarici dövlət borcunun 48,5 faizi 5 ilə qədər olan müddətdə, 44,5 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 7 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılıb.

Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramlarının icrasına yönəldilən kreditlər, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilən dövlət qiymətli kağızları üzrə faktiki istifadə olunan vəsait üzrə ödənilməyən qalıq vəsaitdən ibarətdir.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

**Bu ilin yayında istismara verilmiş “Böyükşor” üzən günəş elektrik stansiyası ölkəmizin elektroenergetika sistemi üçün nadir sayılan qurğulardandır. Hazırda stansiyanın istismarda olan 100 kilovat gücündə pilot günəş enerjisi qurğusunun genişləndirilməsi ilə bağlı imkanlar nəzərdən keçirilir.**

# “Böyükşor” üzən GES genişləndiriləcək



Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin bildirdiyinə görə, “Böyükşor” üzən günəş elektrik stansiyası kiçik layihədir və pilot xarakteri daşıyır. Bununla belə, Asiya İnkişaf Bankı maraqlıdır ki, təhlilləri genişləndirsin və gələcəkdə Böyükşor ərazisində böyük bir stansiya inşa edilsin.

Çinin bərpaolunan enerji sahəsində fəaliyyət göstərən bir şirkətindən də həmin ərazidə 100 meqavatlıq layihə ilə bağlı təklif alındığını diqqətə çatdıran direktor hazırda bu məsələnin araşdırıldığını bildirib. Həmin təklifin kifayət qədər maraqlı olduğunu vurğulayan Cavid Abdullayevin sözlərinə görə, qarışıq texnologiyalara əsaslanan bu layihə çərçivəsində Böyükşor ərazisində 100 meqavata yaxın stansiyanın tikilməsi prinsip etibarilə mümkün görünür.

Xatırladaq ki, 100 kilovat gücündə olan “Böyükşor” üzən günəş elektrik stansiyası İspaniyanın “Gamma Solutions” şirkəti tərəfindən Asiya İnkişaf Bankının qrantı hesabına inşa edilib. Stansiyanın panellərinin üç əsas bloku fotovoltaik daimi cərəyan generatorunun günəş enerjisini elektrik enerjisinə çevirmə effektindən istifadə etdiyi günəş batareyası prinsipi əsasında işləyir. Dəyişən cərəyan gücünə malik olan stansiyanın 100 kilovatlıq gücünün 95 kilovatı birbaşa olaraq stansiyanın üzən hissəsinin, 5 kilovatı isə yerüstü hissəsinin payına düşür.

Layihə Asiya İnkişaf Bankının Azərbaycan, Qırğızıstan və Əfqanıstanı əhatə edən “Üzən günəş enerjisi sistemlərinin inkişafı” regional təşəbbüsünə daxildir. Qeyd edək ki, layihənin icraçısı“Gamma Solutions” şirkəti 20-yə yaxın ölkədə fəaliyyət göstərir və portfelinə dünya üzrə 50-dən çox bərpaolunan enerji layihəsi (fotovoltaik və külək elektrik stansiyaları) malikdir.

Yeri gəlmişkən, gələcəkdə Bakının başqa ərazilərində də bu kimi pilot layihələr həyata keçirilə bilər. Hazırda bununla bağlı da müəyyən araşdırmalar, təhlillər aparılır. Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru C. Abdullayev deyib ki, hazırda hökumət paytaxtın digər iqtisadi fəaliyyətə yararsız olan əraziləri bərpaolunan enerji mənbələri üçün istifadə etməyi planlaşdırır: “Bakı şəhərinin inzibati ərazisində həmin formatda bir ərazinin tapılması və istifadə olunması, bizim köhnə layihələrimizlə balanslı formatda işləməsi məqsədəuyğundur. Çünki ölkə ərazisində nə qədər çox günəş və digər bərpaolunan elektrik stansiyaları yaranarsa, daha doğru olar və müəyyən mənada şəbəkəyə olacaq təsirləri də azaltmağa imkan verəcək”.

Bununla belə, Bakı şəhərinin ərazisində elə bir yerin tapılmasının və onun prosesə cəlb olunmasının kifayət qədər problemli məsələ kimi göründüyünü vurğulayan direktorun sözlərinə görə, kiçik güclər olan fəal istehlakçıların dəstəklənməsi prosesi tam sürətlə davam edə bilər: “Yeni fərdi yaşayış evlərinin üzərində tam şəkildə ümumi bir baza var, şirkətlər bu istiqamətdə fəaliyyət göstərirlər. Sevindirici haldır ki, bu nəticələrin sürətlə artmasının şahidi oluruq və ümid edirəm ki, bu proses də davamlı olacaq. Bu baxımdan üzən günəş sistemlərinin tətbiqi kifayət qədər maraqlı yanaşmadır və aktiv istehlakçıların dəstəklənməsi də bu prizmadan maraqlıdır”.

Qeyd edək ki, hazırda Azərbaycanın ümumi enerji balansında (o cümlədən hidroenergetikada) bərpaolunan enerji mənbələrinin payı 15 faiz təşkil edir. 2030-cu ilə qədər isə bu göstəricinin 30-33 faizə çatdırılması planlaşdırılır.

# Xəzərin problemlərinə ortaq diqqət artır



**Ekologiya və Təbii Sərvətlər Nazirliyində Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Rusiya Federasiyasının təbii sərvətlər və ekologiya naziri Aleksandr Kozlovun rəhbərlik etdiyi nümayəndə heyətləri arasında Xəzər dənizinin səviyyəsinin dayazlaşması ilə bağlı görüş keçirilib.**

Görüşdə Xəzərin səviyyəsi, dənizin dayazlaşması tendensiyaları və bu prosesin səbəbləri, ekosistemə, o cümlədən bioloji resurslara təsirlərin qiymətləndirilməsi, ətraf mühitin monitorinqi sahəsində əməkdaşlıq, uyğunlaşma tədbirləri və fəsadların azaldılması yolları müzakirə olunub. Tərəflər dəniz səviyyəsinin dayazlaşması təsirlərini minimuma endirmək və bu prosesin qarşısını almaq üçün operativ və konkret tədbirlərin görülməsinin vacibliyini vurğulayıb, mövcud məlumatların və elmi nəticələrin qarşılıqlı mübadiləsini təmin etmək barədə razılığa gəliblər.

Sonda Xəzər dənizinin dayazlaşması problemi ilə bağlı tədqiqatların aparılması üçün müvafiq nazirlik və qurumların, elmi-tədqiqat institutlarının nümayəndələrindən ibarət yaradılmış işçi qrupun iclasının 2025-ci ildə Rusiya Federasiyasında keçirilməsi barədə razılıq əldə olunub.

Yeri gəlmişkən, işçi qrup tərəfindən Xəzər dənizinin səviyyəsindəki dəyişikliklərin səbəblərinin araşdırılması, qısa və uzunmüddətli proqnozların hazırlanması, genişmiqyaslı monitorinqlərin keçirilməsi üzrə tədbirlər planı hazırlanacaq. Bununla yanaşı, dəniz səviyyəsinin dəyişməsinin sahilyanı ərazilərə təsirlərinin azaldılmasına yönəlmiş konkret addımlar, elmi araşdırmalar və digər uyğunlaşma tədbirləri həyata keçiriləcək.

# Azərbaycan–Avropa əlaqələrində “yaşıl dövr” başlanır

**Buxarestdə imzalanmış “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində tərəfdaşlıq Sazişinə düzəliş Protokolu təsdiqlənib. Məlum olduğu kimi, Prezident İlham Əliyev “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”ə düzəliş Protokolu”nun təsdiq edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən, 2024-cü il sentyabrın 3-də Buxarest şəhərində imzalanmış “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”ə düzəliş Protokolu” təsdiq edilib.

Azərbaycanın Energetika Nazirliyinə Protokol qüvvəyə mindikdən sonra onun müddəalarının həyata keçirilməsinin təmin edilməsi, Xarici İşlər Nazirliyinə isə Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan, Rumıniya və Macarıstan hökumətlərinə bildirişin göndərilməsi tapşırılıb.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması ölkəmizin bu sahədə potensialının reallaşdırılmasını və dünyanın enerji bazarında əhəmiyyətli rolunun daha da yüksəlməsini şərtləndirdi.

Məlum olduğu kimi, bu sazişdə Azərbaycan və Rumıniya arasında “yaşıl” enerjinin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan “yaşıl” enerjinin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib.



Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən “yaşıl” enerjini Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Ümumiyyətlə, ölkəmizin bərpaolunan enerji potensialı əsasında istehsal edilən “yaşıl” sərvətin tezliklə ixracının həyata keçirilməsi, ölkəmizin bu sahədə genişmiqyaslı uğurlu layihələr reallaşdırması Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasından xəbər verir. Bu eranın əvvəlində Azərbaycanın COP29-a evsahibliyi etimadını yüksək səviyyədə doğrultması diqqət çəkir, həm də qarşıya qoyulan vəzifənin–2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılmasının gerçəkləşdiriləcəyi əminliyini ifadə edir.

Qeyd edək ki, “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” yeni dünya düzəninin formalaşdığı bu mərhələdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinin təmin olunması prosesi ilə bağlı zəncirin ən vacib həlqələrindən biridir. Mühüm əhəmiyyətə malik həmin sənəddə adları çəkilən ölkələrin region, eləcə də Avropa dövlətləri ilə münasibətlərində etibarlı tərəfdaş olmalarının daha bir sübutudur.

“Yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında adıçəkilən sazişin imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən, “yaşıl” enerji təchizatçısına çevrilməyi planlaşdırır: “Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq”.

# İqlim maliyyəsi iqtisadi keçidə təminat yaradacaq

**Paris Sazişinin 6-cı maddəsi iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsini nəzərdə tutur. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollar qədər azalacağı gözlənilir.**




COP29 Sədrliyi tərəfləri bu vəsaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edib. Gələn ilin fevral ayında təqdim ediləcəyi planlaşdırılan növbəti nəsil etibarlı və şəffaf karbon bazarlarının yaradılması dünyanın 1,5 dərəcə hədəfinə çatmaqda mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınması kimi məsələləri əhatə edir. Ekspertlərin fikrincə, bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Eyni zamanda, həmin maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsini şərtləndirir.

Deyilənləri yekunlaşdırıb qeyd edə bilərik ki, Paris sazişinin 6-cı maddəsinin tam fəaliyyəti ölkələrin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin həyata keçirilməsi üçün illik xərclərini, təxminən, 250 milyard ABŞ dolları azalda bilər.

Şahzadə Sultan Universitetinin (Səudiyyə Ərəbistanı) Davamlılıq və İqlim Mərkəzinin (CSC) təsisçi direktoru, Oksford Universitetinin Müqəddəs Antoni Kollecinin dəvətli mühazirəçisi, professor Mohammad Nurunnabinin Azərbaycan mediasına verdiyi məlumata əsasən, 2024-cü il mövcud geosiyasi vəziyyəti nəzərə alaraq kifayət qədər çətin olaraq qalır. Lakin Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) ölkələrə əhalini və iqtisadiyyatı iqlim fəlakətlərindən qorumağa, həmçinin təmiz enerjinin üstünlüklərindən istifadəyə kömək edəcək yeni maliyyə hədəfinin razılaşdırılması üçün əhəmiyyətli səylər göstərilib.

Professor planetin gələcəyi naminə hamı üçün vacib olan gündəliyin həyata keçirilməsinə ümid verdiyinə görə COP29 sədrliyinə təşəkkürünü bildirib. M.Nurunnabi xatırladıb ki, COP29-da 2035-ci ilə qədər hər il, ən azı, 300 milyard dollar məbləğində vəsaitin ayrılmasını nəzərdə tutan iqlim dəyişikliyi ilə mübarizəyə dair təklif olunan sazişin yekun versiyası təsdiqlənib, eləcə də Paris Sazişinin emissiya kvotası ticarətini tənzimləyən 6.2 və 6.4-cü maddələrinə xüsusi diqqət yetirilib.

“COP29-da iqlim maliyyələşdirilməsinə dair saziş bütün ölkələrin qarşısına 2025-ci ildə milli səviyyədə müəyyən edilmiş daha səmərəli töhfələr (NDC) təqdim etmək öhdəliyi qoyur. Temperatur artımını 1,5°C hədəfində saxlamaq üçün bu yeni iqlim planları bütün istixana qazlarını və sektorları əhatə etməlidir. COP29-da G20-nin iki ölkəsi – Böyük Britaniya və Braziliya aydın şəkildə bildirdilər ki, onlar NDC3.0 çərçivəsində iqlim fəaliyyətlərini gücləndirməyi planlaşdırırlar, çünki bu, onların iqtisadiyyatı və xalqlarının maraqlarına tam uyğundur”, – deyə o bildirib. Karbon bazarları üzərində işin Bakıda başa çatmadığını xatırladan universitet rəhbərinin sözlərinə görə, tərəflər yeni karbon kredit mexanizmini yaradan müşahidə orqanına 2025-ci il üçün uzun tapşırıqlar siyahısı təqdim ediblər və bu orqan əvvəlki kimi onlara hesabat verəcək.

# “Yaşıl” taksonomiyaya daha çox kredit yönəldiləcək

**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, ölkəmizin bank sektoru iqlim dəyişikliyi ilə bağlı öhdəliklər çərçivəsində “yaşıl taksonomiya”da qeyd edilən fəaliyyət sahələrinin maliyyələşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyub.**




Bildirilib ki, bu çərçivədə təqdim olunan kreditlər “yaşıl” layihələrin tam və ya qismən maliyyələşdirilməsi, o cümlədən yenidən maliyyələşdirilməsi məqsədini daşıyır. “Yaşıl” layihələr dedikdə isə, AMB-nin İdarə Heyətinin 2024-cü il 7 noyabr tarixli qərarı ilə təsdiqlənən və “yaşıl” taksonomiyada qeyd edilən meyarlara uyğun olan layihələr nəzərdə tutulur.

AMB əlavə edib ki, “yaşıl” kreditlərin digər kreditlərdən əsas fərqi onların yalnız “yaşıl taksonomiya”da göstərilmiş fəaliyyət sahələri və meyarlara uyğun layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmasıdır.

“Yaşıl” taksonomiya” üzrə maliyyələşdiriləcək sektorlar arasında bərpaolunan enerji, enerji səmərəliliyi, su resurslarının dayanıqlı idarə edilməsi, çirklənmənin qarşısının alınması və ona nəzarət, dayanıqlı kənd təsərrüfatı, biomüxtəliflik, tullantıların idarə edilməsi, “yaşıl” binalar və dayanıqlı inşaat da var.

AMB-nin sədri Taleh Kazımov “Dünyada dayanıqlı maliyyələşdirmənin təşviqi: dayanıqlı maliyyələşdirmə taksonomiyalarının uyğunluğu və müqayisəliliyi üzrə Yol Xəritəsi” mövzusunda keçirilən konfransda bildirib ki, Azərbaycanda müxtəlif dövlət qurumlarının, maliyyə sənayesi assosiasiyalarının və beynəlxalq maliyyə təşkilatlarının fəal iştirakı ilə “yaşıl” taksonomiya qəbul edilib. Bu təşəbbüs iqlim maliyyələşdirilməsini genişləndirmək üçün böyük imkanlar açacaq, kapitalı səmərəli şəkildə səfərbər edəcək və “yaşıl” iqtisadiyyata keçidi sürətləndirəcək.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Şəhid heykəltəraş



**Onun sənətdə ilk “iş”i yeniyetmə vaxtlarında məzə üçün cizgi filmi personajı Mikki Mausun plastilindən düzəltdiyi fiquru olub. Atası Ziyəddin müəllim baxıb təəccüblənib və yenidən düzəltsin deyə, fiquru əzib. Samir də tezliklə, necə deyərlər, eynisini yapıb. Ondan sonra atası istedadına inanıb.**



Tələbə qəbulu vaxtı Şamaxının Çuxuryurd kəndindən Bakıya gələrək Rəssamlıq Akademiyasına imtahan verib və uğur qazanıb. Tələbəlik həyatı əsasən tədris emalatxanası şəraitində keçib. Oxuduğu müddətdə 30-dan çox heykəltəraşlıq nümunəsi hazırlayıb – çoxu da bürüncdən, bir sərgilik işi olub. Bakalavriaturadan sonra magistraturaya daxil olub. Ardınca hərbi xidmətə yollanıb.

Əsgərlikdən məzuniyyətə gələndə evdəkilər Samirin üzünü az görüblər. Çünki akademiyanın emalatxanasında yarımçıq qalmış bir işini tamamlamaqla məşğul olub. Qəribədir ki, yenidən hərbi hissəyə dönmək üçün valideynləri ilə vidalaşanda rus şairi Aleksandr Koçetkovun “Taleyin istehzası və ya həmişə təmizlikdə” filmində səsləndirilən bu misralarını söyləyib: “Hər dəfə ömürlük vidalaşın, ayrılıq bir an olsa da”. Anası Əminə xanım əsəbləşib, o isə gülə-gülə: “Sadəcə, gözəl sözlərdir” – deyib.

Doğrudan da, taleyin istehzası baş verib: bir neçə gün sonra məlum Aprel döyüşləri başlanıb və Samir şəhid olaraq həyatla həmişəlik vidalaşıb. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilib.

Xalq Bankın “Xalq Əmanəti” mədəniyyət layihəsi üzrə “Heykəltəraşlıq” bədii albomunun bir nəşrini Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş nakam sənətkar Samir Kaçayevin həyat və yaradıcılığına həsr edib. Bədii nəşrə gənc sənətkarın 50-dən artıq heykəltəraşlıq və qrafika nümunəsi, rəsm və eskizləri, fotoları və yarımçıq işləri daxil edilib. Albomdan görünür ki, Samir yaşadığı qısa ömür ərzində böyük işlər görməyə müvəffəq olub: o, yaratdığı əsərləri ilə, sənətə baxışı, insanlara münasibəti, Vətənə sevgisi ilə diqqət çəkib. Onu da deyək ki, Xalq Bankın əsas binasında və onun Şamaxı filialında əsərlərinin sərgisi keçirilib. Sərgi ilə tanış olanlar onun necə böyük və nadir istedad sahibi olduğunu görüblər.

O zaman təqdimat mərasimində akademik Rafael Hüseynov deyib: “Bu sərgi və albomun təqdimatı Samir Kaçayevin ruhunun və istedadının möhtəşəm bayramıdır. Nə yazıq ki, bu mərasim onun özünün iştirakı olmadan keçirilir və bu da tədbirin bayramsayağı ovqatına təbii bir hüzn və kədər çaları gətirir... istedadının cilalanmasında, zövqünün formalaşmasında, heykəltəraş kimi yetişməsində onun düşdüyü qaynar yaradıcı mühitin, ustad sənətkarların çalışdığı Rəssamlıq Akademiyasının müstəsna rolu olduğunu qeyd etdi: “Təsadüfi deyildi ki, Samirin diplom işi dünyanın dahi heykəltəraşlarından olan Ogüst Rodenə həsr edilib və bu əsər monumentallığı, dərin mənası, yüksək plastikası ilə seçilir. Heç şübhəsiz, Azərbaycanın xaricdəki nümayəndələri bu albomu olduqları ölkələrdə dönə-dönə nümayiş etdirəcəklər. Qoy, bütün dünya görsün və bilsin ki, erməni təcavüzkarlar parlaq, orijinal bir istedada hələ həyatının baharında ikən amansızcasına qəsd ediblər”.

***XQ***

# Ruhu Laçına qovuşdu...



**Şəhid olmasaydı, çox müşahidəsini bədii dillə qələmə alacaqdı. İstedadlı bir yazarı da artacaqdı Azərbaycanın. O isə şəhid taleyi yaşadı.**

Ordumuzun baş giziri Mehman Musa oğlu Yusifov (18 iyul 1979 – 5 oktyabr 2020) ədəbiyyatımızın, tariximizin gözəl bilicisi idi. Aprel döyüşlərindən sonra bu hekayəni qələmə alaraq hərbçi dostunun son anlarını təsvir edib. Özü Aprel döyüşlərindən salamat çıxsa da, 4 il sonra, Vətən müharibəsində – Cəbrayıl uğrunda döyüşlərdə şəhid olub. Tovuz rayonunda, doğma Bayramlı kəndində dəfn edilib. Ölümündən sonra “Qarabağ” ordeni, “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib. Hekayəsini qısa ixtisarla təqdim edirik.

**“Azadlığa az qalmış...”**

Aprelin 1-i gecə təzəcə yuxuya getmişdim ki, telefonun zənginə oyanıb cavab verdim:

– Bəli.

– Axşamın xeyir. Bir saatdan sonra “toy” var, gecikmə. Uşaqlara da xəbər elə.

“Toy” əməliyyatın məxfi adı idi. Tez yerimdən sıçradım. Saata baxdım. 2-yə 25 dəqiqə qalırdı. Tələsə-tələsə hərbi formamı geyindim. Qapını açıb çıxanda həyat yoldaşım Leylanın səsini eşitdim:

– Özünü qoru.

Geri dönüb gülümsədim. “Narahat olma” – deyib qapıdan çıxdım. Yol boyu tez-tez şəxsi heyətin uşaqlarının nömrəsini yığıb, hamısına “toy” olacağını dedim.

Bir saat sonra artıq hamımız hərbi hissədə idik. Tam hazır olduqdan sonra hərəkət əmrini aldıq. Hamımızın ürəyindən bir arzu keçirdi, sönmək bilməyən, yandıqca yanan və bizə əzab verən bir arzu. “Görəsən, bu dəfə bacaracağıqmı? 24 ildən sonra Qarabağı azadlıqda görə biləcəyikmi?”.

Döyüşlər bir neçə gün davam etdi. Bizim xüsusi təyinatlı dəstəmiz qəfil ən qızğın nöqtələrdə peyda olur, vəziyyəti bizim xeyrimizə dəyişməyə var gücü ilə səy göstərirdi. Lələtəpə, Ordudağı kimi zirvələri alırdıq. Döyüş yoldaşım və ən yaxın dostum Fariz hər dəfə yeni günə, yeni döyüşə başlayanda mənə deyirdi:

– Bax, görərsən, bu dəfə Laçının azad olunduğunu təkcə yuxumda görməyəcəyəm. Bu dəfə... bax bu dəfə... bacaracağıq, deyirdi.

Fariz laçınlı idi. İşğal vaxtı 10 yaşı varmış. Ata-anası həmin vaxt ermənilər tərəfindən öldürülüb, əmisi kiçik bacısı ilə onları oradan çıxarmağa macal tapıbmış.

Biz çox yaxşı irəliləyirdik... Amma bir neçə saatın içində bütün vəziyyət dəyişdi. Mühasirəyə düşdük, kömək isə gec gəldi. Silah-sursatımız tükənmək üzrə idi. Fariz heç sakitləşə bilmirdi. Birdən atəş səsləri gücləndi, hay-küy artdı. Ermənilər hərbi sursatımızın azaldığını bilmişdilər. Dayanmadan güllə yağdırırdılar. Dalbadal bir neçə dəfə qumbara atıldı. Artıq 12 şəhidimiz vardı. Bu çatışmanın içində Farizin qəzəblə ciblərinə 3-4 əl qumbarası qoyduğunu gördüm. Həmin an düz mənim yanıma bir qumbara atıldı. Yerə uzanmağa macal tapsam da, sifətim, sağ qolum tamam qan içində idi. Sürünə-sürünə kənara çəkildim. Uşaqlardan birinin qaça-qaça mənə tərəf gəldiyini qandan bulanıqlaşan gözlərimlə güclə sezə bilirdim.

Ermənilər atəşə bir az ara vermişdilər, daha bayaqkı kimi aramsız güllə yağdırmırdılar. Birdən Fariz yadıma düşdü. Ətrafa baxdım, yox idi. Hər yerdə güllə gilizləri, qəlpələr, yaralanmış, şəhid olmuş döyüş yoldaşlarım... Leytenant Musayev sürətlə mənə yaxınlaşaraq:

– Kapitan Məmmədli (bu Farizin soyadı idi) ağır yaralıdır.

Bu sözü eşidəndə elə bil başıma bir güllə vurdular. Hər şeyi tamam unutdum. Var gücümlə qışqıra-qışqıra: “Tez məni ora apar” – dedim.

Yanına çatanda Farizi qan içində gördüm. Dizlərimi yerə qoyub, onu qucaqladım. Səsim titrəyə-titrəyə: “Hər şey yaxşıdır, narahat olma” – deyə bildim. O, gülümsəməyə çalışaraq mənə baxdı:

– Bəsdir, yenə baytarlığa başlama... (O, mənimlə həmişə belə zarafat edirdi). Səsi xırıldaya-xırıldaya bunu deyə bildi:

– Gör, nə de..deyii..rəm.

– Sən danışma, danışma, bircə çalış, yatma...

– Tez tibbi ləvazimat çantasını gətirin, teeezzz! – deyə qışqırıb uşaqları köməyə çağırdım. Farizin yenə xırıltılı səsi gəldi:

– Sözümü kəsmə. Bilirəm, mən öləcəyəm. Laçının azad olunduğunu görməyəcəyəm, amma bilirəm ki, bu dəfə olacaq. Söz ver ki, bunu gəlib məzarımın üstündə mənə deyəcəksən. Mən eşidəcəyəm, eşidəcə...

Farizin xırıltılı səsi kəsildi... Sözləri qanlı dodaqlarında yarımçıq qaldı. Mən taqətdən düşdüm. Farizin başı qana bulaşmış torpağa əyildi. Ürəyimdən acı bir fəryad qopdu...

Fariz Şəhidlər Xiyabanında dəfn olunub. Artıq 3 il keçib... Tez-tez onu ziyarətə gedirəm, amma qara daşın üstünə həkk olunmuş gözlərinə baxa bilmirəm. Hər dəfə onu ziyarətə gedəndə əzablar içərisində fikirləşirəm: “Görəsən nə vaxt, axı nə vaxt buraya gələndə “Laçın azadlıqdadır, Fariz” – deyə biləcəyəm?”

**P.S: Həmin hadisədən daha 1 il sonra Laçın da, külli Qarabağ da azadlığına qovuşdu. Bu Zəfər yürüşündə yazıçılıq istedadı olan Mehman Yusifov da şəhid oldu.**

# Uçan mərmilərin “qələbə melodiyası”

**Gənc olsa da, Elvin Nəbiyevin adı caz həvəskarlarına yaxşı tanışdır. Azərbaycanın aparıcı musiqiçiləri ilə çalışmaları, önəmli tədbirlərdə iştirakı ilə populyarlıq qazanıb. Amma çoxları bilmir ki, o, müharibə zamanı ölümcül mərmilərin vahiməli sədaları altında olub.**



İkinci Qarabağ müharibəsi artilleriya heyətinin sürücüsü olan Elvinin həyat yolunun ayrılmaz hissəsi olub.

– Əslən Goranboyun Todan kəndindənəm, – deyə o bildirir. – Beş yaşıma qədər Moskvada yaşamışam, sonra ailəmiz Gəncəyə köçüb. 2010-cu ildən – 9 yaşımdan musiqi ilə məşğulam. O zaman valideynlərimə dedim ki, tar çalmaq istəyirəm. Onlar bu sahədən uzaq olduqları üçün dərhal razılıq vermədilər. Ata-anamı inandıra bildim və musiqi məktəbinə getdim. Sonra Gəncə Musiqi Kollecində oxudum. Artıq 4-cü kursdan konservatoriyaya hazırlaşırdım. Amma qarşıda hələ hərbi xidmətim vardı. Bu da həm pandemiyaya, həm də İkinci Qarabağ savaşına təsadüf elədi.

İyul ayında əsgər paltarı geyinən Elvin sentyabrın 27-də atasından xahiş edib ki, onun tarını gətirsin. Kim bilirdi ki, 1-2 saata döyüşlər başlayacaq və əsgərlər həyəcan siqnalı ilə ayağa qalxacaqlar?!

Tardan əvvəl müharibənin mərmi “melodiya”ları səsləndi. Hərbi sürücü Elvin Füzuli istiqamətində təkcə maşın sürmür, döyüşçülər üçün sursat daşıyır, yeri gələndə kimisə əvəz edirdi. Beləcə, uçan mərmilərin “döyüş marşları” ona da ayıq-sayıqlıq dərsləri keçdi.

– 44 gün azdırmı, çoxdurmu, bilmərəm. Təqvimlə bu, ay yarımdır, yaşananlara görə isə həyatın mühüm bir hissəsi!– deyə o davam edir. – Həmin günlər məndə bir çox həyati dəyərlərə tamam başqa cür yanaşma formalaşdırdı. Bu, ömürlükdür. Füzuli, Cəbrayıl, Beyləqan, Haramı düzü, Hadrut... Sanki bir labirint idi. Xocavənd son döyüş nöqtəm oldu. Əsgəri dostluq, arzular, ümidlər, haqqın qalib gələcəyinə inam gözəl duyğulardır. Biz doğma torpaq uğrunda hay-küylü ibarələrlə deyil, gündəlik döyüş həyatı ilə mübarizə apardıq.

Nəhayət, işğalçılara vurulan güclü zərbə Azərbaycan xalqının milli iradəsinin və ləyaqətinin təntənəsini təcəssüm etdirən “Dəmir yumruq” epopeyasının bir hissəsi oldu. Zəfərdən sonra Elvin hərbi xidmətinin qalan aylarını da Qarabağda keçirib. Dediyinə görə, codlaşmış barmaqları uzun müddət simli alətə yata bilməyib. Necəsə, əlinə bir gitara keçib və Elvin komandirinin təkidi ilə onu dilləndirib. Sakit anlarda inadla məşq edib. Davanın sonunda dostları üçün özəl konsert verib.

Elvin o zaman hərbi sənətə də həvəsli olub, hətta 2 ay xüsusi təyinatlıların hazırlıq kursunda da olub. Amma görüb ki, yox, musiqisiz qala bilməz. Buna görə də tərxis olunub və sonra dostunun məsləhəti ilə bas-gitaraya meyil salıb, görüb ki, onunku elə budur. Bu seçimdə caza, eləcə də pop musiqisinə marağı da az rol oynamayıb.



Xalq musiqisindən uzaqlaşmayıb, əksinə, bas-gitaranı da, tarı da, necə deyərlər, eyni gözdə tutub. Vaqif Mustafazadə, Rafiq Babayev kimi korifeylərin nümunəsi ilə milli musiqimizi öz variasiyaları ilə sintez etməyə başlayıb.

Gənc gitaraçı 2-ci kursdan beynəlxalq müsabiqələr laureatı, Azərbaycan Milli Konservatoriyası elmi şurasının üzvü, Əməkdar artist Emil Əfrasiyabın komandasında çalışmağa başlayıb. Artıq o, aparıcı musiqiçilərlə eyni səhnəni bölüşür. Etno-caz onun həyatına biryolluq daxil olub. Bu ilin yazında Novruz bayramını Strasburqda konsert proqramı ilə qeyd ediblər. Zəfər bayramında da gözəl çıxışı ilə yadda qalıb.

# Yarımçıq qalmış rəsmlərin nağılı

**İllərlə gözlənilən Zəfər yürüşlü müharibə başlandı. O, hələ Polad Həşimov şəhid olan gündən hərbi komissarlığa gedib könüllü döyüşə yazılmışdı. Evdə heç kimin xəbəri yox idi. Bir də eşitdilər ki, cəbhədədir.**



Rauf İbadov axırıncı dəfə atasına zəng edəndə kəşfiyyatda manqa komandiri qoyulduğunu demişdi, Məhərrəm müəllim fərəhlənirdi igid balası ilə...

Hər gün cəbhədən qələbə sorağı gəlirdi, amma itkilər də var idi. Oktyabrın 23-də atası dönə-dönə zəng etsə də, Raufun telefonuna zəng çatmayıb. Böyük nigarançılıq yaşayıb ailə. Tam 5 gün idi ki, Raufdan heç bir səs-soraq yox idi.

Oktyabrın 29-da səhər tezdən Məhərrəm müəllimə gələn zəng hər şeyi alt-üst elədi: “Xahiş edirik, komissarlığa gəlin! Rauf şəhid olub”. Laçın dəhlizi uğrunda gedən döyüşlərdən sağ çıxmamışdı. Mühasirəyə düşdükləri zaman üzbəüz atışma zamanı əlbəyaxa döyüşlə bir neçə düşməni məhv etmiş və qəhrəmancasına şəhid olmuşdu. Cəsədi bir neçə gün neytral ərazidə qalmış və atəşkəs elan olunduqdan sonra oradan çıxarılmışdı.

O, cəbhəyə getməyə də bilərdi. Rəssam idi, rənglər dünyası var idi. Evlərində rəsm muzeyi qalır. Özü isə artıq mələklərin qanadında uçub gedib. Bu günlərdə həmin muzeyi ziyarət etmiş gənc həmkarım Cəmilə Babayevanın şəhid rəssamın portretinə üz tutaraq dedikləri:

– Fikrim sənin rəsmlərində qalıb. Sözlərin yadıma düşür: “Gözlərimi gözləyənin gözlərini gözlərimlə gözləyəcəm”. O pünhan sevgini axtarıram. Atana demişdin ki, qoy, qələbə çalaq – Şuşada, Cıdır düzünün böyük bir tablosunu yaradacam. Heyf ki, mümkün olmadı.

Bu yay Şuşada oldum. Daha çox can atdığım Cıdır düzü idi. Oralar başdan-başa çəmən gülləri ilə döşənmişdi. Möhkəmcə kövrəldim. Bəlkə də səbəb o düzdə gəzən şəhid ruhları idi. Sıldırım, sal qayalar, çəməndə xəfif mehdən yellənən güllərə baxıb, səni xatırladım, Rauf. Sənin arzunu, çəkmək istədiyin tablonu. Əllərimi toxundurdum xınalı qayalara, sənin rənglərin çalar-çalar canlandı xəyalımda. Yarımçıq qalan ömrünə, arzularına, yarımçıq qalan sevginə, yarımçıq qalan tablona təəssüf elədim...

Ən axırıncı zəngini sevdiyi qıza edib (belə deyirlər). Pıçıltı ilə söyləyib etiraf sözünü. Sonra birdən gurultu qopub və ara kəsilib. Bu başdan hayqıran bir səs ucalıb: Raufff!..

Hərdən fikirləşirəm ki, bəlkə də biz o qızla küçədə rastlaşırıq. Qəlbi Rauf həsrətlisi olan biridir, hər payız gələndə onun soyuq, sazaq, yağışlı-yağmurlu günləri başlayır. Nə etsin biçarə?.. Rauf, sənin bu dünyada bir insanın qəlbində sevgin məzara dönüb. Anan Zərnigar xanımdan sevdiyin qızı axtarıb tapmasını xahiş etdim. Gözləri doldu. Rauf yoxsa, dəyərmi, söylədi...

Rəsmlərinin arasında boynubükük bir tablo da var: sanki, üz çevirib getmək istəyən birisi... Bəlkə, heç özü də bilmədən öz taleyini ağ kətana hopdurub...

Şəhid rəssam Rauf İbadov ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Füzulinin azad olunmasina görə” medalları ilə təltif olunub. Abşeron rayonu, Saray qəsəbəsindəki Şəhidlər xiyabanında uyuyur.

***Səhifəni hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

# Suriya və Cənubi Qafqaz – Zəngəzur dəhlizi perspektivi

(əvvəli 1-ci səhifədə)

Yazımızda onlardan bəhs edəcək, Suriyadakı olayların Cənubi Qafqaz siyasi platformasına təsiri və qüvvələr balansı ilə bağlı fikirlərimizi bölüşəcəyik.

Əlbəttə, haylar üçün güc ritorikası hər zaman aktual olub. Onlar siyasi məsələlər üzərinə köklənə bilmir, düşüncə qısırlığı yaşayırlar. Ağıllarına gələn yalnız budur ki, ya kimsə onları məhv etməlidir, ya da onlar kiminsə axırına çıxmalıdırlar. Ona görə ortaya məsuliyyətsiz fikirlər atırlar.

Erməni siyasi baxış tərzində Azərbaycan və İran əməkdaşlığı, ölkələrin ortaq mənafeləri, tarixi yaxınlıq bağları anlayışı yoxdur. Məsələn, haylar nəzərə almırlar ki, hazırda onların Cənubi Qafqazda Qərbi möhkəmləndirmək cəhdləri həm də Tehranın maraqlarına ziddir. Çünki Qərb İrana nifrətlə yanaşır və çalışır ki, onu parçalasın. Hər zaman da belə olub.

Bəli, İslam respublikasının rəsmiləri Qərbi regionda möhkəmləndirmək istəyən Ermənistanın ipi ilə quyuya girmək istəməzlər. Yəni, heç bir halda, rəsmi İrəvanın Qərbin İranın mənafeyinə ziyan gətirməyəcəyinə dair təminatı Tehrana kifayət edə bilməz. Axı İslam respublikasında Qərbin İrəvana yalnız forpost kimi yanaşdığını gözəl bilirlər. Forpost isə koloniyadır, heç bir hüququ, indiki halda söz demək ixtiyarı yoxdur.

Məsələyə digər aspektdən yanaşaq. İran Ermənistan üçün vacib olsa da, hətta müəyyən vaxtlar Tehran rəsmiləri tərəfindən Hayastanın ərazi bütövlüyünün və suverenliyinin İslam respublikasının maraq və mənafeləri nöqteyi-nəzərdən prioritet əhəmiyyət daşıdığı bildirilsə də, aydındır ki, erməni iqtidarının təmsilçiləri İran üzərinə heç vaxt siyasi sərmayə yatırmayıblar. Rəsmi İrəvanın, belə demək mümkünsə, güvəndiyi dağlar başqa olub. Baş nazir Nikol Paşinyan administrasiyası hər zaman Qərbə, onun patronajlığına arxalanıb. Elə buna görə də Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bildirib ki, İran Ermənistanın köməyinə gəlməyəcək, gəlmək istəsə belə, N.Paşinyan buna imkan verməyəcək.

Baqratyan diqqətə çatdırdığımız fikirlərini Zəngəzur dəhlizi kontekstində səsləndirib. Onun başqa nələrdən söz açdığı bir o qədər maraqlı olmasa da, bir məqamı vurğulamaq lazımdır ki, Paşinyan üçün hazırda Qərbə arxalanmaqdan başqa yol yoxdur. Çünki o, əvvəldən siyasətini mütilik və əmrləri sorğulamadan yerinə yetirmək üzərində qurub və bu xətt xeyli dərinləşərək, geri dönüşü olmayan müstəviyə qədəm qoyub. Nikol istəsə də, əsas siyasi vektorda hansısa dəyişiklik apara bilməyəcək. Nəzərə alaq ki, dəyişiklik, böyük ölçüdə, yenidən Rusiyanın orbitinə qayıtmaqdır. Erməni iqtidarı ötən dörd ildə ortaq xətt tutub, müstəqil siyasət yürütmədi, özü ilə bağlı regional anlamda heç bir təminat formalaşdırmadı, inam aşılamadı, səmimi davranmadı. Halbuki, şansı var idi...




Mövcud durumda, istər-istəməz, Moskvanın Paşinyana etimadı məsələsi də meydana çıxacaq. Bu yerdə Rusiyanın müxtəlif dairələrinin Ermənistanı yenidən ölkənin orbitinə qaytarmaq yönümlü bəyanatlar səsləndirdiklərini də yada salaq. Ancaq məlumdur ki, bu bəyanatların təsir gücü əvvəlki illərdəkindən qat-qat aşağıdır. İrəvan Moskva ilə yollarını birləşdirmək şansının verəcəyi potensial dividendləri xərcləyib və Ermənistanın Rusiyaya son anda ağız açması çox az şeyi dəyişdirəcək. Eynilə 44 günlük müharibədən sonra olduğu kimi...

Bir çox siyasi ekspertlər Suriyada yaşananları Türkiyənin Rusiya ilə mənafe davasında qalib ayrılması kimi qiymətləndirirlər. Ankaranın Tehranın maraqlarına zərbə vurduğuna dair fikirlər də səslənməkdədir. Amma yaxın keçmişin olayları sübut edir ki, bu ölkələr ayrı-ayrı istiqamətlər üzrə toqquşsalar da, cəbhələri bir-birinə qatmırlar. Fikrimizcə, İran da, Rusiya da, Türkiyə də Cənubi Qafqazı Qərbə təhvil verməməyi həyat məsələsi kimi dəyərləndirir. Bu məntiqlə yanaşsaq, hazırda Ankaranın Suriyada təşəbbüsü ələ alması hələ o demək deyil ki, mövcud istiqamətdə Qərbin maraqları tam şəkildə təmin olundu.

Bəli, Qərb Suriyanın strateji əhəmiyyətinin gətirəcəyi dividendlər məsələsində Rusiya və İrandan fərqli olaraq, Türkiyə ilə daha səmərəli əməkdaşlıq qura bilər, bu, öz yerində. Cənubi Qafqaz müstəvisi isə başqadır. Burada Moskvanı Ukraynadakı kimi heçə saymaq mümkünsüzdür. O cümlədən, İranı da. Yəni, regionda Ankara –Tehran – Moskva oxu var və bu trayektoriya üzrə Bakı ortaq maraqları birləşdirən qütbdürsə, İrəvan ayırıcıdır. Çünki birbaşa Qərbin maraqları baxımından çıxış edir.

Deməli, baş nazir N.Paşinyan administrasiyasının Qərbə arxalanaraq, hansısa qeyri-ordinar hərəkətlərə baş vurması son dərəcə təhlükəlidir. Bu, onu deməyə əsas verir ki, Ermənistan hakimiyyəti, tez bir zamanda, Bakı ilə səmimi danışıqlar müstəvisinə qədəm qoymalıdır. Paşinyan çox tez-tez "Real Ermənistan" formulundan söz açır. Həmin formula əsasən, Ermənistan qonşularına qarşı heç bir ərazi iddiası irəli sürmür, öz sərhədləri daxilində sakit və firavan həyata üstünlük verir. Bu, nə dərəcədə yetərlidir? Qərb sakitliyə, Ermənistanın yalnız özünü düşünərək, yaşamasına razıdırmı? Xeyr! Axı 2018-ci ildə Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş inqilab ermənilərin sözdə bildirildiyi kimi, demokratik şəraitdə yaşamalarının təmin olunması üçün gerçəkləşməmişdi. Ermənilər üzərinə yerinə yetirilməsi vacib missiya qoyulmuşdu – Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq.

Hazırda Ermənistan, obrazlı ifadə etsək, müharibə şəraitində düşmənə məxsus uzaq bir məntəqəyə göndərilmiş desant dəstəsi kimidir. Sözügedən dəstək inqilab nəticəsində Cənubi Qafqaza atılıb. Ona kömək lazımdır ki, özünü qorusun. Söhbət çox böyük köməkdən gedir. Bəs Qərb "demokratiya desantlarına" hansısa yardım göstərirmi? Yox! Onlar taleyin ümidinə buraxılmış durumdadırlar. Üstəlik, Qərbdən verilən yeni direktivlərə əməl etmək kimi öhdəlikləri var. Axı müstəqil düşüncə tərzindən uzaqdırlar.

Bəli, dünyadakı bəzi dairələr Ermənistanın sakit həyat sürməsinə razı deyillər ki, rəsmi İrəvan illərdir Bakı ilə sülhdən yayınır. Digər tərəfdən, Paşinyanın haqqında söz açdığı "Real Ermənistan" mahiyyətcə iddiası olmayan bir ölkə deməkdir. İddiasız və yalnız regional maraqların icrası nəticəsində öz mənfəətini götürən ölkə. O, daha çoxunu istəyə bilməz. Paşinyan mövcud ərazi ilə kifayətləndiyini açıqladığı kimi, ölkəsinin payına düşənlə də qane olmalıdır.

Ermənistan "Dünyanın kəsişməsi"ndə yer almamalıdır. Yəni, ölkə "Dünyanın kəsişməsi" təşəbbüsü olaraq adlandırılan avantüradan uzaq durmalı, regional kommunikasiyaların açılmasına maneçilik törətməməlidir. Daha dəqiq desək, Azərbaycanın şərtlərini qəbul etməli, Naxçıvana maneəsiz – gömrük və sərhəd nəzarətindən uzaq yolu verməlidir. Nəzərə almalıdır ki, illərlə həyata keçirdiyi işğalçılıq siyasətinə görə indi ona təklif edilənlər heç təklif edilməyə də bilərdi.

Ermənistan Naxçıvana yola razılıq vermir, özünün ərazi bütövlüyü və suverenliyi klişesi ilə manipulyasiya yolu tutur. Ən pisi isə odur ki, Qərb sözügedən yolun İrandan deyil, Ermənistandan, haqqında söz açdığımız klişenin şərtləri çərçivəsində açılmasına israrla yanaşır. Görünür, Ermənistan məhz buna görə silahlandırılır. Silahlandırılır ki, Zəngəzur dəhlizinin açılmasını süngü ilə qarşılasın, regionda qeyri-stabillik formalaşdırsın, beləliklə, əməkdaşlıq mühitinə, təhlükəsizliyə zərbə vurulsun.

Halbuki, rəsmi İrəvan yalnız öz maraqlarını güdsəydi, 40 kilometrlik ərazinin hüquqi baxımdan Ermənistana məxsusluğunu şübhələndirməyəcək variant da tapmaq mümkün idi. Azərbaycanın, Ermənistanın və Rusiyanın baş nazirlərinin müavinlərindən ibarət işçi qrupu bu istiqamətdə nəzərəçarpacaq irəliləyiş də əldə etmişdi. Lakin son anda erməni tərəfi danışqlardan imtina yolu tutdu. Deməli, prosesin məntiqi sonluğa çatmasına Qərb imkan vermədi.

Bəli, bütün bunlara görə Ermənistan Suriyada Türkiyənin üstünlüyə yiyələnməsi ilə nəticələnmiş proseslərdən ciddi nəticə çıxarmalıdır. Nəzərə almalıdır ki, Zəngəzur dəhlizi Ankara üçün son dərəcə vacibdir. İndiki durumda bu dəhliz Rusiya üçün də maraqlıdır, İrana da. İkincilərə daha çox. Çünki Suriya cəbhəsində itirilmiş kimi görünənlər Cənubi Qafqazın gətirəcəyi dividendlər fonunda kompensasiya olunmalıdır, özü də tez bir zamanda. Deməli, Bakıdan Naxçıvana gedəcək qatarın çarxına çomaq soxmaq Ermənistana çox baha başa gələ bilər. O qədər baha ki, heç vaxt olmayan Ermənistanın vəlvədən, yaxud zəlzələdən ortaya çıxmış mövcudluğu aradan qalxar. Yaxşı olar ki, N.Paşinyan "Real Ermənistan"dan danışanda, ilk növbədə, məhz bunu nəzərə alsın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni cəmiyyəti sülhdə maraqlıdırmı?

(əvvəli 1-ci səhifədə)

Ancaq aradan illər ötdükcə, "Dəmir yumruğ"un zərbəsinin təsirindən ayıldıqca ermənilər arasında radikal əhval-ruhiyyəli şəxslərin sayının artdığını, sıralarının genişləndiyini müşahidə etmək mümkündür. Hər bir ölkədə olduğu kimi, Ermənistanda da cəmiyyətin "güzgüsü" olan media resurslarına nəzər yetirdikdə, ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslərin verdikləri açıqlamalara, müsahibələrə baxdıqda, bu qənaətə gəlmək olur. Onlar erməniləri təşkilatlanmağa, hakimiyyəti ordunu gücləndirməyə, militarizasiyanı daha da sürətləndirməyə çağırırlar. Məsələn, Hayastanın ciddi media qurumu olan "ArmenianReport" saytında yerləşdirilmiş "Sülh olmayacaq, ordumuzu gücləndirməliyik" sərlövhəli analitik məqalədə bildirilir ki, nə Azərbaycan, nə də Türkiyə geri çəkiləcək. Müvafiq olaraq, sülh sazişinin (sayt sülh sazişi sözünü dırnaq işarəsində verir–S.H.) razılaşdırılmış bəndlərinin sayı ilə bağlı müzakirələr də tamamilə gülüncdür.



Müəllif Qraçya Qalustyan yazır: "Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Valettada ATƏT Xarici İşlər Nazirləri Şurasının 31-ci iclasındakı çıxışı ilə böyük maraqla tanış oldum. Və bununla bağlı bəzi şərhlərim var. Məsələ burasındadır ki, bizim xarici siyasət idarəmizin rəhbəri Ermənistanın bu günü və gələcəyi üçün konseptual əhəmiyyət kəsb edən məsələləri dəyərləndirərkən nədənsə həddən artıq optimist idi. Məsələn, o bildirdi ki, Ermənistan Azərbaycanla münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin delimitasiyası üzrə danışıqlarda konstruktiv iştirakını davam etdirir. Daha sonra xatırladtı ki, 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanan sərhədlərin delimitasiyası haqqında sənəd imzalanıb. Sərhədin 12 km-dən çoxu demarkasiya olunub. O, daha sonra əlavə etdi ki, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində tərəqqi əldə olunub – sənədin preambulası və 17 maddədən 15-i razılaşdırılıb. Mirzoyan Türkiyə istiqamətinə də toxundu. Qeyd etdi ki, Ermənistan Türkiyə ilə dialoqu davam etdirir, o cümlədən körpünün birgə qiymətləndirilməsi məsələləri və Gümrü–Qars dəmir yolu ilə sərhəd keçidi üçün texniki tələblər nəzərdən keçirilir. O, nəhayət, Ermənistan və Türkiyə arasında diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması da daxil olmaqla münasibətlərin tam normallaşmasının regionun sülh və sabitliyinə mühüm töhfə verəcəyini vurğulayıb. Deyəsən, düzgün sözlər səsləndirilib. Amma bu, hadisələrin göstərdiyi kimi, ölkəmizin sülhə can atmasının (?) tamamilə mənasız ifadəsi idi".

Məqalə müəllifi xəstə təxəyyülünü işə salaraq Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun "Digər istiqamətdə – ikitərəfli saziş layihəsinin mətni üzərində işdə əhəmiyyətli irəliləyiş əldə olunub. Bu nailiyyət aydın şəkildə göstərir ki, birbaşa ikitərəfli danışıqlar Azərbaycanın ardıcıl səylər göstərdiyi normallaşma prosesində irəliləyiş üçün ən yaxşı və yeganə yoldur" sözlərini fikirlərinin "sübutu" adlandırıb. Qeyd edib ki, guya, C.Bayramov rəsmi Bakının ilk tələblərindən birinin yerinə yetirilməsindən – Ermənistana dəstək verə biləcək tərəflərin danışıqlar prosesindən kənarlaşdırılmasından məmnundur: "Türkiyənin mahiyyət etibarı ilə danışıqlar prosesinin mühüm iştirakçısı olması (?) fonunda baş verənlər, yumşaq desək, bizim ciddi nöqsanımız kimi görünür".

Qeyd edək ki, Azərbaycan tərəfi haqlı olaraq, əldə edilmiş irəliləyişlərə baxmayaraq, münasibətlərin normallaşması yolunda hələ də həll olunmamış problemlərin qaldığını bildirir. Bakının mövqeyi belədir ki, problemlərin başa çatması Ermənistanın öz konstitusiyasında və digər qanunvericilik aktlarında hələ də təsbit olunmuş ərazi iddialarını aradan qaldırmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə bağlı bəyan etdiyi öhdəliyi faktiki yerinə yetirməsindən asılıdır.

Azərbaycanın beynəlxalq hüquqa uyğun mövqeyi yenə də yanlış interpretasiya olunaraq, Ermənistana təzyiq kimi qiymətləndirilib. Qalustyan yazır: "Gördüyümüz kimi, Azərbaycan özünə ultimatum dilində danışmaq (?) hüququ verərək, Ermənistana təzyiqləri azaltmır. Konstitusiyamıza müdaxilə edirlər. Eyni zamanda, Ermənistana qarşı ərazi iddialarına işarə edən (?) çox sayda dəyişiklikləri özlərində müzakirə etmək belə istəmirlər. Lakin Bakıda bu barədə getdikcə daha ucadan və daha çox danışırlar. Orada heç nə gizlətməməyə, tam proqramla hücuma keçməyə (?) qərar veriblər. Söhbət Bakıda "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II Beynəlxalq Konfransın keçirilməsindən gedir".

Azərbaycanlıların tarixi yurd yerlərinə dinc şəkildə qayıdışına nail olmaq məqsədilə keçirilən konfrans "Azərbaycanın sülhü yaxınlaşdırmaq yolu ilə getmək istəmədiyini tam sübut edən aşkar təxribat" adlandırılıb. "Konfransda səslənən "Ermənistan Qərbi Azərbaycan İcması ilə danışıqlara başlamalı və onların fundamental hüquqlarının bərpası üçün əməli addımlar atmalıdır" sözləri isə təkcə torpaqlarımıza iddia deyil, həm də azərbaycanlıların Ermənistana köçürülməsi üçün ultimatum idi. Bütün bunlar göstərir ki, Azərbaycanın Ermənistana qarşı tələblərinin siyahısı daim artacaq. Türkiyə isə bu məsələdə Azərbaycanı dəstəkləməkdən heç vaxt imtina etməyəcək. Müvafiq olaraq, "sülh müqaviləsi"nin razılaşdırılmış bəndlərinin sayı ilə bağlı müzakirələr tamamilə gülünc fikirdir. Necə ki, Azərbaycanla ikitərəfli danışıqlar aparılması özü gülüncdür" – deyə erməni analitik hikkə ilə yazır.

Qeyd edir ki, sülh danışıqları prosesini, sadəcə, tərk etmək lazımdır: "Biz tərəfdaşlarımıza başa salmalıyıq ki, Bakıda başa düşülən yeganə dil güc dilidir. Buna görə də Ermənistanın müttəfiqləri bizim ordumuzu gücləndirməlidirlər. Nə qədər tez və gen-bol olsa, o qədər yaxşıdır".

Suriyada Bəşər Əsəd rejiminin devrilməsi isə erməni politoloqlar arasında isterikanı gücləndirib. "Alternativ layihələr" qrupunun üzvü Vahe Ovannisyan sosial şəbəkədəki hesabında B.Əsədlə N.Paşinyan arasında paralellər aparıb: "Əgər Əsəd 2011-ci ildə – hələ dinc məcrada keçən "Ərəb baharı" zamanı getsəydi, ölkəni darmadağın edən vətəndaş müharibəsi, 600 minə yaxın qurban, xarabazara çevrilən şəhərlər, 4-5 milyon qaçqın, 6-7 milyon məcburi köçkün olmazdı. Əgər Nikol 2021-ci ildə getsəydi, bu gün "Artsax" ermənilərin olacaqdı və xarici təhlükələr xeyli zəifləyəcəkdi. Bizdə fərqli bir reallıq olardı. Dövlətlərin həyatında fərdlərin rolu çox böyükdür, lakin onlar sonda gedirlər. Onlardan qalan geridə qoyduqları dağıntıların və ağrıların ölçüsüdür. Əgər erməni xalqı 2025-2026-cı illərdə düzgün seçim etsə və yeni hakimiyyət formalaşdırsa, o zaman Ermənistan dövlət kimi qalacaq və yaxın onillikdə yeni regional reallıqlar şəraitində "Artsax"ın sülh yolu ilə Ermənistana bərpa edilmək şansı olacaq".

Beləliklə, biz bu iki nümunədə Azərbaycana, ölkəmizlə aparılan sülh danışıqları prosesinə, eləcə də qardaş Türkiyəyə Ermənistan cəmiyyətində necə münasibət bəslənildiyini aydın gördük. Təəssüf ki, bu nümunələrin sayı iki deyil, üç deyil, onlarcadır. Ermənistan cəmiyyəti son vaxtlar xeyli radikallaşıb. Belə məqalələrin yazılması, fikirlərin səsləndirilməsi də cəmiyyətdən gələn sosial sifarişin nəticəsi kimi qiymətləndirilə bilər. Onu da nəzərə almaq lazımdır ki, təxminən, il yarımdan sonra Ermənistanda növbəti parlament seçkiləri keçiriləcək. Belə bir vəziyyətdə ölkədə baş tutacaq seçkilərdə revanşistlərin yenidən hakimiyyəti qəsb etmələri də real görünür.



**Mövzu üzrə fikirlərini öyrəndiyimiz "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, Ermənistanın Azərbaycanla məsələlərin həllinə fərqli baxışları var. Onun sözlərinə görə, hökumət və baş nazir N.Paşinyan cəmiyyətə təlqin etməyə çalışır ki, Azərbaycanla sülh sazişinin imzalanması, ümumiyyətlə, qonşularla sülh içində yaşamaq vacibdir. Bildirir ki, bu, Ermənistanın inkişafı üçün mühümdür: "Əlbəttə, bu fikri bölüşən ermənilərin sayı az deyil. Az olsaydılar, onlar Paşinyanın partiyasına ikinci dəfə səs verməzdilər. Yəni, erməni cəmiyyətinin əksər hissəsi başa düşür ki, Azərbaycanla növbəti müharibə Ermənistanın sonu olacaq. Onsuz da 44 günlük İkinci Qarabağ müharibəsindən hələ də özlərinə gəlməyiblər. Bəlkə də, işğal dövründə düşünürdülər ki, Azərbaycan bununla barışacaq. Amma Azərbaycan barışmadı, öz sözünü dedi. Erməni cəmiyyətinin əksər hissəsi də anlamamış deyil ki, Azərbaycanla Ermənistana böyük fəlakətlər gətirəcək. Buna görə onlar da bu siyasəti dəstəkləyirlər".

E.Şahinoğlu dedi ki, əlbəttə, bununla razılaşmayan revanşist, şovinist qüvvələr, Qarabağ klanına bağlı şəxslər də var. Onlar Azərbaycan və Türkiyə ilə düşmənçilik siyasətinin davam etdirilməsini istəyirlər. Amma alternativ təklif edə bilmirlər: "Yaxşı, Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik etdiniz, ərazi iddiaları qaldırdınız. Axı, bu zaman siz iki böyük dövlətlə müharibə vəziyyətində olacaqsınız. Onda erməni cəmiyyətinə nə vəd edirsiniz? Bu halda erməni cəmiyyətinə inkişaf vəd edə bilmirlər. Daha Rusiya da arxalarında deyil. Vəziyyətləri daha da ağırlaşıb. Amma bir daha qeyd etmək istərdim ki, bütün hallarda erməni cəmiyyətində şovinist qüvvələrə dəstək verənlər də var. Bunların arasında özünü ziyalı adlandıranlar, yazıçılar və sair də tapılır".

Erməni cəmiyyətinin iki yerə bölündüyünü qeyd edən politoloq bildirdi ki, bu, Ermənistan Azərbaycanla sülh sazişi imzalayacağı halda belə cəmiyyətdəki azərbaycanofobiyanın, eləcə də antitürk əhval–ruhiyyəsinin aradan qaldırılmayacağı deməkdir.

Politoloq qeyd etdi ki, bütün hallarda biz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik. İndi isə qarşı tərəfə sülh əli uzadırıq. Deyirik ki, konstitusiyanızı dəyişin, sülh sazişi imzalayaq, Prezident İlham Əliyevin "Qafqaz evi" ideyasını reallaşdıraq. Bundan hamı faydalanacaq. Amma bu, iki cəmiyyətin sürətlə barışacağı demək deyil. Erməni cəmiyyətində baxışlar, dəyərlər dəyişməlidir. Bu, uzun illər tələb edən çətin prosesdir.

***Səxavət HƏMİD***
***XQ***

XQ-nin araşdırması

# Ermənistan cənnət Qarabağı cəhənnəmə döndərib

## *Vandalların törətdiyi ekosid bəşəri cinayətdir*



**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a yüksək səviyyədə evsahibliyi edən Azərbaycan planetimizi təhdid edən ekoloji problemlərin həlli istiqamətində zəruri addımların müzakirə olunduğu, mühüm qərarların verildiyi platformaya çevrildi. Mötəbər tədbir zamanı dünya dövlətimizin bu sahədə təkcə regional deyil, qlobal təşəbbüslər müəllifi kimi də aktiv fəallığının şahidi oldu.**

Azərbaycan hökuməti ekoloji məsələləri hər zaman xüsusi diqqətdə saxlayıb. Belə həssas yanaşmanı şərtləndirən mühüm amillərdən biri də Ermənistanın torpaqlarımızı işğal altında saxladığı 30 ilə yaxın dövrdə Qarabağ və Şərqi Zəngəzurun təbiətinə, flora və faunasına, ekoloji sisteminə qarşı ekosid törətməsidir. Faktdır ki, həmin dövrdə ermənilər tərəfindən Azərbaycanın yüz min hektarlarla meşə sahəsi məhv edilib, düşmən əzəli torpaqlarımızda, milli park və qoruqlarımızda əsl vandallıq aktları törədib.

Hər hansı bir dövlətdə ekoloji tarazlığın pozulmasına yönəldilən terror aktları ekosidin tərkib hissəsini təşkil edir və bu, ekoloji problemlər yaratmaq məqsədi güdür. Ekoloji terror ölkə və ya şəxslər tərəfindən digər ölkənin flora və faunasına zərər yetirmək, təbii sərvətlərini məhv etməklə bilərəkdən vurulan ziyandır. Ətraf mühitə və inkişafa dair Rio-de-Janeyro Bəyannaməsinə görə, müharibələr davamlı inkişaf prosesinə dağıdıcı təsir göstərməməlidir. Bu səbəbdən dövlətlər silahlı konfliktlər zamanı ətraf mühiti mühafizə edən beynəlxalq hüquqa hörmət etməyə borcludurlar.

Lakin ermənilər nəinki bu prinsiplərə əməl etməyib, əksinə onları mütəmadi olaraq kobud surətdə pozaraq işğal etdikləri ərazilərimizin təbiətini viran qoyublar. Bəsitçay və Qaragöl dövlət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri işğalçılar tərəfindən məqsədli şəkildə məhv edilib. Bununla da Ermənistan, eyni zamanda, qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaları, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasını pozub.

Ermənistan işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda şəhər və kəndlərimizi xarabalığa çevirdiyi, toponimlərimizi, yaşayış məntəqələrinin, tarixi şəxsiyyətlərimizin, dövlət xadimlərinin, sərkərdə və qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin adları ilə bağlı ünvanları dəyişdirdiyi, dini abidələrimizi, o cümlədən qəbiristanlıqları, memarlıq abidələri üzərindəki türk rəmzlərini, digər bədii daş nümunələrinin məhv etdiyi, oğurlayaraq başqa yerlərə daşıdığı kimi, yeraltı-yerüstü sərvətlərimizi də vəhşicəsinə talayıb.

Mineral su mənbələrimiz, meşə fondumuz, 152 dövlət təbiət abidəsi, 5 ədəd geoloji obyekt və 155 növ faydalı qazıntı yatağı da erməni barbarlığının qurbanına çevrilib. Düşmən Zəngilan, Ağdam, Kəlbəcər, Qubadlı və digər rayonlarda qiymətli ağac növlərini qazanc götürmək məqsədilə məhv edərək yarımfabrikat kimi xarici ölkələrə satıb. Xüsusilə işğalın son illərində Ermənistanın Qərb ölkələrinə məxsus şirkətlərin köməyilə meşəçilik sahəsində istehsalını 10 dəfə artırması məhz Azərbaycan meşələrinin qırılması hesabına baş verib.

Ümumi sahəsi 8 min hektardan artıq palıd, ardıc, fıstıq, vələs, şam, göyrüş və qoz ağaclarından ibarət qiymətli və çoxillik sıx meşələrdən ibarət bənzərsiz bir ekosistem məhv edilib, flora və faunanın qiymətli növləri ilə zəngin Qarabağ meşələri qırılıb və xaricə daşınıb. Nəticədə, endemik biomüxtəlifliyə ağır zərbə vurulub, yaşıllıq zənginliyinə öyrəşmiş quşlar, heyvanlar bu yerlərdən didərgin düşüb. Təbiətin müvazinəti, balansı pozulub, torpağın erroziyası başlanıb.

Mütəxəssislərin rəyinə görə, işğala məruz qalmış 43 min hektar sahəsi olan xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarında, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarında "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilərək qorunan 24 fauna və 69 flora növünün əksəriyyəti ermənilər tərəfindən məhv edilib.

İşğaldan azad olunmuş ərazilərimizdə ekoloji əhəmiyyətə malik su mənbələri – çaylar və göllər də böyük antropogen təsirlərə məruz qalıb. Daha bir vacib məqam isə Ermənistan ərazisindən gələn və Azərbaycanın içməli su mənbələrini formalaşdıran çayların kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilməsidir ki, beynəlxalq təşkilatlara edilmiş çoxsaylı müraciətlərə, çalınan həyəcan siqnalına baxmayaraq, Ermənistan öz cinayətkar davranışından, ekoloji terror siyasətindən hələ də əl çəkməyib. Bütün bunlar isə ölkəmizlə yanaşı, regionun və dolayısı ilə planetimizin bioloji müxtəlifliyinə vurulan zərbədir.

Azərbaycan ermənilərin işğal dövründə dağıdaraq xarabalığa çevirdikləri şəhərləri, kəndləri yenidən qurub-yaratdığı kimi, Qarabağın və Şərqi Zəngəzurun ekologiyasına vurulan yaraları da tezliklə sağaldacaq. Bunun üçün dövlətimizin iqtisadi gücü də, qətiyyəti də yetərlidir. Ermənistan isə hərbi cinayətlərinə, işğalçılıq siyasətinə görə döyüş meydanlarında cavab verməli olduğu kimi, törətdiyi ekoloji terrorlara, ekosidə görə də beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verməli olacaq.

Dünyanın hökm verən qurumları, ermənipərəst mərkəzlər ədalət hissini nə qədər itirmiş olsa belə bu divan qurulacaq, canilər cəzalarını alacaqlar.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

Yaşıl gələcəyə doğru

**BMT-nin Azərbaycandakı nümayəndəliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Meksikanın Azərbaycandakı səfirliyi və Bakı Dövlət Universitetinin hüquq fakültəsinin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində "İqlim dəyişikliyi və gender əsaslı zorakılıq" mövzusunda məlumat sessiyası keçirilib. Toplantının məqsədi hüquqşünaslar və hüquq fakültəsinin tələbələrini iqlim dəyişikliyi və gender bərabərliyi haqqında maarifləndirməkdir.**

# İqlim dəyişikliyi və qadın hüquqları

## *COP29 gender problemlərinin həlli üçün də yeni imkanlar yaratdı*



Meksikanın Azərbaycandakı səfiri Maria Viktoria Romero Kaballero bildirib ki, gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı zorakılıqla mübarizə istiqamətində təşviqat aparılması səfirliyin fəaliyyətinin mərkəzində dayanır.

AQUPDK-nin sədr müavini Aynur Sofiyeva hər il kampaniya çərçivəsində bir çox aksiyanın keçirildiyini, ictimaiyyətə qadınlara və qızlara qarşı zorakılığı aradan qaldırmaq çağırışları edildiyini diqqətə çatdırıb. O, bildirib ki, kampaniyanın mahiyyəti haqqında regionlarda maarifləndirici seminarlar təşkil edilir. Məişət zorakılığı və gender əsaslı zorakılıq ilə mübarizə istiqamətində Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə mühüm addımların atıldığını qeyd edən A. Sofiyeva "Azərbaycanda məişət zorakılığı ilə mübarizəyə dair 2020 –2023-cü illər üzrə Milli Fəaliyyət Planı" çərçivəsində 7 istiqamət üzrə 6 qanun və 5 fərmana dəyişiklik edildiyini vurğulayıb.

Bildirilib ki, son illərdə dünya miqyasında insan hüquqları ilə ətraf mühit arasındakı sıx əlaqənin getdikcə daha geniş miqyasda tanınır. Bu, problemin yalnız ekoloji deyil, həm də insan hüquqları, təhlükəsizlik və iqtisadi inkişaf baxımından mühüm çağırış olduğunu göstərir. İqlim dəyişikliyinin gender təsirləri nəticəsində qadınların iqtisadi fəaliyyətinə, sosial mövqelərinə və şəxsi həyatına təhlükə yaradır. Ailələrin ümumi sosial-iqtisadi statusuna təsir göstərən bu amillər həm də gender bərabərsizliyini dərinləşdirir. Ailədaxili resurs bölgüsü və qərarvermə mexanizmləri isə gender əsaslı fərqlilikləri daha da gücləndirir.

Daha sonra qeyd edilib ki, Azərbaycan COP29-a yüksək səviyyədə evsahibliyi edib. Bu mötəbər beynəlxalq məclis ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə dünya miqyaslı liderliyini, ekoloji problemlərin həllinə ciddi önəm verdiyini, ölkəmizin qlobal iqlim siyasətində fəal rol oynadığını, gələcək nəsillərin rifahı üçün mühüm addımlar atdığını göstərdi. Ölkəmizin beynəlxalq səviyyədə güclü və etibarlı tərəfdaş olduğu bir daha təsdiq edildi.

COP29-da qaldırılan digər məsələlərlə yanaşı, gender və uşaq məsələləri də aktual mövzulardan oldu, bu sahədə müxtəlif yüksək səviyyəli toplantılar keçirildi. Konfrans iqlim dəyişikliyi və insan hüquqlarının kəsişməsinə diqqəti cəlb etmək, eləcə də qadınların və uşaqların rifahını qoruyan siyasətləri təbliğ etmək üçün geniş imkan yaratdı. AQUPDK Qadınların iqtisadi səlahiyyətləndirilməsi sahəsində çoxşaxəli toplantılar həyata keçirir. 17 rayonda fəaliyyət göstərən resurs mərkəzləri qadınların səlahiyyətləndirilməsinə və onların iqtisadi dayanıqlılığının artırılmasına xidmət edir, eləcə də gender əsaslı zorakılığa məruz qalmış qadınlara dəstək göstərir. Hazırda ən vacib addım ölkədə "Gender bərabərliyinin təmini üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsidir.

BMT-nin Azərbaycandakı rezident əlaqəndiricisi Vladanka Andreyeva se3ssiyada "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası haqqında ətraflı məlumat verdi. O, Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci hədəfinin gender bərabərliyinə həsr edildiyini qeyd edərək, 2030-cu ilədək qarşıya qoyulan hədəfə çatmaq üçün bütün güclərin səfərbər olduğunu bildirib. BMT rəsmisi iqlim dəyişmələri və gender əsaslı zorakılığın bütün bəşəriyyətə təsir göstərdiyini vurğulayıb.

Daha sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Zaur Əliyev, Hüquq və İnsan Haqları İnstitutu Publik Hüquqi Şəxsin insan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı və BMT-nin CEDAW Komitəsinin üzvü Elgün Səfərov gender əsaslı zorakılıqla mübarizə istiqamətində təkliflər səsləndiriblər. E. Səfərov gələn il Braziliyada keçiriləcək COP30-a aparan yolda Azərbaycan BMT ilə əməkdaşlıq çərçivəsində uğurlu fəaliyyətini davam etdirəcəyini qeyd edib.

Müzakirə sual-cavab sessiyası ilə davam edib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Günün sualı

# Dəm qazı niyə Əzrayıla dönüb?

**Son vaxtlar mətbuatda və ya sosial şəbəkə səhifələrində insanların dəm qazından zəhərləndiyi və həyatlarını itirdiyi xəbərlərinə rast gəlinir. Bu cür hadisələrdən biri bu günlərdə Şəki rayonunun Kiş kəndində baş verib. Abdullayevlər ailəsinin 4 üzvü xəstəxanaya yerləşdirilib. Şəki Rayon Mərkəzi Xəstəxanasından verilən məlumata əsasən, 30 yaşlı Tariyel Abdullayev, həyat yoldaşı 31 yaşlı Billur Abdullayeva, eləcə də övladları 5 yaşlı Fərid və 1 yaşlı Məhəmməd dəm qazından zəhərlənmə əlamətləri ilə xəstəxanaya daxil olublar. Ailə üzvlərinə xəstəxananın Təcili tibbi yardım şöbəsində ilkin tibbi yardım göstərilib. Onlar daha sonra palataya köçürülüblər.**



Dəm qazından zəhərlənmə həmişə müsbət sonluqla bitmir. Ölənlər də az deyil. Sabirabad rayonu Axtaçı Muğan kəndində yaşadığı evdə dəm qazının təsirinə məruz qalan 1982-ci il təvəllüdlü Pərvanə Əliyeva ölüb. Bu səpkidə kifayət qədər misallar çəkmək mümkündür.

Statistik rəqəmlər də dəm qazından zəhərlənənlərin az olmadığını göstərir. Məsələn, 2015-ci ildə 302 nəfər dəm qazından zəhərlənmə ilə Kliniki Tibbi Mərkəzə gətirilib. 2019-cu ildə dəm qazından zəhərlənlərin sayı 152, 2022-ci ildə 155 nəfər təşkil edib. 2024-cü ilin ilk 3 ayı ərzində qaz problemi ilə əlaqədar 332 hadisə qeydə alınıb. Sözügedən hadisələr əsasən, istilik cihazında olan nasazlıq və tüstü bacasının olmaması səbəbindən baş verib. Bundan əlavə 2024-cü ilin yanvar-mart ayları ərzində ümumilikdə 25 ölüm faktı qeydə alınıb. Bunlardan 7-si yanvar, 14-ü fevral və yerdə qalan 4-ü isə mart ayında baş verib. Dəm qazından zəhərlənmə bu ilin payız-qış aylarında da artıb.

### İlkin tibbi yardım olmasa...

Ölüm halları isə daha çox "pyatiminutka" kimi tanınan su qızdırıcısı və yaxud "kombi" deyilən sobalardan meydana çıxır. Bu sobaların borularının bayıra çıxışı olmalıdır. Bundan başqa, otağın havası tez-tez dəyişdirilməli, bacalar il ərzində ən azı bir dəfə təmizlənməlidir. Sorucu borular olmasa, bacalar təmizlənməsə, dəm qazı sıxışdırılaraq içəri daxil olur və bu, adamı boğub öldürə bilər. Fövqəladə Hallar Nazirliyi dəfələrlə dəm qazından zəhərlənmələrin minimuma endirilməsi üçün tüstü bacalarını təmizləməyə çağırıb. Qurum bildirib ki, dəm qazından zəhərlənmədən qorunmaq üçün qış mövsümü başlanmazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, tüstü bacalarının sazlığı və işə yararlı olması yoxlanılılmalı, yalnız bundan sonra cihaz istismara buraxılmalıdır.

Ancaq çoxları buna fikir vermirlər. Bəhruz Nuriyev küçəsi ev 77, mənzil 70-də yaşayan İmarət Əfəndiyeva bildirir ki, 30 ildən çoxdur ki, yaşadığı binada tüstü bacaları təmizlənməyib: "Bəzən yaz-yay mövsümündə quşlar gəlib həmin bacalarda yuva qurur. Mənzillər təmir edilərkən də bu bacalar ustalar tərəfindən örtülür. Belə şəraitdə yanma məhsulu otağa daxil olur və dəm qazı insanları boğur. Bu, çox vaxt ölümlə nəticələnir. Az qala bu faciəni mənim ailəm də yaşayacaqdı. Yuxarı mərtəbədəki qonşum mənzilini təmir edərkən, ustalar tüstü bacasının üstünü hörmüşdülər. Nəticədə hamamda soba işləyərkən otaqda iy hiss olunurdu. Bir neçə dəfə Mənzil İstismar İdarəsinə müraciət edərək bacanın təmizlənməsini xahiş etmişdim. Həmin vaxt bu xidmətin pullu olduğu bildirilmişdi. Beləliklə, tüstü bacası təmizlənməmiş qaldı. Nəticəsi isə az qala facıə ilə bitəcəkdi. Oğlum hamamda cimərkən birdən səs gəldi. Qapını açarkən onu yıxılmış vəziyyətdə gördük. Sobadan çıxan zərərli qazlar tüstü bacası ilə atmosferə çıxmadığından dar və qapalı hamam otağına toplanmış və zəhərlənmə baş vermişdi. Onu da deyim ki, dəm qazı toksiki təsirini mərkəzi sinir sisteminə çox qısa müddətdə göstərir. Xəstə hiss etmədən başgicəllənmə əmələ gəlir. Bu zaman insan huşunu itirib yıxılır. Ürək çatışmazlığı, qan təzyiqinin düşməsi, nəfəs çatışmazlığı getdikcə dərinləşir, insan çox ağır vəziyyətə düşür.

Mən 4 il Qırmızı Aypara Cəmiyyətində tibb bacısı işləmişdim və ilk yardım barəsində məlumatlı idim. Dərhal oğlumu hamamdan çıxarıb qonaq otağına apardıq və təmiz havanın otağa daxil olması üçün pəncərələri açdıq. Bədən hərarəti düşməsin deyə üstünü də örtərək isti çay verdim. Huşu özündə idi, tez ayıldı.

İşlədiyim müddətdə dəm qazından huşunu itirmiş adamlara da rast gəlmişəm. Bu hallarda ilk növbədə təcili yardım çağırılmalıdır. Çünki hər an çox qiymətlidir. Zəhərlənmədən beyin hüceyrələri və toxumalarında fəsadlaşma başlayır. Ürək və beyin kimi həssas orqanlarda oksigen çatışmazlığı yaranır. Dəm qazı günlər sonra da ağır fəsadlaşmalara səbəb ola bilər. Xəstənin hətta iflic olmaq, yaddaşını və ya görməsini itirmək təhlükəsi də var .

Həkim gələnədək dərhal onu qapalı mühitdən çıxararaq arxası üstə uzadıb yaxasını açmaq, mümkünsə, nəfəs yollarını açmaq üçün ağız boşluğundakı seliyi təmizləmək lazımdır. Əks halda, xəstə zəhərlənmə deyil, boğulma nəticəsində də həyatını itirə bilər. Süni tənəffüs də vacib şərtdir. Gecikmə isə ölüm deməkdir.

Bir şeyi də qeyd etmək istərdim. Hamam qapısında deşiklər açılmalıdır ki, hava axını təmin olunsun. Bəzən hamam isti olsun deyə bu deşiklər bağlanır. Bunun nəticəsi isə ağır olur. İşlədiyim müddət dəfələrlə bunun şahidi olmuşam".

İ.Əfəndiyeva sonra dedi ki, bu hadisədən sonra usta çağırıb və tüstü bacasının hörülmüş hissəsi sökülərək əvvəlki vəziyyətinə salınıb: "Tüstü bacasını da öz vəsaitimlə təmizlətdim. Bundan başqa, hamamın qapısında da havalandırma üçün deşiklər açdırdım. Şükür Allaha, bir də belə halla rastlaşmadım".

### Dəm qazı, yoxsa ehtiyatsızlıq?

"Dəm qazından zəhərlənmə hadisələrinin 95 faizi nöqsanlar səbəbindən vanna otaqlarında baş verir". Bu barədə "Azəriqaz" İstehsalat Birliyinin (İB) şöbə rəisi İlkin Behbudov mətbuata açıqlamasında deyib. O bildirib ki, "Azəriqaz" istehlakçıların mənzillərində və sənaye obyektlərində qazdan istifadə qaydalarına riayət olunmasını yoxlamaq üçün texniki müayinələr aparır: "Əsas qarşılaşdığımız nöqsanlar bağlı yerlərdə qaz borularının quraşdırılması, vanna otaqlarında qapının içəri açılması, cihazların istismar müddətinin bitdiyi halda istifadə olunması, tüstü bacalarında sovurmanın olmaması, həyət evlərində tüstü bacalarının olmaması və daha bir çox bu kimi hallardır".

Əhaliyə verilən qazın tərkibini dəm qazından boğulma halları ilə əlaqələndirmək isə tamamilə səhv fikirdir. Bu qurum Azərbaycan ərazisində ailələrə və qeyri-əhali sektoruna sərfəli qiymətlərlə fasiləsiz, təhlükəsiz və səmərəli qaz təchizatını təmin edir. Təbii qaz yoxlanıldıqdan sonra qazpaylayıcı stansiyalara ötürülür. Burada xüsusi qurğularda qazın tərkibində olan müəyyən mayelər və ağır karbohidrogenlər çökür və əhaliyə standarta uyğun mavi yanacaq verilir. Deməli, qazın tərkibini dəm qazından boğulma halları ilə əlaqələndirmək səhvdir. Yəni əhaliyə verilən qazın zəhərli olduğu barədə məlumatlar reallıqdan uzaqdır. Əgər qaz zəhərli olsa, xarici ölkələr Azərbaycandan qaz almağa bu qədər can atmazdı.

### Mənasız ölümdən necə qorunaq?

Dəm qazının əmələgəlmə səbəbləri təkcə qeyri-standart cihazlardan istifadə ilə bağlı deyildir. Cihaz özü standarta uyğun da ola bilər, lakin onun tüstü bacasının düzgün quraşdırılmaması səbəbindən dəm qazı və ya digər ziyanlı maddələr əmələ gələ bilər. Hər hansı qaz cihazının mətbəxdə, otaqda və s. yerlərdə quraşdırılması üçün texniki normativlər mövcuddur. Bu normativlərə düzgün riayət edilməlidir. Cihazlar peşəkar qaz işçiləri tərəfindən quraşdırılmalıdır.

Bundan başqa, dəm qazı əmələ gələrkən xəbərdarlıq edən qurğular var. Onları qaz cihazlarına yerləşdirən zaman zəhərli qazın əmələ gəlməsini işarə edir və qaz verilişi dayanır. Qış mövsümü başlanmazdan əvvəl isə mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, tüstü bacalarının sazlığı və yararlı olması yoxlanılılmalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

İlin yubileyləri: Əvhədi Marağalı – 750

# Marağanın poeziya günəşi

**O, dünyaya göz açanda (1274-cü il) artıq 15 il idi ki, doğma şəhərində böyük astronom Nəsirəddin Tusi rəsədxanası yaranmışdı. Bu "akademiya" Misirdən Çinə qədər geniş bir ərazinin görkəmli alimlərini öz damı altına toplamışdı. Sözsüz ki, ağlı kəsincə ora gedən Əvhədi də teleskopdan Günəşə, Aya, ulduzlara baxıb və elmə könül verərək, özü də ən azı bir ulduz olmaq istəyib. Amma ondan qalan zəngin irs, obrazlı desək, Əvhədinin nəinki bir ulduz, Marağadan doğan Günəş olduğuna dəlalət edir.**



Müxtəlif mənbələrdə məşhur azərbaycanlı alim və filosof-şair Şeyx Marağalı Əvhədədin Şeyx Əvhədi ibn Hüseyn elə Güneş kimi ən yüksək təriflərlə xarakterizə olunub: xoşbatin, xoşsifət, arif, şeyx, övliya, mövlana, mehriban, əxlaqlı, fazil və kamil insan, təsəvvüf təriqəti başçısı, haqq yolunun bələdçisi...

İlk zamanlar "Safi" (təmiz) təxəllüsü ilə şeirlər yazan sufi Əvhədi təhsilini Marağada alıb. Ərəb və fars dillərini, nücum, məntiq, təbiətşünaslıq, fəlsəfə, ilahiyyat və sair elmləri öyrənib. Dahi İmaməddin Nəsimi Əvhədinin əsərlərini sevə-sevə tərcümə edib və onlara nəzirələr yazıb. Hafiz Şirazi Əvhədini "Piri-təriqət" (mənəvi rəhbər) adlandırıb, Sədi Şirazi onu özünə ustad sayıb.

Əvhədi Marağali qələminin püxtələşdiyi bir vaxtda İsfahana köçüb və bir müddət orada yaşayaraq, dövrün tələbinə görə, farsca əsərlər qələmə alıb. Bu faktı əsas tutan bəzi "cığal" araşdırmaçılar onu fars şairi kimi qələmə verməyə çalışıblar. Amma şairin əsl türk ruhu, əsərlərindəki aşkar fikirlər bu cəhdləri alt-üst edir. Əvhədi heç zaman öz məhəbbətini Azərbaycandan əsirgəməyib, yaradıcılığında vətəninə, xalqına, adət-ənənələrinə sevgi dolu münasibətini bildirib.

Dahi Nizaminin poetik, Tusinin siyasi-fəlsəfi irsindən mükəmməl bəhrələnmiş Əvhədi Marağalının sufilik fəlsəfəsinə əsaslanan poetik əsərləri, şeir və poemaları məlumdur. Şah əsəri "Cami-Cəm" didaktik-fəlsəfi məsnəvidir. Onun tərcibənd, qəzəl, rübai, qitə və qəsidələrdən ibarət 15000 beytlik divanı, 525 beytdən ibarət aşiqanə "Dəhnamə" poeması da var.

"Cami-Cəm" həyatın mənası və insanlığın dərki, Rəbbimizin eşqinə çatmaq üçün ən kamil və dünyada tayı-bərabəri olmayan əsərdir. Görkəmli alimimiz Məmmədağa Sultanov yazırdı: "Yeri gəldikcə Azərbaycan sözləri və məsəlləri ilə bəzənən bu əsəri şairin "Cami-Cəm" adlandırması təsadüfi deyildir. Bu ad əfsanəvi İran padşahı Cəmşidin istənilən hər şeyi özündə əks edən camına işarədir. Şair demək istəmişdir ki, onun bu əsərdə, Cəmişidin camında olduğu kimi, hər məsələyə cavab tapmaq olar:

**Adını "Cəmşidin camı" qoydum mən,**
**Varlığın əksini onda görərsən.**
**Hər kəs istəyirsə dünyanı görmək,**
**Könlü istəyəni burda görəcək".**

Bu poema həm qoyulan məsələlərin çoxluğu, həm də onları əks etdirmə metodunun orijinallığı ilə fərqlənir. Kitabın əvvəlindən axıra qədər elmə, biliyə himn oxuyur. "Cami-Cəm" elmə, biliyə himn kimi səslənir. Risalənin "Elm öyrənmək və alimlərin şərəfi haqqında", "Təhsil haqqında", "Təhsilin təsiri və iradənin bəhrəsi", "Dürüstlük haqqında", "Müdriklik haqqında", "Bir neçə kəlmə öyüd-nəsihət", "Uşağı şər adamlardan qorumaq haqqında" və s. bölmələrində gənclərin tərbiyəsi məsələləri işıqlandırılıb.

Əvhədi hesab edirdi ki, tərbiyənin ən qüdrətli vasitəsi sözdür. Ona görə sözlər tutqun könülləri açar və yaxşıları əbədi edər. Biliksiz, elmsiz heç bir sirriaçmaq, kəşf etmək olmaz. Onun dediklərində nəticəyönümlülük var. Dahi şəxsiyyət fəlsəfi fikirlərinə görə proqressiv şəxsiyyət sayılır. Qəsidələrinin birində "Zülm edənləri ruzigarın əli zorla kökündən qazıyasaq" – deyən şair istibdaddan xilas yollarını da peyğəmbərənə bir şəkildə göstərib. Sadə camaatın ağır əməyi hesabına sərvət toplayan, amma bundan xalqın ümumi inkişafı, elmin və mədəniyyətin tərəqqisi üçün istifadə etməyənləri acgöz, tamahkar və müftəxor adlandıraraq ifşa etməkdən çəkinməyib. "Bu qoca dünta min adaxlının gəlini olmuşdur" fikrindən də zamandan narazılıq boy göstərir.

Bir çox alim Əvhədini İntibah dövründə Şərqin nəcib, qəlbi xalq üçün döyünən ensiklopedik biliyə malik humanist alim və şairlərindən biri kimi səciyyələndirib. Xüsusi vurğulanır ki, İntibahın elm və ədəbiyyat çeşməsindən bəhrələnən ədib 40 ildən artıq məhsuldar yaradıcılıqla məşğul olub və ədəbiyyatımızı yeni ideyalar və sənətkarlıq keyfiyyətləri ilə zənginləşdirib.

**Kim vəfa yoluna mərdanə gəldi,**
**Ordan comərdliyə qalxıb, yüksəldi.**

Sevgidən bəhs edən şairin gənclərə belə bir məsləhəti ibrətamizdir:

**Evlənmək istəsən naçar qalaraq,**
**Bakir bir nigarla həyat qur ancaq.**
**Əsilli-nəcəbli elə bir qız al,**
**Ancaq səni görüb sevsin o maral.**

Əvhədi evləndikdən sonra kişinin qadınla incə və hörmətlə rəftar qaydaları haqqında da çox gözəl nəsihətlər də yazmışdır.

Görkəmli tədqiqatçı Qulamhüseyn Beqdeli şair haqqında "Əvhədinin həyat və yaradıcılığı" adlı kitab (Bakı, 1962) nəşr etdirib. Bundan başqa, Əvhədinin "Cami-Cəm"əsərini farscadan Azərbaycan türkcəsinə də tanınmış alimlərimiz Qulamhüseyn Beqdeli və Xəlil Həmid oğlu tərcümə ediblər. Bu çevirmə 1970-ci ildə Azərbaycan Dövlət nəşriyyatında 20 min tirajla nəşr olunub. Ciddi senzura və ateizimin hökm sürdüyü sovet vaxtı belə bir kitabın araya-ərsəyə gətirilməsini əsl fədakarlıq kimi dəyərləndirmək olar. Təkrar nəşrləri də var.

Mövlana Əvhədi 1338-ci ildə martın 8-də 65 yaşında doğma şəhəri Marağada dünyasını dəyişib. Məqbərəsi oradakı "Pir Əvhəd-əd-din" adı ilə məşhur olan ziyarətgahdır. Başdaşında belə yazılıb: "Bu qəbir böyük ağa, məşhur alim, görkəmli natiq, insanların ən yaxşısı Hüseyn İsfahaninin oğlu, millətin övladı, rəhmətlik Əvhəd-əd-dinindir".

*Ə.ƏLİYEV*
*XQ*

# Kitabxanaçılarımız beynəlxalq forumda



**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən "MDB ölkələrinin Uşaq və Gənclər Kitabının II Beynəlxalq Forumu"nda iştirak ediblər.**

Rusiya Dövlət Uşaq Kitabxanasının 55 illik yubileyi çərçivəsində təşkil edilən forumda təmsilçilərimiz Çin Xalq Respublikasının, Rusiya Federasiyasi, Belorusiya, Qazaxstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın aparıcı kitabxana mütəxəssisləri ilə uşaq və gənclərin mütaliəyə cəlb olunması, bu sahədə aparılan maarifləndirici layihə və təcrübələr, gələcək yerli və beynəlxalq əməkdaşlıq məsələlərini ətraflı müzakirə ediblər.

Rusiya Federasiyasının mədəniyyət, elm, təhsil sahəsinin rəsmi nümayəndələrinin, millət vəkillərinin iştirak etdikləri forumda Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının elmi işlər üzrə direktor müavini Günay Həsənova "Müasir zamanda uşaq və gənclərin mütaliəyə cəlb olunması üçün tətbiq edilən yeni üsullar" adlı məruzə ilə çıxış edib. Faktiki iş təcrübəsinə əsaslanan məruzədə kitabxananın yaranma tarixi, fond tərkibi, fəaliyyəti, burada həyata keçirilən layihələr haqqında ətraflı məlumat verilib. Kitabxananın rəsmi sayt üzərindən təqdim edilən elektron xidmətləri, virtual ünsiyyət vasitələri, kitabların elektron formata keçirilməsi, sosial şəbəkələrdə aparılan kitab və mütaliə təbliğatı, təşkil olunan oxu saatları, ustad dərsləri, ekskursiya və müəllif görüşlərindən bəhs edilib. Günay Həsənova Gənclər Kitabxanasında uşaq və gənclərin asudə vaxtının səmərəli təşkili istiqamətində görülən işlər – kurs və təlimlər, kitab müzakirələri haqqında da danışıb.

Azərbaycan nümayəndə heyəti forum çərçivəsində Avrasiyanın Kitabxanalar Assambleyası tədbirlərində, "Puşkin və Çaykovski: dünya mədəniyyətinin iki dahisi" adlı yaradıcı görüşdə, "Ədəbiyyat dili. Uşaq ədəbiyyatı və mütaliə sahəsində əməkdaşlıq", "Uşaq mütaliəsi könüllülərinin beynəlxalq forumu: MDB ölkələrində fəaliyyət göstərən könüllü təşkilatlar tərəfindən uşaqların mütaliəyə cəlb olunması üçün nəzərdə tutulan ən yaxşı təhsil layihələrinin təqdimatları" adlı müzakirələrdə, "Ədəbiyyat: keçmiş və müasir zaman" adlı müsahibədə və digər plenar sessiyalarda iştirak edərək, ölkəmizə söüzgedən mövzularda həyata keçirilən tədbirlər haqqında məlumat veriblər.

Forumun sonuncu günü iştirakçılar üçün Rusiya Dövlət Uşaq Kitabxanasına ekskursiya təşkil edilib.

*Ə.ƏLİYEV*
*XQ*

# "Savadlı millətin dirçəlişi"

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu türkdilli əlyazmaların tədqiqi şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Nəzakət Məmmədli UNESCO-nun dəstəyi ilə Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilmiş "Savadlı millətin dirçəlişi" adlı VI beynəlxalq elmi-praktiki konfransda iştirak edib.**

Azərbaycan, Rusiya, Türkiyə və Qazaxıstandan tədqiqatçı alimlərin, mədəniyyət və ədəbiyyat xadimlərinin, o cümlədən Almatıda fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələri və sosial-humanitar sahələr üzrə mütəxəssislərin qatıldığı simpoziumda Nəzakət Məmmədli "Azərbaycanda Oljas Süleymenov irsinin tədqiqi və tərcüməsi" mövzusunda məruzə edib. O, dünyaşöhrətli yazarın bədii irsinin tədqiqi ilə yanaşı, tərcümə etdiyi poetik nümunələrindən də bəhs edib.

Konfransın sonunda azərbaycanlı alim maraqlı çıxışına və konfransda fəal iştirakına görə təşkilatçı qurumların sertifikatına layiq görülüb. Təltifi alimə Qazaxıstanın Xalq yazıçısı və ictimai xadim Oljas Süleymenov təqdim edib.

Qeyd edək ki, filologiya elmləri doktoru Nəzakət Məmmədli ötən ay Özbəkistanda keçirilmiş "Hacıniyaz Kosıbay oğlu: Bəylər, tərif edim Qalpaq yurdunu" kitabının təqdimat mərasimində də iştirak edib. Onun "Hacıniyaz və Azərbaycan aşıq ədəbiyyatı" mövzusunda məruzəsi maraqla dinlənilib.



*XQ*

Dünyadan gələn soraqğımız

# Qəbələdən Kanadanın Alberta Universitetinə...

## *"Akademik mükəmməllik" mükafatına gedən yol*

**... Oğuzlu Xanlar Atakişiyev ötən əsrin səksəninci illərində Tibb İnstitutunun təyinatı ilə Qəbələnin Mirzəbəyli kəndinə göndərilmişdi. Bu sadə, səmimi, ən başlıcası peşəsini ürəkdən sevən gənc təyinat müddəti başa çatanda Oğuza qayıtmağı planlaşdırırdı. Kənd camaatının xahişi ilə atam Məmmədcan Qaçayevin müxtəlif ünvanlara israrlı müraciətlər etməsi doktor Atakişiyevin nəinki Oğuza gedən yolunun "bağlanmasına" səbəb olmuşdu, hətta onun dəvət olunduğu rayon xəstəxanasına getməsi də ləngidilmişdi. Yəni bu gənc həkimi kənd sakinləri çox sevirdilər. Beləliklə, indi rayon xəstəxanasında çalışan Xanlar həkim birdəfəlik Mirzəbəyli sakini olmuşdu.**



Ancaq bu sətirlər həkimin özü haqqında yox, onun Mirzəbəyli kənd məktəbinə, Qəbələyə və ümumiyyətlə, ölkəmizə başucalığı gətirən oğlu Şahin Atakişiyev haqqındadır. Bu yaxınlarda "Oxu.az" saytında Şahin Atakişiyevin okeanın o tayında qazandığı uğurlar haqqında bir yazı gördüm. Dərhal onun qardaşı Fazilə zəng etdim. Fazilin öz qardaşı haqqında qürurla danışdıqlarını eşitdikcə, mən də fəxr elədim.

– Qardaşım orta təhsilini İlham Kərimov adına Mirzəbəyli kənd tam orta məktəbində alıb. 2010-cu ildə 645 balla o zamankı Qafqaz Universitetinin Kompüter mühəndisliyi (ingiliscə) ixtisasına qəbul olub və 2015-ci ildə bakalavr dərəcəsi ilə məzun olub. 2019-cu ilin sentyabrında Kanadanın Alberta Universitetində doktorantura təhsilinə başlayıb. Doqquz ildir ki, Kanadadadır. O, bu il Kanadadan bizə zəng edərək Alberta Universitetinin Kompüter Elmləri Departamentində tədqiqat layihəsinin 2024-cü ildə bütün universitet üzrə ən yaxşı doktorluq dissertasiyası mükafatına layiq görüldüyünü deyəndə nə qədər sevindiksə, bir Allah bilir.

Şahinin doktorluq dissertasiyasının mövzusu "Sürücüsüz avtomobillər üçün izah ediləbilən süni intellekt arxitekturasının hazırlanması" adlanır. Bu mövzunu o özü seçməmiş, elmi rəhbəri məsləhət görmüşdü. Qardaşım kanadalı elmi rəhbərinin etimadını yüksək səviyyədə doğrultmuşdur. Şahin bizə danışır ki, son vaxtlar dünyanın bir sıra inkişaf etmiş ölkələrində (ABŞ, Kanada, Yaponiya, İngiltərə, Almaniya, Çin və s.) bu avtomobillərin istehsal olunmasına çox böyük maraq yaranıb. Bunun səbəbi isə avtonom və ya yarıavtonom maşınların süni intellekt vasitəsilə daha təhlükəsiz qərarlar verməsi, insan xətası səbəbindən yaranan qəzaların sayını minimuma endirmə perspektivinin olması və yollarda tıxacları əhəmiyyətli dərəcədə azaltması potensialıdır.

Təəssüf ki, bir neçə il əvvələdək insanlar süni intellekt əsaslı sürücüsüz avtomobillərin real zamanda qərarlar verə biləcəyinə inanmırdılar. Ona görə də belə avtomobillərin iştirakı ilə qəzalar baş verəndə hadisədə günahın sürücüsüz avtomobildə, yoxsa qarşı tərəfdə olduğu həmişə mübahisə yaradırdı. Qardaşım bu problemin ciddiliyini və insanlar üçün faydasını nəzərə alaraq, beş il bu mövzu üzərində işləyərək, avtonom avtomobillər üçün izah ediləbilən süni intellekt arxitekturasının nəzəri konseptlərini, bu konseptlərin eksperimental yolla həllini yolunu tapıb. Nəhayət, 2024-cü ilin sentyabrında bu mövzu üzrə dissertasiyanı müdafiə edərək doktorluq dərəcəsi alıb.

Daha maraqlı məqam isə odur ki, qardaşımın dissertasiyası Kanada, Yaponiya və İspaniyadan olan altı professordan ibarət dissertasiya komissiyasının yekdil qərarı ilə 2024-cü ildə bütün universitet üzrə ən yaxşı doktorluq dissertasiyası mükafatına layiq görülüb. Üstəlik, qardaşımın elektron poçtuna universitetin müvafiq departamentindən göndərilən məktubda yazılıb ki, sizin elmi işiniz orijinallığı və avtonom maşınların daha da şəffaf və təhlükəsiz qərarlar verməsinə dair qatqılarına görə komitə tərəfindən "Ən yaxşı doktorluq dissertasiyası" mükafatına layiq görülür.

Xatırladaq ki, 40 mindən çox tələbəsi olan Alberta Universitetində bütün ixtisaslar üzrə hər il təxminən 400-450 doktorant məzun olur və bunlardan ən yüksək qatqılarına görə fərqlənən dörd-beş doktorantın dissertasiyası qeyd edilən mükafata layiq görülür.

Ötən ilin noyabrında isə qardaşım uğurlu tədqiqatlarına görə "Akademik mükəmməllik" mükafatına layiq görülmüşdü. Dəyəri 12 min dollar vəsait olan həmin mükafat magistr və doktorantura səviyyəsində tədqiqat işi zamanı yüksək nəticələr əldə edən tələbələrə verilir.

Şahin Atakişiyev hazırda Kanadada texnologiya şirkətində və Alberta Universitetində işləyir. Qardaşı Fazilin dediklərinə görə bu qeyri-adi istedada malik soydaşımız uzaq Kanada ölkəsində çoxsaylı uğurlara imza atmasına baxmayaraq, nə zamansa Azərbaycana qayıtmaq, öz bilik və bacarığını, ölkəmizə, xalqımıza və dövlətimizə xidmətdə reallaşdırmaq arzusu ilə yaşayır.

**P.S. Biz, "Xalq qəzeti" olaraq, bu istedadlı soydaşımızı təbrik edirik! Eləcə də, qəzetimizin oxucularına və "Xalq TV"nin tamaşaçılarına söz veririk ki, Lütfi Zadə davamçısı olan bu gənc alim Bakıya gələn kimi onu redaksiyamıza və studiyamıza dəvət edəcəyik.**

*İttifaq MİRZƏBƏYLİ*

# Borçalıda yazılan şəhidlik poeması

**Tbilisidəki "Tbiliselebi Print" nəşriyyatında Azərbaycanın Əməkdar jurnalisti, Gürcüstan Azərbaycanlıları Jurnalistlər Birliyinin sədri, şair-jurnalist Nizami Məmmədzadənin "Şəhid ürəyindən keçən misralar..." poeması kitab halında nəşr edilib.**

Soydaşımızın poeması Azərbaycanın bütün şəhidlərinə ithaf olunub. Əsərdə şəhid ürəyindən keçən duyğular misralara köçürülüb. Ulu öndərin vəsiyyətinə əməl edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Qarabağ naminə fədakar və əzmli fəaliyyəti ustalıqla qələmə alınıb. Ana-bacılarımızın arzusu, diləyi, duaları ilə süslənən lirik əsərdə əsgər və zabitlərimizin qəhrəmanlığı bədii boyalarla əks etdirilib.

**Qarabağ bizimdir, dedi babalar,**
**Oğullar böyüyüb onu aldılar.**
**Döyüşdə Vətəni ucaltmaq üçün,**
**Al-qana boyanıb Zəfər çaldılar!**

**Sevgimin şah sözü Vətənim olub,**
**Ona çox yaraşan bayrağım da var!**
**Bir zaman inləyən torpaqlarımda,**
**Bax indi ətirli gül bağım da var!..**

Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin təşəbbüsü ilə nəfis şəkildə buraxılan kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Mehriban Əsədullasoy (Quliyeva), məsləhətçisi "Kredo" qəzetinin baş redaktoru, Beynəlxalq Rəsul Rza Mükafatı laureatı, şair-publisist Əli Rza Xələflidir.




*Ə.DOSTƏLİ*
*XQ*

Dərbənd Azərbaycan Teatrı – 120

# “Dəmirqapı”da sənət məbədi



**Bugünlərdə Dərbənd Azərbaycan Dövlət Dram Teatrı Azərbaycana qastrol səfərinə gəlib. Teatrın 120 illik yubileyi münasibətilə Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində Miroslav Mitroviçin “Gecəyarısı soyğunçuluq” pyesinin motivləri əsasında hazırlanan “Oğru” tamaşası nümayiş olunub. Fürsətdən istifadə edərək Dərbənd Azərbaycan Dövlət Dram Teatrının direktoru, Dağıstanın Əməkdar mədəniyyət işçisi Firdovsi Əsgərovla və teatrın baş rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti Sərvər Əliyevlə görüşüb söhbətləşdik.**

**– Firdovsi müəllim, bu il teatrınızın 120 illiyidir. Tarixi ənənələri olan bu teatr uzun bir yol keçib, burada böyük aktyor nəsli yetişib. Uzun illər teatrın bina problemləri olub, çətinliklərlə üzləşib, amma teatr yaşayıb, fəaliyyət göstərib. Bəs bu gün vəziyyət necədir?**

**Firdovsi Əsgərov:**

– Dərbənd Azərbaycan Dövlət Dram Teatrı bildiyiniz kimi, 1904-cü ildə yaranıb. Dərbənddə peşəkar Dram Teatrının yaranma tarixi də elə o çağdan başlayır. Əlbəttə, teatr peşəkar sayılsa da, Dərbənd Dram Teatrında səhnəyə çıxan aktyorların demək olar ki, hamısı xüsusi peşə təhsili keçməmişdi. Onlar fitri səhnə qabiliyyəti olan və teatra bir könüldən min könülə vurğun insanlardı. Onların hər birinin adı yəqin ki, Azərbaycan səhnə tarixinə həmişəlik həkk olunubdur. 1910-cu ildə Dərbənd şəhər ictimai klubunun səhnəsində Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının ilk tamaşası göstərildi. Böyük uğurla keçən bu tamaşadan sonra elə həmin il eyni səhnədə dahi Üzeyir bəyin daha məşhur bir əsəri – “O olmasın, bu olsun”, eləcə də Axundovun “Hacı Qara”, “Vəziri-xani Lənkəran” və Haqverdiyevin “Pəri cadu” əsərləri oynanıldı.

1920-ci ildə Şura hökuməti qurulandan sonra Dərbəndin Proletar Gənclər klubunda Azərbaycan Həvəskar Dram Teatrı işə başladı. O vaxt həmin teatra gənc istedadlar axışdı. 1927-ci ildə həmin həvəskar truppaya “peşəkar” statusu verildi və həmin teatr elə Proletar gənclər klubunda özünə sığınacaq tapdı. 1930-cu ildə Dərbənddə İnşaatçılar klubu tikilib qurtardı və 1931-ci ildə elə həmin klubda Dağıstanda ilk peşəkar teatr sayılan Türk (Azərbaycan) Dram Teatrı yenidən öz pərdələrini açdı. Özü əslən dərbəndli olub Bakıda yaşayan, gələcəkdə Azərbaycanın və SSRİ-nin xalq artisti olacaq, gənc və istedadlı aktyor İsmayıl Dağıstanlı təzə açılan Dərbənd Dram Teatrına rejissor dəvət edildi. Ondan iki il sonra, 1934-cü ildən bu teatr Dərbənd Dövlət Azərbaycan Musiqili Dram teatrı kimi tanındı. Sonradan təkcə Dərbənddə deyil, bütün Qafqazda ad-san qazanmış bir çox aktyorlar elə o səhnədə yetişdilər. İkinci Dünya savaşında cəbhədəki əsgərlərə xidmət göstərən kollektivlər arasında Dərbənd Azərbaycan teatrının aktyorları da çox idi. Müharibə getdiyi üçün teatr dəfələrlə bağlanmaq məcburiyyətində qaldı. Amma fəaliyyətini davam etdirdi. Nəhayət, 2021-ci ildə bizim üçün bina tikilməyə başladı. Artıq binanın tikintisi başa çatıb. İnanıram ki, üzümüzə gələn yeni ildə biz yeni binamıza köçəcəyik. Ancaq onu da deyim ki, teatrda akyor çatışmazlığı var. Bu da müəyyən problemlərlə, çətinliklərlə bağlıdır.

**– Bu, hansı çətinliklərdir?**

– Sözün açığı, aktyorların dil problemləri var. Sərvər müəllim sağ olsun, aktyorlarla iş aparır, bu problemi aradan qaldırmağa çalışır. Çox böyük işlər görür.

**– Elə isə sözü Sərvər müəllimə verək. Qoy özü gördüyü işlər barədə danışsın. Sərvər müəllim, baş rejissor olaraq Dərbənd teatrının inkişaf perspektivləri barədə və Firdovsi müəllimin dediyi kadr çatışmazlığı barədə bir qədər geniş danışardınız. Bir də teatrın repertuarına hansı tamaşalar daxil edilib?**

– Təşəkkür edirəm. Mənim Dərbənd Azərbaycan Dövlət Dram Teatrı ilə əlaqələrim hələ 2015-ci ildən başlayıb. O zaman Firdovsi müəllim Bakıya gəlmişdi və beləcə, bizim tanışlığımız başladı. 2017-ci ildən mən teatrın baş rejissorunun səlahiyyətlərini icra edirdim. 15 gün Dərbənd teatrında, 15 gün isə İrəvan Azərbaycan Dövlət Dram Teatrında məşğul olurdum. O vaxtdan indiyə qədər mən Dərbənd teatrında on iki tamaşaya quruluş vermişəm. Bir neçə romanı teatr üçün səhnələşdirmişəm. Bu ilin iyulundan isə teatrın baş rejissoru təyin edildim və bütün qüvvəmi bura sərf etməyə başladım. Mən əsas üstünlüyü, əlbəttə, Azərbaycan klassikasına verirəm, dünya dramaturgiyasına da müraciət edirik, müasir dramaturqlarımızın da əsərlərini hazırlayırıq. Beləcə, Dərbənd Teatrının repertuarını zənginləşdirmişik. Mən baş rejissor təyin olunandan sonra üç tamaşa hazırlamışıq. “Sezarın qətli”, “Oğru” və Süleyman Sani Axundovun “Tamahkar” tamaşalarını təhvil vermişik. Onu da deyim ki, “Tamahkar” tamaşasının quruluşçu rejissoru Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovdur. Biz onu dəvət etdik, o, gəlib həmin tamaşaya quruluş verdi. Peşəkar aktyorlarımız var, canlarını fəda edirlər. Amma bizdə kadr çatışmazlığı mövcuddur. Firdovsi müəllimin söylədiyi kimi, dil baryeri çox çətinlik törədir. Mütləq Azərbaycandan Dərbənd teatrına yeni kadrlar gəlməlidir. Mən belə düşünürəm. Bunu dəfələrlə demişəm. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə də bu barədə müraciət etmişəm. Amma gənclər gəlmək istəmir.

**– Səbəb nədir?**

– Səbəbi hələlik sərhədlərin bağlı olmasıdır. Təyyarə ilə Dərbəndə gedib-gəlmək aktyorlar üçün çox çətindir. Amma gəlsələr, onlar üçün xidməti ev ayrılacaq, kommunal xərcləri ödənəcək və çalışmaq üçün normal imkanlar yaradılacaq. Firdovsi müəllim vurğuladı, 1904-cü ildə yaradılmış teatrla bağlı cəmi 3 ildən sonra, 1907-ci ildə Dərbənd Bələdiyyəsi Çar hökumətinə müraciət edib ki, bu truppa üçün yer ayrılsın. Təsəvvür edin. Sovet hökuməti qurulandan sonra, 1936-cı ildə teatra dövlət statusu verilib. 1941-ci ildə müharibə başlandı və teatr fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. Daha sonra açıldı, 1960-cı ildə yenə bağlandı. 1992-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dərbənd Azərbaycan Dövlət Dram Teatrına yenidən dövlət statusu verildi və o vaxtdan teatr stabil fəaliyyət göstərməyə başladı. Cənab Prezident İlham Əliyevin dəstəyilə teatrımız üçün bina tikintisinə başlandı. Dağıstan Mədəniyyət Nazirliyi və Dərbənd meriyası bu işə rəhbərlik etdi. Artıq binamız tam hazırdır, Dərbəndin mərkəzində yerləşir. Bəzi texniki məsələlər qalıb, gələn il binamızın açılışı olacaq. İnanıram ki, tezliklə Dərbənd teatrı Dağıstanda bir nömrəli teatra çevriləcək.

**– Firdovsi müəllim, siz isə kadr çatışmazlığı məsələsinə toxundunuz. Əvvəllər Dərbənd teatrına azərbaycanlı aktyorlar gəlirdimi?**

– Hələ əsrin əvvəllərində Hüseyn Ərəblinski, Sidqi Ruhulla kimi nəhəng aktyorlar Dərbənd Azərbaycan Dövlət Teatrında çalışıblar, rollar oynayıblar. İsmayıl Dağıstanlının teatrımız üçün böyük xidmətləri olub. Hazırda teatrımızda çalışan aktyorların 40 faizi Azərbaycandan gələn aktyorlardır. Gənc yaşlarında gəliblər, burda ailə qurublar, yaşayıblar. İndi onların əksəriyyəti Dağıstanın Əməkdar artistləridir. Azərbaycandan yeni aktyor nəsli gəlməlidir ki, teatrımız üçün bir təkan olsun.

**– Mən bildiyim qədər vaxtilə Vaqif Əsədov, Ağaxan Salmanlı, Nazir Rüstəmov, Tarıyel Qasımov və digər sənətkarlarımız Dərbənd Azərbaycan Dövlət Dram Teatrında çalışıblar.**

– Bəli, tamamilə doğrudur. Biz ölkəmizdən kənarda fəaliyyət göstərsək də, mənəvi baxımdan Azərbaycana bağlıyıq. Bunsuz mümkün deyil.

**Sərvər Əliyev söhbətimizə müdaxilə edir:**

– Biz qərara gəlmişik ki, hər il Azərbaycandan rejissor və aktyor dəvət edək. Rusiya dövləti bizim tamaşalarımıza vəsait ayırır. Biz indiyə qədər Kabardin – Balkar Respublikasından, Şimali Osetiyadan rejissorlar dəvət etmişik. Azərbaycandan Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyevi dəvət etmişdik ki, gəlib bizim teatrda tamaşa hazırlasın. Çalışacağıq ki, hər il Azərbaycandan bir rejissor dəvət edək. Bu, Dərbənd teatrı üçün böyük bir məktəbdir, teatrımızın inkişafı üçün son dərəcə vacibdir.

**– Firdovsi müəllim, Dərbənd Azərbaycan Dövlət Dram Teatrına tamaşaçı marağı sizi qane edirmi?**

– Əlbəttə. Əvvəllər tamaşaçı yığmaq çox çətin idi. Sərvər müəllim 2017-ci ildən teatrımıza gəldi və teatrda bir canlanma yarandı. İndi tamaşaçılar böyük maraqla teatra gəlir, yeni tamaşalarımza baxırlar, bəyənirlər. Bakıda Azərbaycan Dövlət Rus Dram Teatrında Sərvər müəllimin hazırladığı “Oğru” tamaşası nümayiş olundu və çox böyük maraqla qarşılandı. Tamaşaya gələnlər arasında sənət adamları çoxluq təşkil edirdi. Bu, məni çox sevindirdi. Azərbaycanın bir neçə bölgəsinə də səfərlərimiz nəzərdə tutulur.

**Sərvər Əliyev:**

– Bilirsiniz, dərbəndlilər olduqca teatraldır. Elə vaxt olur ki, tamaşaçıların çoxu çöldə qalır, zal ağzınacan dolu olur. Komediyanı çox sevirlər. Bununla belə, ciddi tamaşalara da maraq var. Məsələn, Albet Kamyunun “Yad” əsərini hazırlamışıq. Bu əsəri repertuara daxil etmək teatrın səviyyəsinin göstəricisidir. Dərbənddə mədəni mühit canlıdır. Orada “Fontanlar bağı”nda böyük dahi Nizami Gəncəvinin monumental bir abidəsini ucaldıblar. Şəhərə böyük turist axını var. Onların da gəlib bizim tamaşalara baxması üçün sinxron tərcümə aparatları alınıb. Biz yeni repertuarla növbəti il Tatarıstanda, Başqırdıstanda, Özbəkistanda qastrol səfərlərində olacağıq. Bir neçə festivallara dəvətlər almışıq.

**– Ümumiyyətlə, teatrınız indiyə qədər beynəlxalq teatr festivallarında iştirak edibmi?**

**Firdovsi Əsgərov:**

– Bəli. Bir neçə dəfə Türkiyədə, Orenburqda və digər ölkələrdə beynəlxaq teatr festivallarına qatılmışıq. Dərbənd Azərbaycan Dövlət Dram Teatrı kifayət qədər tanınır. Elə hallar olur ki, bəzən biz festivalların hamısında vaxt çatışmazlığı üzündən iştirak edə bilmirik.

**– Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq!**

***Söhbətləşdi:***
***Kənan HACI,***
***yazıçı-publisist***

**Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin “Razvedçik” jurnalına müsahibəsində bildirdiklərini arxı keçməmiş “hop” demək kimi qiymətləndirmək çətindir. Onun ABŞ-ın timsalında kollektiv Qərbin məğlubiyyəti məsələsində dilə gətirdiklərinin də erkən olduğunu vurğulamaq niyyətindən uzağıq. Hesab edirik ki, cənab Narışkin çox vacib məqamlara toxunub və onun öz dediklərini əsaslandırmaq baxımından açıqlamadığı yetərli arqumentlər var. Hərçənd, həmin arqumentləri açıqlamır.**

# Narışkinin Qərbə qarşı zəfər tonu

*Rusiya rəsmisi nəyi dedi və nələri demədi?*

Bəli, S.Narışkinin bildirdikləri Cənubi Qafqaz müstəvisində qlobal rəqabətin mövcudluğunun növbəti təsdiqidir. Rəqabət isə çoxcəhətlidir. “Amerikanın Ukrayna ilə bağlı “vəsvəsəsi” Vaşinqtonun qurduğu bütün qlobal maliyyə və hərbi-siyasi sistemə dağıdıcı təsir göstərməyə başlayır. ABŞ bütün cəbhələrdə təşəbbüsü itirir: Yaxın Şərqdən tutmuş Asiya və Afrikaya qədər. Postsovet məkanında isə onlar tamamilə iflasa uğradılar”, – deyən Narışkinin sanki zəfər marşı oxyurmuş kimi vasitəçiliyi də bunu rəhbər tutmamış, bir sıra həlli vacib məsələlərin üzərində sükutla keçilməsinə əsaslanmışdı...

Bir daha deyək ki, Narışkinin Azərbaycanla Ermənistanı eyniləşdirməməsi daha yaxşı olardı. Həm də ona görə ki, ikincidən gələ biləcək təhlükələr hələ sovuşmayıb. Rəsmi İrəvan cidd-cəhdlə Rusiyanın “bölgədə əlavə qıcıqlandırıcılar” adlandırdığı Avropa İttifaqının mülki müşahidə missiyasını səlahiyyət müddətini artırmaqda israrlıdır. O missiyanın ki, Azərbaycanla



dillənməsi diqqətdən yayınmır. Əlbəttə, rusiyalı rəsminin bu cür tonuna hansısa sözümüz yoxdur. Ən azından ona görə ki, müharibədə bütün vasitələr, o cümlədən, rəqibə qarşı psixoloji gedişlər keçərlidir.

Ancaq o da məlumdur ki, qlobal rəqabət bitməyib, davam edir. Bunu ABŞ-ın bütün cəbhələrdə təşəbbüsü itirdiyini, Vaşinqtonun postsovet məkanında uğursuzluğa düçar olmağa başladığını vurğulayan Narışkinin digər fikirlərindən də görmək mümkündür. O, sözügedən rəqabətin konkret seqmentinə, yəni, Azərbaycan və Ermənistan arasındakı duruma keçid alaraq deyib ki, ölkələr bütün məsələlərin müstəqil surətdə həllinə üstünlük verir, Birləşmiş Ştatların və Avropa İttifaqının sülh yolu ilə nizamlanmaya dair tövsiyələrinə qulaq asmırlar.

Burada çox incə nüans var. Narışkin Azərbaycanla Ermənistanı niyə görəsə eyniləşdirir. Halbuki, ölkələr arasında sülh Ermənistanın şərti sərhədinin Ermənistan tərəfində yerləşdirilib və perspektivdə onu NATO-nun missiyasına çevirmək planları var. Bu planların qarşısında dayanan isə Azərbaycandır. Məhz ölkəmizə görə Aİ tam anlamda ermənipərəstlik xəttinə keçid almaqdan çəkinir. Axı Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib aktordur.

Ancaq Narışkinin, belə demək mümkünsə, zəfər marşı tonunda yerinə düşən məqamlar da istisna deyil. Məsələn, rusiyalı rəsmi bildirib ki, qərblilər marionet (Mixeil) Saakaşvilinin bu yaxınlarda qalstuklarını yediyi Gürcüstanda hakim “Gürcü arzusu” partiyasının seçkilərdə qalib gəlməsinə mane ola bilmədilər: “Qərbə qarşı ehtiyatsız oriyentasiyanın zərərli olduğunu dərk edən Gürcüstan hakimiyyəti öz maraqlarından çıxış etmək qərarına gəlib və indi kənardan tətbiq edilən, ənənəvi gürcü dəyərlərinə sonsuz dərəcədə yad olan ultraliberal gündəmdən şüurlu şəkildə



gündəminə yanaşmada ciddi fərqlər var. İkitərəfli danışıqlar xəttini seçən Azərbaycandır. Ölkəmiz, eyni zamanda, Ermənistanı buna məcbur edir. Yəni, rəsmi İrəvan nizamlama məsələsində tet-a-tet danışıqlara heç də Qərbin regiona yiyələnmək arzusunun iflası kontekstində üstünlük verməyib, sadəcə, başqa yolun olmadığını gördüyündən durumla barışıb. Amma tam yox, müəyyən qədər.

Erməni iqtidarı sülh yolundakı manipulyasiyalarını davam etdirir və burada başlıca məqsəd Qərbi Cənubi Qafqazda möhkəmləndirmək, Rusiyanı bölgədən uzaqlaşdırmaqdır. Baş nazir Nikol Paşinyan və komandası bunu Azərbaycanla imzalanacaq sülh müqaviləsinin köməyi ilə gerçəkləşdirməyə cəhd göstərir. Qərbin İrəvana verdiyi sifariş belədir.

Azərbaycanın anlayışında Ermənistanla barış sazişinin imzalanması qlobal rəqabət müstəvisində dəyərləndirilməli hadisə olmamalıdır. Ölkəmizin mövqeyi sülhü konfrantasiyaların təsirindən qorumaq, daha təminatlı etmək əzminin göstəricisidir. Yeri gəlmişkən, zamanında Rusiyanın uzaqlaşır. Moldovada (Maia) Sandu rejimi seçkilərdə demək olar, istədiyi nəticəni əldə etdi, ancaq Moldova cəmiyyətində de-fakto dərin parçalanma qeydə alındı”.

Əlbəttə, Rusiyanın xarici kəşfiyyat şefinin ehtiyatlandığı məqamlar da istisna deyil. Onun fikrincə, postsovet məkanı ABŞ və Böyük Britaniyanın kəşfiyyat xidmətlərinin hücumları üçün prioritet sahə olaraq qalır və bunu mövcud məlumatların təhlili sübuta yetirir. Onun sözlərinə görə, Qərb qarşısına iddialı məqsəd qoyub – ölkələr arasında təkcə iqtisadi və siyasi deyil, həm də dərin tarixi və humanitar əlaqələri kəsmək. Bu yanaşma məşhur anqlo-sakson maksimalizmindən, “Avrasiyanı idarə edən dünyanı idarə edir” deyimindən qaynaqlanır. Narışkin bildirib ki, Qərb üçün idarə etmək parçalamaq və xaos yaratmaq, sonra “təhlükəsizliyin qərəzsiz təminatçısı” kimi özünü xalqlara göstərmək deməkdir: “Bunun necə baş verdiyi Ukrayna nümunəsində aydın görünür”.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Hərbi hissədə bədbəxt hadisə

**Müdafiə Nazirliyinin hərbi qulluqçusu, əsgər Cəfərli Tarıverdi Zaur oğlu odlu silahdan açılmış atəş nəticəsində həlak olub.**

Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev bildirib ki, Naxçıvan Hərbi Prokurorluğuna daxil olmuş məlumat əsasında bu qurumun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin əməkdaşları hadisə yerinə və meyitə baxış keçiriblər. Fakt üzrə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 273 (30677) 11 dekabr 2024-cü il, çərşənbə

İdman

# "Qarabağ" Dünya reytinqində 5 pillə irəliləyib

**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) rəsmi saytındakı məlumata görə, "Qarabağ" dünya klublarının reytinq siyahısında 5 pillə irəliləyib.**



Azərbaycan çempionu 502 komandanın yer aldığı siyahıda 177,5 xalla 67-ci yerdədir. "Zirə"nin mövqeyi dəyişməyib. Klub 94,25 xalla 219-cudur. "Sabah" 14 pillə irəliləyərək (62,5 xal) 409-cu sırada qərarlaşıb. "Turan Tovuz" da siyahıya düşüb. Bölgə klubu 53,75 xalla 496-cıdır.

Qeyd edək ki, İspaniyanın "Real" klubu 388 xalla ilk pilləni tutur.

# Karateçilərimizin İtaliya uğuru

**Azərbaycan karateçiləri İtaliyanın Venesiya şəhərində Dünya Karate Federasiyasının (WKF) təşkil etdiyi yeniyetmə və gənclər arasında "2024 / Karate - 1 Liqa"sında uğurla çıxış ediblər.**




Yarışda ölkəmizi 12-13 yaş kateqoriyasında Elməddin Səlimli (45 kq), 14-15 yaşlılarda isə Vüsal Qənbərov (52 kq) təmsil ediblər. E.Səlimli gümüş, V.Qənbərov isə bürünc medal qazanıblar.

*L.QURBANOVA*
*XQ*

# Gənc idmançımızın çempionluq arzusu

**Ölkəmizdə yeniyetmə və gənclər Qarışıq Döyüş Sənətinə (MMA) böyük maraq göstərirlər. MMA-nın sirlərini öyrədən "Ruslan Fight Club"un gənc yetirmələri ölkədaxili yarışlarda, eləcə də beynəlxalq turnirlərdə qazandıqları nailiyyətlərlə sübut edirlər ki, əzmkarlıq və qətiyyət uğurlu nəticə verir.**

Onlardan biri, Məhəmməd Məmmədli MMA-ya uşaqlıqdan həvəs göstərir. Bir sıra yarışlarda artıq yüksək səviyyədə çıxışı ilə diqqəti cəlb edib. Bugünlərdə Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş klublararası turnirdə bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

**Məhəmmədin məşqçisi, Dünya və Avropa çempionatlarının qalib və mükafatçısı Qəhrəman Xələfov klublararası turnirdə 44 kiloqram çəki dərəcəsində mabarizə aparan idmançının gözəl döyüş nümayiş etdirdiyini bildirdi:**

– Məhəmməd bacarıqlıdır. Gənc olmasına baxmayaraq yaxşı texnikası olan idmançıdır. Bundan əvvəlki yarışlarda da qələbələr qazanıb. Yanvarın ilk həftəsində Azərbaycan çempionatı olacaq. Ondan növbəti yaxşı nəticə gözləyirik. Çempionatda fərqlənənlər Serbiyada keçiriləcək Avropa çempionatına vəsiqə qazanacaqlar.

Qəhrəman Xələfov "Ruslan Fight Club"da gələcəyin çempionlarının yetişdiyini də vurğuladı:



– Yarışa 15 idmançı ilə qatılmışdıq. Onların hər biri imkanlarından maksimum istifadə etdi. Onu da qeyd edim ki, uşaq və yeniyetmələr klubumuzda böyük həvəslə məşğul olurlar. Onların hər biri gələcəyin çempionlarıdır. İdmanla məşğul olmaqla, bu uşaqlar həm uğurlara nail olur, həm də hərtərəfli inkişaf edirlər.

Klubumuzun təmsilçiləri Dünya arenasında çox böyük qələbələrə imza atıblar. Ötən ay MMA ustalarımız Vüqar Kərəmov və Məhəmməd Həsənzadə Yaponiyanın Rizin Döyüş Federasiyasının təşkil etdiyi yarışda rəqiblərini məğlub edərək Vətənə çempion kimi qayıtdılar. Vüqar Kərəmov dekabrın 31-də Yaponiyada kəmər döyüşünə çıxacaq. Bu çox nüfuzlu turnirdir. V.Kərəmov və M.Həsənzadə klubun baş məşqçisi Ruslan Əfəndiyevin yetirmələridir.

Məhəmməd Məmmədli qəzetimizə açıqlamasında Turan Əhmədov və Qəhrəman Xələfovun rəhbərliyi altında məşqlərini inamla davam etdirdiyini bildirdi. O, ən böyük arzusunun Azərbaycan bayrağını gələcəkdə beynəlxalq arenalarda yüksəklərə dalğalandırmaq olduğunu qeyd etdi: "İdmançılarımız ən böyük yarışlarda möhtəşəm qələbələr qazanırlar. Mənim də arzum beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil etmək, Azərbaycanın şöhrətini artırmaqdır".

Məhəmmədə yeni uğurlar arzulayaraq qeyd edək ki, gələcəyimiz olan yeni nəslin nümayəndələri bu gün qazandıqları uğurlarla daim diqqət mərkəzindədirlər. Onların nailiyyətlərinin davamlı olması üçün hər bir şərait yaradılıb. Əminik ki, istedadlı gənc idmançılarımızın sorağı beynəlxalq mötəbər kürsülərdən gələcək.

*L.AZAD*
*XQ*

# Elektron Təhlükəsizlik Xidmətində maarifləndirmə



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə maarifləndirmə təlimi keçirilib.**

Ümumilikdə, 45 nəfərin iştirak etdiyi toplantıda ETX-nin əməkdaşı "İnformasiya təhlükəsizliyi üzrə müdafiə sistemləri" mövzusunda çıxış edib və tələbələrin suallarını cavablandırıb.

Nazirlikdən verilən məlumata görə, tədbirin keçirilməsində məqsəd ali təhsil müəssisələrində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq, karyera planlamasında tələbələri istiqamətləndirməkdir.

*Qəzənfər QASIMOV*
*XQ*

Mülahizə

# Dünyanı doğruluqla gözəlləşdirək



**Elə günlər var ki, bəşəriyyətin, xalqların, yaxud hər birimizin taleyində mühüm rol oynayıb. Həmin günlər təqvimdə qırmızı rənglə yazıldı və ya yazılmadı, daim yaddaşımızda yaşayır və tez-tez xatırlanır. 28 May (1918-ci il) – Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması günü, 15 sentyabr (1918-ci il) – Bakının bolşevik-daşnak əsarətindən azad olunduğu gün, 29 May (1453-cü il ) – İstanbulun fəthi, yaxud 9 May (1945-ci il ) – Faşizm Üzərində Qələbə Günü. 20 Yanvar (1990-cı il) – SSRİ hökumətinin Bakıda qətliam törətdiyi gün... Bu tarixlərin özəllikləri haqqında çox danışmaq olar. Bunlar adi günlər deyil. Məsələn, faşizm üzərində qələbə ilə sülhsevər insanlar dünyanı məhv olmaqdan xilas etmişlər. Bu, bir ölkənin başqası üzərində qələbə çalması deyil, Xeyirin Şər üzərində qələbəsi idi.**

Ona görə də qeyd etdiyimiz günlər tarixə elə yazılıb ki, onu silmək, unutmaq və ya unutdurmaq mümkün deyil. Faşizm üzərində qələbənin, günün qiymətini isə daha çox o dəhşətli illəri yaşamış, illərlə soyuq səngərlərə sinə gərmiş, güllə yağışı altında düşmən üzərinə atılmış, ölüm düşərgələrində gəncliyini, sağlamlığını itirmiş, ömrünün sonunadək həyat yoldaşını, atasını gözləmiş insanlar daha yaxşı bilirlər. Həmin günün isə mayın 9-na və ya 10-na təsadüf etməsinin, fikrimizcə, elə bir mənası yoxdur. Tarix üçün önəmlisi odur ki, insanlıq faşizmə qələbə çalıb. Ağrılı və düşündürücü odur ki, dəqiq olmayan məlumata görə, İkinci Dünya savaşında 60 milyona yaxın insan həlak olub. Bəs yaralananlar, şikəst olanlar, acından ölənlər?..

Faşizm üzərində qələbənin mayın 9-na təsadüf etməsi bizim üçün 47 il sonra ona görə ağrılı oldu ki, 1 gün əvvəl gözəl Şuşamız ermənilərə əsir düşdü və biz doğma cənnətməkanın qarşısında günahlarımızca müxtəlif yollarla don geyindirməyə çalışdıq, özümüzdən yalanlar uydurduq. Şükürlər olsun ki, 28 il 5 ay sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz nəinki Şuşanı, eləcə də digər işğal olunmuş ərazilərimizi azad etdi. 4 ildir ki, xalqımız Şuşanın azad olunduğu günü – 8 noyabrı Zəfər Günü kimi qeyd edir.

Öncə qeyd etdiyimiz kimi, 28 May da bayram günüdür. İşıqlı tarixdir. Xalqımız, yurdumuz ilk dəfə olaraq məhz həmin gündə azadlığa qovuşub, özünün müstəqil respublikasını elan edib.

Belə mühüm tarixlərlə yanaşı, ayrı-ayrı şəxslər üçün unudulmaz olan günlər də var. Məsələn, biri anasının, digəri övladının dünyaya gəldiyi günü, yaxud ailə qurduğu günü özünün xoşbəxt, əziz günlərindən biri sayır. Bu da təbiidir. Çünki insan üçün ana da, övlad da bir-birindən əzizdir.

Amma təqvimdə elə əlamətdar günlər var ki, onların xüsusi bayram kimi qeyd edilməsinin əhəmiyyəti yoxdur. Sovetlər Birliyi dövründə belə saxta, mənasız tarixi günlər çox idi. Şübhəsiz, zaman o günləri yaşatmayacaq. Ancaq biz hər şeyi zamanın axarına buraxmamalıyıq. Necə deyərlər, indi hər bir günə, olaya layiq olduğu qiyməti verməli, zamana, dövrə uyğun yeni bayramlar yaratmalıyıq. Məsələn, fikrimizcə, bütün zamanlar üçün aktual olan Yalanla Mübarizə Gününün təqvimdə yer alması əhəmiyyətli olardı. Həmin gün hər kəs Müqəddəs kitabımıza – Qurani Kərimə, Konstitusiyamıza və vicdanına and içib, ancaq həqiqəti danışmalıdır. Axı başımıza gələn fəlakətlərin və faciələrin əsas səbəblərindən biri çeşid-çeşid yalanlardır. Uşaqlıqdan başlamış qəbir evinədək o qədər yalanlar uydururuq ki, saya-hesaba gəlməz. Elə bilirik ki, söylədiyimiz hansı yalansa bir problemi də həll etdik. Amma fikirləşmirik ki, o yalanlar sabah, ya o biri gün "ilan olub boynumuza dolanacaq", bizi, ailəmizi, lap elə mənsub olduğumuz xalqı həlli çətin problemlərlə üz-üzə qoyacaq.




Dinimizə görə ən böyük günahlardan biri də elə yalan danışmaqdır. Allah Rəsulu (s.) böyük günahların ən böyüyünü üç dəfə təkrarlayaraq: "Allaha şərik qoşmaq, ata-ana haqqına riayət etməmək, cana qəsd etmək!" və ardınca da: "Xəbəriniz olsun! Yalan söz danışmaq, yalandan şahidlik etmək", – deyərək yalanın da böyük günahlardan olduğunu vurğulayıb.

Nə üçün yalan böyük günahlarla eyni tutulur? Çünki yalan bir çox böyük günahların işlənməsinə zəmin hazırlayır. Qurani-Kərimdə buyrulur: "Yalan sözdən çəkinin", "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!" Çünki yalan insanı yaşadığı toplumda hörmətdən salır. Buna görə atalarımız belə deyiblər: "Yalançının evi yandı, heç kəs inanmadı."

"Xoşumuza gələn yalanları ovuc dolusu uduruq, lakin acı həqiqətləri qurtum-qurtum içirik" (Deni Didro). "Yalançı-Allaha qarşı üsyan edən, lakin insanlardan qorxan bir axmaqdır" (Frensis Bekon).

Dahi Nizami Gəncəvi də bu barədə belə deyib:

**Var doğru yazmağa madam ki imkan,**
**Neyçin gəlməlidir ortaya yalan?!**
**Sözün qiymətini saldı yalanlar,**
**Doğrunu danışan hörmətli olar.**

Onu da deyək ki, bəzən söylənilən yalanlar xalqın dövlətə, hökumətə inamsızlığına səbəb olur. Ötən zamanlarda xalqa o qədər yalan vədlər verilib, saxta ümidlər "yedizdirilib" ki, bəzən düzgün statistikaya belə inanmaq istəməyiblər.

Bu söylədiklərim və söyləyə biləcəklərim təqvimdə Yalanla Mübarizə Gününün vacibliyini ön plana çəkir. Yaxşı olar ki, hər günümüz yalansız keçsin. Təbii ki, buna illər, qərinələr lazımdır.

*Səməd MƏLİKZADƏ*

Hava

# Yenə də yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 6-8°, gündüz 9-12° isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 8-13° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.



*Q.QASIMOV*
*XQ*

✓ *Qədimova Zöhrənisə Həmzə qızı ilə "Qız qalası" MTK arasında bağlanmış müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır. Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi ev 62, B girişi, mənzil 73.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova və aparat işçiləri "Bakı Baş Səhiyyə Mərkəzi" publik hüquqi şəxsin direktoru Elçin Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin keçmiş əməkdaşı

**EDİSON HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2851
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00